# TERROR SEVGİ İLƏ YOX EDİLƏR

HARUN YƏHYA
(ADNAN OKTAR)

# MÜNDƏRİCAT


- Giriş
- Terrorun qanlı nəticəsi
- Terrorun artmasında dinsiz ideologiyaların rolu
- Terrorizm ancaq sevgiylə yox edilər
- Əhdi-Ətiq və İncildən sülhə, anlayışa və gözəl əxlaqa dəvət
- Peyğəmbərimizin (s.ə.v.) anlayışı və sevgi dolu əxlaqı
- Bədiüzzaman Səid Nursinin terror və anarxiya çözümləri
- Nəticə
- Təkamül yanılması

# OXUCUYA

Bu kitabda və digər əsərlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhinə olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısı ilə Allahın varlığını inkar edən darvinizm, 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu ortaya çıxarmaq əhəmiyyətli imani vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Buna görə də, hər kitabımızda bu mövzuya qısaca da olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd ediləcək başqa bir məqam isə, bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə, bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salan tərəfi son dərəcə güclüdür. Buna görə də, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxuyacağına ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə

sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin qaynağın mövcud olduğuna şahid olacaq.

Bu əsərlərdə, digər yerlərdə görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, dini mentalitetə qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 73 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Quranın Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (s) Xatəmül-Ənbiya olduğunun rəmzidir. Yazıçı bütün əsərlərində Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu şəkildə inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün əsərlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniyaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, indoneziya, malay, benqal, serb, bolqar, çin, danimarka və isveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər, xarici ölkələrdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanı dərk edər. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın fikir və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq duyğusal inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan qaldırılmışdır. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə alındıqda insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aradan qaldırmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarmaqarışıqlığın, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və xaos mühitini diqqətə aldıqda bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaqdır.

# GİRİŞ

2001-ci ilin sentyabr ayında Amerika Birləşmiş Dövlətlərinin iki böyük şəhərinə təşkil edilən və minlərlə insanın ölümünə və yaralanmasına səbəb olan hücumların ardından bütün dünya "terrorizm" anlayışını yenidən müzakirəyə başladı. Bu hücum, gözlənilməz bir zamanda, dünyanın yeganə güclü qüvvəsi hesab edilən çox güclü bir ölkəyə qarşı, heç təxmin edilməyən bir şəkildə reallaşdı.

Hücumdan sonrakı günlərdə, xüsusilə Amerikada böyük bir qorxu və çaxnaşma yaşandı. Ancaq bu şok qısa müddətdə ortadan qalxdı və hər kəs "Terrorizmlə necə mübarizə aparmalıyıq?" sualının cavabını axtarırdı. Anladılar ki, bu, yalnız Amerika üçün təhlükə deyil və hər bir ölkə eyni vəziyyətlə üzləşə bilər. Artıq heç bir ölkə "necə olsa bu hücum mənə qarşı deyildi!" deyə düşünüb, terrorizmlə edilən mübarizədən uzaq durmaya bilər. İnsanlar gecə yataqlarında yatarkən, evlərində televizor izləyərkən, küçədə yeriyərkən, parkda uşaqlarıyla istirahət edərkən, ya da iş yerlərində çalışarkən terrorizmin qaranlıq üzü ilə qarşılaşa biləcəklərinin fərqinə vardılar.

Anladılar ki, terrorçuların məqsədi, cəmiyyət həyatını iflic etmək, insanları küçəyə çıxa bilməyəcək, kütləvi nəqliyyata vasitələrinə minə bilməyəcək, ticarət edə bilməyəcək hala gətirmək, qısaca qorxu cəmiyyəti yaratmaqdır.

Amerika hücumun şokunu sovuşduran kimi, bir çox ölkənin dəstəyi ilə güclü koalisiya meydana gətirdi və terrorizmə qarşı dünya səviyyəsində mübarizə başlatdı. Ancaq aparılan mübarizənin hərbi sahədə məhdud qalmasının kafi olmayacağı hələ ən başından bilinir və bir çox səlahiyyətli tərəfindən dilə gətirilirdi. Yaxşı terrorizmlə necə mübarizə aparmaq lazım idi? Bu problemin cavabını tapmaq üçün, terrorun qaynaqlarını analiz etmək lazımdır. Bunun üçün isə, terrorizmin tarixində ilk dəfə böyük bir güc halına gəldiyi 20-ci əsrə nəzər salaq.

20-ci əsr şiddətin və terrorun əsri oldu. Böyük müharibələr, regional qarşıdurmalar və müxtəlif terror hadisələri bu əsrə damğasını vurdu. Xüsusilə də 20-ci əsrin sonlarında şiddət vasitələrinin inkişafı, terrorizmin daha çox geniş sahələrdə təsirli olmasını təmin etdi. Artıq terroristlər tək bir düyməni basaraq, yüzlərlə günahsız insanı bir anda öldürə bilir, inkişaf etmiş-texnologiya terrorizmi ilə ölkələrin iqtisadiyyatına milyonlarla dollarlıq zərər

verə bilir, heç ortaya çıxmadan pərdə arxasından dünya siyasətinə yön verə bilirlər. Dünyanın ən böyük texnoloji gücü sayılan Amerika Birləşmiş Ştatlarının Pentaqon və Dünya Ticarət Mərkəzi kimi iki həyati mərkəzinə edilən hücum, terrorizm qarşısında heç bir ölkənin "əlçatmaz" və "hücum ediləməz" olmadığını da bütün açıqlığı ilə ortaya qoydu. Bununla yanaşı nüvə, bioloji və ya kimyəvi hücum təhdidləri də (əgər lazım olan tədbirlər alınmazsa) 21-ci əsrdə terrorizmin daha böyük güc halına gələ biləcəyini və bir hücumla on minlərlə insanı ortadan qaldıra biləcəyini göstərir.

## Terrorizmin düzgün təsviri

Terrorizmin dünya gündəminin ilk sırasına yerləşdiyi indiki vaxtda, "terror", "terrorist" və "terrorizm" tərifi də çox böyük əhəmiyyət qazandı. Hər ölkə öz milli mənfəətləri istiqamətində terrorizmi təyin edir, bir terrorist profili çəkir və terror təşkilatı siyahısı təşkil edir. Bəzi ölkələr üçün "terrorist təşkilat" olaraq görülən qruplar, digərləri üçün azadlıq döyüşçüsü, bəziləri üçün "terrorist ölkə" olaraq görülən ölkələr, bir digəri üçün "sadiq müttəfiq" olaraq görülür. O halda terror necə təyin edilməli, kimin terrorist olduğuna necə qərar verilməlidir?

Bu qərar üçün istifadə ediləcək meyarlar açıqdır:

**1) Mülki şəxslərin hədəf alınması:** Ölkəsi işğal edilmiş bir millətin işğal ordusuna qarşı müqavimət göstərməsi əlbəttə qanuni haqdır. Amma əgər bu müqavimət mülki şəxslərə istiqamətli şiddət dolu hərəkətlər olarsa, bu haqq ortadan qalxar və terrorizm başlamış olur. Bu kitabda görəcəyimiz kimi, bu tərif islamın müharibə haqqındakı qaydalarına da tamamilə uyğundur. Hz. Məhəmməd (s.ə.v), müsəlmanlara müharibə edənlərə qarşı döyüşməyi əmr etmiş, ancaq mülki şəxsləri qəti olaraq hədəf alınmaması, əksinə təhlükəsizliklərinə diqqət göstərilməsi təlimatını vermişdir. Quranda müharibə ancaq müdafiə məqsədli halal edilmişdir. Feli hücuma məruz qalan bir müsəlman bu hücum qarşısında özünü qoruya bilər, ancaq əsla bu hücumu bəhanə edərək hücum edən kimsə xaricində birinə qarşı mübarizəyə girə bilməz. Mülki şəxslərə hücum edə bilməz. Bunu edən insan islamın hökmlərinə görə cinayət işləmiş olar.

**2) Sülhün pozulması**: Hərbi və ya rəsmi hədəflərə istiqamətli hücumlar da terror sayıla bilər. Əgər ortada elan edilmiş döyüş vəziyyəti yoxdursa, aralarında sülh olan iki ölkənin (və ya cəmiyyətin) sülh vəziyyətini pozmaq üçün hərbi hədəfə də olsa hücum edilməsi terrorizmdir.

Sülhü pozan, ya da döyüş vəziyyəti belə olsa mülki şəxsləri hədəf alan hər hücum terrorizmdir. Bu cür hücumun müdafiə olunması, haqlı görülməsi, təsdiqlənməsi düşünülə bilməz.

Bu səbəblə terrorla mübarizə çox əhatəli, hər mərhələdə diqqətlə düşünülmüş və bu böyük bataqlığın tamamilə məhv edilməsi hədəf edilməlidir. Bu səbəblə də terrorizmə qarşı ediləcək mübarizə çox əhatəli, hər mərhələsi diqqətlə düşünülmüş və bu böyük bataqlığı tamamilə yox etməyə istiqamətli olmalıdır. Bunun üçün də əvvəl terrorun hər növünü, kimə qarşı və nə şəkildə olursa olsun lənətlənməsi, hər ölkənin və hər fərdin terrorla öz arasına çox böyük məsafə qoyması lazımdır. Terror, kim tərəfindən və nə şəkildə tətbiq olunursa olsun, hər yerdə terrordur. Dindar müsəlman fərdi terrora da dövlət terroruna da qarşıdır. Səmimiyyətlə terrora qarşı olan insan, Dünya Ticarət Mərkəzində minlərlə günahsız insanın insafsızlıqla öldürülməsinə, Yaponiyada ya da İspaniyada da meydana gələn terrorist hücumlarda həyatını itirən günahsız insanlara, Şərqi Türkistanda, İndoneziyada günahsız mülki şəxslərin həyatlarını itirmələrinə, Ruandada yarım milyondan çox Hutunun qətl edilməsində də, İsraildə və Fələstində insafsızlıqla qətl edilən müdafiəsiz insanlara, ya da dünyanın hər hansı bir bölgəsində terrorist hücumlar səbəbiylə həyatını itirən insanlara eyni şəkildə sahib çıxar. Terrorun hər növünü, hansı səbəblə və hansı hədəfə istiqamətli olursa olsun, ən şiddətli şəkildə qınayar. Beləcə terroristlər heç bir ölkənin sərhədləri içində var ola bilməyəcək, heç bir ölkədən dəstək ala bilməyəcək və həyat sahələrini tam mənasıyla itirəcəklər.

## Terrorun ideoloji dayağı

Terrorizmlə mübarizənin müəyyən nəticəyə çatması üçün hədəf düzgün müəyyən edilməli və metodlar müvafiq olaraq təyin edilməlidir. Bu səbəbdən, bu kitabda terrorun əsl mənbəyini və bir tərəfdən terrorun yaratdığı fəlakətlərə də toxunduq. Terrorun gediş nöqtəsi şiddət, münaqişə və

anarxiyanı tək yol kimi təqdim edən ideologiyalar və hərəkətlərdir. Bir terrorist, günahsız insanları qətlə yetirir, ictimai dincliyini və nizamını pozarkən özünətəlqin edilən fikirlərin və görüşlərin təsiri altında, guya məqbul mübarizə içində olduğunu düşünür. Bu şəxs, onun zorakılıq edən ideologiyalarının səhv və səmərəsiz olduğunu və bu ideologiyadan yola çıxaraq bir şey əldə etməyəcəklərini anladıqda, yalnız o zaman terrorizmi tərk edər. Əks təqdirdə (terrora qaynaq olan ideologiyaların səhvləri və ziddiyyətləri ifşa edilmədikcə, bu ideologiyalar yıxılmadıqca), terrorizmə qarşı alınan tədbirlər həmişə qısa müddətli olacaq, bir müddət sonra terror, başqa yerlərdə, başqa şəraitdə, tam fərqli sima ilə yenə insanlığın qarşısına çıxacaq.

Məhz bu səbəblə terrorizmin sona çatması ancaq terrorun fikri infrastrukturunu tamamilə ortadan qaldırılması ilə mümkündür. Kitabın sonrakı hissələrində terrorun fikri dayağının darvinizm və darvinizmdən qaynaqlanan materialist cərəyanlar olduğunu görəcəksiniz. Materializmin darvinizm ilə birlikdə insanlara verdiyi, "həyat mübarizə meydanıdır", "yalnız güclü olanlar ayaqda qala bilərlər və zəif olanlar məhv olmağa məhkumdur", "insan və bütün kainat kor təsadüflərin əsəridir, bu səbəbdən kimsə etdiklərindən ötəri kimsəyə qarşı məsul deyil" kimi təlqinlər, insanları sanki heyvan kimi həyata sürükləyir. Bu vəziyyətin təbii nəticəsi olaraq da mərhəmətsizlik, təcavüzkarlıq və şiddət adi qarşılanmağa başlanmışdır.

Terror etməyi düşünən, hədəfinə ancaq şiddət yolu ilə çata biləcəyini müdafiə edən adam, hansı dinə, hansı irqə, hansı qrupa mənsub olursa olsun əslində materialist düşüncənin və darvinizmin təsiri altında qalaraq bu hərəkəti həyata keçirir. Buna zaman-zaman din adına ortaya çıxdıqları iddiasında olan terrorist qruplar da daxil edilir. Çünki gerçək din əxlaqını yaşayan kimsənin şiddəti çözüm olaraq mənimsəməsi, insanları öldürərək və qətl edərək məqsədinə çatmağa çalışması qətiyyən mümkün deyil. Bu səbəbdən bu tərz insanlar tətbiqləri ilə din əxlaqının tam tərsi həyat sürürlər və hərəkətlərini materialist ideologiyaların təsiri ilə reallaşdırırlar.

"İslam terroru lənətləyir" adlı kitabımızda İslam dininin (kimə qarşı edilirsə edilsin) terrorun hər növünü şiddətlə lənətlədiyini bildirmiş və islam əxlaqının insanları sülhə, anlayışa və qarşılıqlı razılaşmaya dəvət etdiyini, Quran ayələri işığında izah etmişdik. Terrorizmi yalnız öz ölkəsinə edildiyi təqdirdə qınamasının səmimiyyətsizlik olduğunu, belə bir yanaşmanın terrorla mübarizəni zəiflədəcəyini, islam əxlaqına sahib olan insanın terrorun

hər növü ilə elmi mübarizə etməsi lazım olduğunu vurğulamışdıq. Bu fikri mübarizənin təməlini isə din əxlaqının insanlara izah edilməsi təşkil edir.

İndiki vaxtda siyasətçilər, siyasət mütəxəssisləri və müxtəlif alimlər də terrorizm bataqlığının yalnız hərbi güc istifadə edərək qurudulmasının mümkün olmadığı mövzusunda həmfikirdirlər. Biz də bu kitabımızda terroru aradan qaldırmanın ancaq sevgi, mərhəmət və sülh ilə mümkün ola biləcəyinin üzərində dayanacağıq. Allahın elçiləri vasitəsiylə göndərdiyi haqq dinlər bizlərə bu mövzuda gerçək bir yol göstəricidir. Bu səbəblə də kitabda Qurandan və Əhdi-Ətiq və Əhdi-Cədiddən (Əhdi-Ətiq və Əhdi-Cədid zamanla təhrif edilmişdir. Ancaq içlərində İslam əxlaqına uyğun hissələr də mühafizə edilmişdir) nümunələr verərək terrorun bütün ilahi dinlərə görə qadağan edilən, lənətlənən zorakılıq olduğunu ortaya qoyacağıq. Həmçinin terror ilə tək mübarizə üsulunun din əxlaqının insanlara qazandırdığı sevgi, şəfqət, mərhəmət, təvazökarlıq, incə düşüncə, bağışlayıcılıq və ədalət anlayışı olduğunu tarixdən nümunələrlə gözlər önünə sərəcək və **"Allah sülh yurduna çağırır ..."** (Yunus surəsi, 25) ayəsi gərəyi, insanları sülh və sevgi dolu bir dünya meydana gətirmə mövzusunda səy göstərməyə dəvət edəcəyik.

# TERRORUN QANLI NƏTİCƏSİ

Terrorizm 21-ci əsrdə dünyamızı təhdid edən ən böyük təhlükələrdən biridir. Çünki terrorizm, nəzərdə tutulan siyasi hədəfə şiddət hərəkətləri vasitəsi ilə gəlməyi tək yol olaraq görür. Bir terroristin azğın dünyagörüşünə görə, siyasi anlaşılmazlıqlar, etnik və mədəni fərqlər səbəbi ilə yaşanan problemlər yalnız şiddət yolu ilə həll edilər. Hər qrup öz tələbini ancaq zorakılıqla və təzyiq ilə əldə edə bilər (Burada problem, tələb və ya axsaqlıqların nə olduğu, terrorçunun həyata dünyagörüşünə görə dəyişir.)

Terrorist, hədəfinə çatmanın ancaq mövcud cəmiyyət nizamının pozulması və gündəlik həyata qarışıqlıq, qorxu və narahatlığa hakim olması ilə mümkün ola biləcəyinə inanır. Bəzi terrorçuların məqsədi, şiddət yolu ilə tələblərini qəbul etdirmək və ya şiddət dolu hərəkətlərinin meydana gətirdiyi xaos mühitindən faydalanaraq təşkilatlarının təbliğatını etməkdir. Sabitliyin ortadan qalxdığı, cəmiyyətdə qorxu və narahatlıq ortasında olduğu bir mühitdə, terrorla əlaqəli qruplar hədəflərinə çox asanlıqla gələ biləcəklərini düşünürlər. Beləliklə, onlar "hüquq və ədalət" təmin etməyi iddia edirlər. Ancaq haqlılıq və ədalətin terror aktları ilə qurulacağını və problemlərin şiddət tətbiq edərək həll ediləcəyini düşünmək böyük səhvdir. Allahın **"... yer üzündə fitnə-fəsad törədənlər ..."** (Rəd surəsi, 25) olaraq təsvir etdiyi bu kəslərin bu günə qədər əldə etdikləri tək nəticə, həm öz tərəfdaşlarının həm də günahsız insanların itkilərini artırmaq olmuşdur. Hər il, dünyada minlərlə insanın terror hücumları nəticəsində həyatını itirməsi, yaralanması, iqtisadi böhran içində olması, qorxu və narahatlıq içində həyatlarını davam etdirir. Terrorun nəticəsi çox ürküdücüdür. Buna görə də, bütün insanlığı təhdid edən terrorizm təhlükəsi ilə mübarizə üçün təcili və zəruridir.

## Terrorizm baş ucunuzda!!

Dünya üzərində təxminən 500 terrorist qrup olduğu təxmin edilir. Bu terrorist qruplar arasında narkotika, silah və fahişəlik hərəkatını idarə edən beynəlxalq cinayət şəbəkələri, yeraltı təşkilatları, marjinal meydana gəlmələr, azğın təriqətlər və sözdə din adına hərəkətlərdə olan müxtəlif radikal qruplar

var. Bir çox terrorist təşkilat öz ölkəsi sərhədləri daxilində fəaliyyət göstərərkən, bəzi təşkilatlar, düşmən olaraq xarakterizə etdikləri ölkələri, ya da səs gətirəcəyini düşündükləri müxtəlif mərkəz nöqtələri və insanları hədəf olaraq seçirlər.

Terrorizm qədim dövrlərdən bəri mövcud olmuşdur. Ancaq bu təhdid həqiqətən 20-ci əsrdə yüksəlmişdir. Bu əsrdə terror və terroristlər böyük partlayış meydana gətirdi. Silahların kütləvi şəkildə məhv edilməsi və silah və texnologiyasının sürətli yayılması (xüsusilə informasiya texnologiyaları sahəsində) terror aktlarının gedişini dəyişdi və onların dağıtma gücünü artırdı.

60-cı illərdə, atom bombası və ya başqa nüvə silahı hər hansı terrorçu qrupun əlinə düşməsi vəziyyətində nə baş verə biləcəyini ciddi şəkildə düşünürdü. Nüvə, bioloji və ya kimyəvi hücum on minlərlə, hətta yüz minlərlə insan həyatını itirən, ölkələri geriyə aparacaq nəticələrə səbəb ola bilər. Ancaq belə bir hücum baş vermədi. 1990-cı illərdə, gözlənilən tərzdə hücum ehtimalının reallaşması ehtimalı var idi. Xüsusilə də SSRİ-nin dağılması və sahib olduğu nüvə silahları üzərindəki yoxlamanın zəifləməsi, bu narahatçılıqları artırdı. İnternetin inkişafı və geniş istifadəsi nəticəsində hər cür məlumat əldə etmək asanlığı bu zərərin daha da artmasına gətirib çıxardı.[1]

Bu qorxunu mövzu alan yüzlərlə film çəkildi, kitablar yazıldı, araşdırmalar edildi, hesabatlar hazırlandı. İndi terror aktları bomba, qəsb, təyyarənin qaçırılması, girov götürülmə kimi adət olunmuş hərəkətləri aşa bilər, terrorçular geniş kütlələrə istiqamətli hücumlar reallaşdıra bilirlər. Üstəlik bu hərəkət, birbaşa bir insanın müdaxiləsi olmadan, uzaqdan idarə etmə ilə ya da kompüter köməyiylə ola bilərdi.

Bioloji silahlardan istifadə edərək son dövrdə baş verən bəzi terror aktları bioterrorizm təhlükəsinin ölçülərini də açıqladı. Dövrümüzdə terrorçular, sadə laboratoriyada və təcrübəli bir kimyagərin köməyiylə minlərlə insanı təhdid edə biləcək bioloji silah hazırlada bilirlər. Bunun ən erkən nümunələrindən biri 1984-cü ildə ABŞ-ın Oreqon əyalətindəki bir şəhərdə yemək yeyən 750 nəfərin zəhərlənməsidir. Bu hadisədən o ərazidə fəaliyyət göstərən və Oreqon sakinləri ilə ziddiyyət təşkil edən terror təşkilatı məsuliyyət daşıyırdı. Təşkilat üzvləri fermalarında yetişdirdikləri salmonella bakteriyalarını, bölgədəki dörd restoranın salatlarına yaymışlardı.[2]

1995-ci ildə Tokio metrosuna “sarin” adı verilən kimyəvi silahla təşkil edilən hücum isə, terrorizmin xalqı nə qədər yaxından təhdid edən təhlükə olduğunu gözlər önünə sərdi. Aum Şinrikyo (yüksək həqiqət) adlı azğın təriqət tərəfindən təşkil edilən bu terror hücumunda 12 nəfər öldü, 5.500 nəfər yaralandı. Daha sonra aparılan araşdırmalar bu təriqətin öz laboratoriyasında da bioloji silahlar üzərində çalışdığını ortaya qoydu.[3]

21-ci əsrdə terror hücumlarında informasiya texnologiyaları, eləcə də bioloji və kimyəvi silahları mühüm rol oynaya biləcəyi nəzərdə tutulur. Avropadan Amerikaya, Asiyadan Afrikaya, terror hücumları, təxribat, təyyarə qaçırma və girov götürülmə bütün dünyada sürətlə davam edir. Məsələn, İspaniyanın Bask bölgəsinin müstəqilliyi uğrunda döyüşdüyünü iddia edən terroristlər ETA (Euskadi Ta Askatasuna) 1962-ci ildən etibarən İspaniyada kütləvi terror aktları törətmiş, 800-dən çox insanı öldürmüşlər.[4]

Şimal İrlandiyanın müstəqilliyini məqsəd qoyan IRA da periodik olaraq reallaşdırdığı bombalama hərəkətləriylə illərdir dünya gündəmində ön sıralarda yer almaqdadır. İngiltərənin Şimal İrlandiyadan çəkilməsini, İrlandiya Respublikası hökumətinə hərbi çevriliş edib, sosialist respublika qərargahı olmağı hədəf edən IRA, müxtəlif qaçaqçılıq, soyğun və xərac hadisələrinə də qarışmaqdadır. Ümumiyyətlə Şimali İrlandiya və başda London olmaq üzrə İngiltərə içində hərəkətlərdə olan IRA, Almaniya kimi Avropa ölkələrində də müxtəlif bombalama hadisələrinə qarışmışdır. IRA-in 1969-cu ildən bu yana reallaşdırdığı terrorist hücumlarda, hər iki tərəfdən 3200-dən çox insan həyatını itirmişdir.[5]

İngiltərənin müxtəlif bölgələrində avtomobillərə, hava limanlarına, metro stansiyalarına və vətəndaşlara istiqamətli IRA tərəfindən reallaşdırılan bombalı hücumlar milyonlarla dollarlıq zərərə səbəb olmuşdur. İyun 1996-ci il tarixində İngiltərənin Mançester şəhərində, Avropa Futbol Çempionatı qarşılaşması zamanı IRA-nın bir avtomobilə yerləşdirdiyi bombanın ticarət mərkəzində partlaması nəticəsində 200 nəfər yaralamışdı.

Dövrümüzdə heç bir ölkə terror hücumlarından sığortalanmayıb və yuxarıda saydığımız bir neçə nümunə terrorizmin insan həyatına nə qədər daxil olduğunu açıqlıqla ortaya qoyur. Terrorizm artıq yalnız müəyyən ölkələrin problemi olmaqdan çıxmış, bütün insanlığın problemi halına gəlmişdir. Terrorun nə zaman, harada, kimi hədəf alacağı müəyyən deyil. Bu səbəblə də artıq heç kimsə terrorizmlə mübarizəni müəyyən ölkələrin ya da müəyyən təşkilatların vəzifəsi olaraq görə bilməz. Terrorizm bütün dünyamızı

təhdid etməkdədir və bu problem ancaq insanları, sülhü, dostluğu, qardaşlığı sevən yaxşı niyyətli insanların əl-ələ verib, bir-birinə dəstək olması ilə həll ediləcək.

## Terrorizmin qaralıq üzü

Bu gün ABŞ-dan Anqola, Uqanda, Nigeriya kimi Afrika ölkələrinə, İngiltərə, İspaniya, Fransa kimi Avropa ölkələrindən Şri Lanka, Tailand, Yaponiya kimi Asiya ölkələrinə, Yaxın Şərq ölkələrindən Latın Amerikaya qədər bir çox ölkədə terror minlərlə insanın canını almış və çox böyük maddi itkilərə səbəb olmuşdur. İnsanlar terrorizmlə, evlərində oturarkən, kinoteatrda film izləyərkən, ticarət mərkəzində gəzərkən, avtobusda səfər edərkən, ya da iş yerlərində çalışarkən heç gözləmədikləri bir anda üzləşirlər. Terrorizmin evlərinə qədər girmiş olması, təbii olaraq insanlarda böyük narahatlıq və qorxu meydana gətirir. İnsanlar izdihamlı mühitlərə girməkdən, kütləvi nəqliyyat vasitələrindən istifadə etməkdən çəkinməkdən, gündəlik həyatlarını yaşaya bilməz hala gəlmişlər. Məhz bu, terrorizmin hədəflədiyi cəmiyyət modelidir: Qorxu və narahatlıq içindəki kütlələr.

*Dünya üzərində reallaşan terrorist hücumların ürküdücü təsviri isə bu narahatlığı təsdiqləyən ölçüdədir. 1996-cı ildəki 296 hadisə ilə müqayisədə, 1997-ci ildə ümumi 304 beynəlxalq terrorist hadisə qeydə alınmışdır. 1997-ci ildə 221 nəfər öldürülmüş və 693 nəfər də hücumlarda yaralanmışdır. 1996-cı ildə 314 nəfər öldürülmüş və 2.912 nəfər də yaralanmışdır. 1997-ci ildə bütün dünyada həyata keçirilən 439 hücumdan 398-i iş yerlərinə, ya da rəsmi olmayan təsislərə qarşı təşkil edilmişdir və 139 vətəndaş, terrorist hücumlarda həyatını itirmişdir. Bu kəslərin 39-u isə məmur, ya da hərbi heyətdir.*[6]

*ABŞ Xarici İşlər Nazirliyinin təqdim etdiyi məlumatlara görə, 2000-ci ildə 1999-cu illə müqayisədə terrorist hərəkətlərin sayında 8%-lik artım olmuş və yalnız bu il ərzində 423 insan həyatını itirmiş, 791 nəfər də yaralanmışdır. 1981-2000-ci illər arasında terrorist hücumlar nəticəsində həyatını itirənlərin sayı isə 9.184-dür.*[7]

*Amerikan XİN verdiyi bu rəqəmlərə, dünyadakı bütün terror hadisələri səbəbiylə həyatını itirən bütün insanlar daxil edilməmişdir. Bu hesabat hazırlanarkən, yalnız beynəlxalq terror təşkilatlarının hərəkətləri göz qarşısında saxlanılmış, yerli terror təşkilatlarının hərəkətlərinə yer verilməmiş, ABŞ tərəfindən terror təşkilatı olaraq elan edilməmiş olan bəzi qrupların hücumları məlumatlara daxil edilməmişdir. Daxil edilməyən bu rəqəmlər də göz qarşısında saxlanıldığında, təsvir daha dəhşətli bir hal alır. Məsələn, yalnız Türkiyədə 15 avqust 1984-cü il və 31 oktyabr 2001-ci il tarixləri arasında 21.866 terror hücumu baş verib və bu hücumların nəticəsində 5.605 təhlükəsizlik işçisi və 4.646 vətəndaş həyatını itirmişdir. Hücum əsnasında 16.562 təhlükəsizlik işçisi, 5.091 mülki şəxs yaralanıb.*[8]

*Amerikan Milli Səhiyyə Statistikası Mərkəzinin (National Center for Health Statistics) bir hesabatına görə, 1998-ci ildə yalnız ABŞ-da 3.792 uşaq və gənc, odlu silahlarla yaralanaraq həyatını itirmişdir. 1998-ci ildə odlu silahlardan ölən hər yaşdakı insanın ümumi sayı 30.708 nəfərdir.*[9]

Bununla birlikdə terror səbəbiylə yaranan maddi itki və iqtisadi çöküntü də hadisənin ayrı ölçüsüdür. Terrorun səbəb olduğu qarışıqlıq və anarxiya, bu bölgələrə investisiya edilməsinə maneə törətməkdədir. Terroristlərin, əlaqədar bölgələrin iqtisadi infrastrukturunu meydana gətirən ünsürlərə qarşı hücumlar reallaşdırmaları, bu bölgələrdə sadəcə inkişafa maneə olmaqla qalmır, mövcud imkanları da yox edir. İqtisadi maneələr, başda təhsil olmaq üzrə ictimai həyatın bir çox sahəsində geriləməyə səbəb olur. Terrorla mübarizə üçün edilən hərbi xərclər isə hər ölkə üçün ayrı bir yük yaradır. Xalqın rifah səviyyəsini yüksəltmək üçün istifadə edilə biləcək maddi imkanlar hərbi xərclər yönləndirməklə və bu vəziyyət həm ölkə iqtisadiyyatını həm də qlobal iqtisadiyyatı mənfi istiqamətdə təsir edir.

Yuxarıda ümumiləşdirilən bu məlumat, terrorun yer üzündə yaratdığı qaranlıq tablonu göstərir. Terrorizm bütün dünyaya böyük dağıntı meydana gətirir və insanların həyatına çox mənfi təsir göstərir.

# TERRORUN ARTMASINDA DİNSİZ İDEOLOGİYALARIN ROLU

Bir xəstəliyin müalicəsində təsirli nəticə əldə edə bilmək üçün doğru diaqnoz çox əhəmiyyətlidir. Diaqnozdan sonra başlayan müalicə isə, həmin xəstəlik bədəndən atılana qədər, diqqət və qətiyyətlə davam etdirilməlidir. Əks halda xəstəliyin təkrarlanması qaçınılmazdır. Eyni anlayış, ictimai xəstəliklər üçün də keçərlidir. Hər hansı ictimai problemlə mübarizə edərkən, əvvəlcə o problemin ortaya çıxma səbəblərinin təyin olunması lazımdır. Yoxsa görülən tədbirlər müvəqqəti olmağa məhkumdur. Necə ki, insanların ictimai problemlər qarşısında köklü həllər əldə edə bilməməyin ən əhəmiyyətli səbəblərindən biri də, bu səbəbləri düzgün diaqnoz edilə bilinməməyidir.

Əsrimizin ən əhəmiyyətli ictimai problemlərindən biri olan terrorizm üçün də səbəblər çox vaxt konkret hadisələrdə axtarılır, mübarizə də bu səthi hədəflərə istiqamətli planlaşdırılır. Bu səbəblə terrorizmlə mübarizədə qalıcı nəticə almaq mümkün deyil. Dünyanın terrordan xilas ola bilməsi üçün, əvvəl terrorist yetişdirən əsas qaynaq təsbit edilməli və bu qaynaq tam olaraq ortadan qaldırılmalıdır.

## Terroristin xətalı məntiq hörgüsü

Terrora yalnız hərbi güclə və ya təhlükəsizlik tədbirləriylə həll tapmaq mümkün deyil. Çünki tam hərbi tədbirlər, böyük ehtimalla daha çox şiddətlə qarşılıq tapacaq və sonsuz dövr ərzində qan tökülməyə davam edəcək. Təhlükəsizlik tədbirləri isə heç bir zaman terrora qarşı qəti zəmanətə səbəb olmayacaq. Terrorla mübarizəyə başlayarkən terroristin düşüncə quruluşunun, həyata və insana olan dünyagörüşünün və şiddəti hansı yollarla yaydığını çox yaxşı başa düşülməsi və bunlarla mübarizə edilməsi lazımdır.

Terrorist, müvəffəqiyyətə yalnız şiddət yolu ilə çatacağına inanır. Ətrafındakı insanların özündən qorxmasını istəyər və bu qorxunu yaratmaq

üçün insafsız, mərhəmətsiz, imtiyazsız və təcavüzkar xarakterə bürünər. Onun düşüncəsinə qarşı gələn hər kəs onun üçün düşməndir. Düşmənini isə bir insan olaraq deyil, aradan qaldırılması lazım olan bir hədəf olaraq görür. "Journal Sentinel" qəzeti yazarlarından psixoterapevt Philip Chardin terroristlərin müdafiəsiz insanlara istiqamətli vəhşi hərəkətlər etmənin necə qanuni hala gətirdiklərini sorğuladığı "Terrorists view us as targets, not as humans" (Terroristlər bizi insan olaraq deyil, bir-hədəf olaraq görür) başlıqlı məqaləsində terroristin məntiq hörgüsünü bu şəkildə tərif edir:

*Tədqiqatçılar terroristlərin davranışlarının altında yatan psixoloji səbəbləri araşdırdılar. Bunların ən diqqət çəkəni,* ***qurbanlarını bir əşya, bir obyekt və (olmasını ümid etdikləri şəkliylə) qurban siyahısına əlavə olunacaq bir insan kimi statistik olaraq görmə qabiliyyətləridir.***

*Qurbanları ilə insani əlaqələr, bir insanın yoldaşı ilə, ya da sevdiyi biriylə sahib olacağı əlaqə qurmaq istəməzlər. Əksinə onları siyasi şahmat taxtasındakı fiqurlar olaraq görməyə cəhd edərlər. Nəticə olaraq terroristlər öz baxış bucaqlarına görə, özlərini "insanları öldürən kəslər" olaraq qəbul etməzlər.* ***Asanlıqla və heç bir şey hiss etmədən, heç düşünmədən qətl törətmək üçün fikri olaraq bizi insan xarici hədəflər halına gətirirlər ...***

*Terroristlərin fikrincə, hədəfləri nə olursa olsun, onlar kifayət qədər müqəddəs, möhtəşəm və hər şeyi gözə ala bilən şeydir. Onlar bu şəkildə təşviq edən qırğınları haqlı hesab edirlər.* ***Terroristlərin ana hədəfləri insanlar deyil, nəticələrdir. Onlar üçün əhəmiyyətli olan qırğın deyil, qırğının təsiridir.*** *Terroristlər bir qrup insanın, ya da bütün bir cəmiyyətin ümidlərini, şövqünü ya da həyat şəklini öldürmək istəyirlər. Terroristlər insanları öldürürlər, çünki bunu etmənin məqsədlərinə çatmağın ən sürətli və birbaşa yolu olduğuna inanırlar.*[13]

Philip Chardın diqqət çəkdiyi mövzu son dərəcə əhəmiyyətlidir. Terroristlər qarşılarındakı insanların ölümlərindən ən kiçik kədər duymaz, əksinə nə qədər çox günahsız insan ölürsə, o qədər müvəffəqiyyətli olduqlarını düşünür və hərəkətin müvəffəqiyyətindən böyük sevinc duyurlar. Günahsız insanlara heç mərhəmət etmədən güllə, kiçik uşaqların üzərinə bomba ata bilərlər. Qan tökmək onlar üçün zövq halına gəlir. İnsanlıqdan çıxıb, gözü dönmüş vəhşi heyvana çevrilərlər. Aralarında ən kiçik mərhəmət hissi göstərən olsa, onu dərhal xain elan edərlər. Onsuz da çox vaxt bir-

birlərinə qarşı da silah yönəldir öz içlərindəki fraksiyalara qarşı qanlı hücumlar həyata keçirirlər.

Məhz terroristlərin yuxarıda qısaca tərifini etdiyimiz şiddət tərəfdarı məntiq hörgüləri materialist və darvinist düşüncədən qaynaqlanır. İnsanı bir heyvan olaraq görən, canlıların inkişafını təbiətdəki həyat mübarizəsinə bağlayan, bu mübarizəni güclü olanların qazanacağını və zəiflərin əzilərək yox olacaqlarını müdafiə edən darvinizm, terrorçunun xəstə düşüncə quruluşunun təməlini yaradır.

## Terror ideologiyası darvinizm üzərinə qurulmuşdur

Darvinizm yanılmasına görə, təbiətdə mərhəmətsiz həyat mübarizəsi, daimi qarşıdurma vardır. Güclülər hər zaman zəifləri məğlub edir və inkişaf da bu sayədə mümkün olur. Bu ideologiyanın banisi Darvin, həqiqətdən kənar bu "həyat mübarizəsi" şüarını, "üstün irqlər" (Avropalı ağ irq) və "aşağı irqlər" (Asiyalı, ya da Afrikalı irqlər) ifadələri irqçi məntiq üzərinə oturtmuş, dünya üzərindəki qarşıdurmaların, döyüşlərin təməlini meydana gətirmişdir. Darvinin ortaya atdığı "ən güclülərin həyatda qalması" düşüncəsi, insanlığı kinə, düşmənçiliyə, qarşıdurmaya, döyüşə sövq edən bir çox fikir axınına qanuni zəmin hazırlamışdır.

Darvinizm, insanlara yalnız inkişaf etmiş bir növ heyvan olduqları yalanını deyil, eyni zamanda başıboş təsadüflərin əsəri olduqlarını, yəni bir Yaradıcımızın olmadığı yalanını da təlqin edər. Bu nəzəriyyəyə görə, yer üzündə yalnız cansız daşın, torpağın, qazların və s. olduğu bir dövrdə, küləyin, yağışın, ildırımların təsiriylə təsadüfən canlı varlıq meydana gəlmişdir. Lakin təkamül nəzəriyyəsinin bu iddiası, biologiyanın ən təməl qanunlarına da zidd olan, ağıl və məntiqlə ziddiyyət təşkil edən böyük yalandır. (Təkamül nəzəriyyəsinin yanılmaları ilə əlaqədar ətraflı məlumat üçün kitabın sonundakı "Təkamül yalanı" hissəsinə baxın.) Bu təlqinləri məktəblərdə dərs kitablarından, seyr etdikləri filmlərdən, oxuduqları kitablardan öyrənən insanlar özlərini məsuliyyətsiz zənn edərlər. Müvəffəqiyyətli olmaq üçün hər cür pisliyi qanuni görən, həyatı mərhəmətsiz döyüş meydanı olaraq görən darvinist məntiqlə öyrədilən insanların, bir-

birlərinə heyvan rəftarı etməyi, hətta bir-birlərini yox etməyi son dərəcə adi qarşılayan qəddar fikirlərlə beyinləri doldurulmuşdur.

Məhz bəhs etdiyimiz qəddar fikirlərlə öyrədilən bu insanlar 20-ci əsri bir şiddət əsrinə çevirmiş, darvinizmə əsasən “qarşıdurmanı və döyüşməyi” dəstəkləmiş, hətta bunu ən əhəmiyyətli üsul olaraq mənimsəmişlər. “Dialektik qarşıdurma” kommunist ideoloqların qırğınları üçün yalançı dayaq meydanına gətirmiş, kommunist terror 20-ci əsr ərzində təxminən 120 milyon insanı qətl etmişdir. Darvinizmin “irqlər arası həyat mübarizəsi” və “təbii seleksiya” sayıqlamaları isə nasizmin təməli halına gəlmişdir. Yalnız üstün irqlərin bu sözdə mübarizə dünyasında ayaqda qala biləcəyini müdafiə edən Adolf Hitler isə faşist terror ilə bütün dünyada bir cinayət fırtınası başlatmışdır. Nasizmin işğal və döyüş siyasəti nəticəsində başlayan 2-ci Dünya müharibəsində təxminən 55 milyon insan həyatını itirmişdir. Onların 21-ci əsrdəki davamçıları da yenə şiddəti tək yol olaraq görür və 21-ci əsrin tarixə “terror əsri” olaraq keçməsini istəyirlər. Tarix bizə darvinizmin insanların şüuraltına aşıladığı “insan, mübarizə aparan heyvandır” təlqini insanlar üzərində çox böyük təxribat meydana gətirdiyini göstərmişdir və günümüzdəki ürküdücü terror hadisələri də bu gerçəyi sübut edir. Şiddəti ucaldan, qarşıdurmanı dəstəkləyən, döyüşü bir igidlik olaraq görən, ancaq güclü olanın müvəffəqiyyətli olacağını müdafiə edən azğın darvinist şüarlar artıq tarixin qaranlığına basdırılmalıdır. Çünki darvinizmin ortadan qaldırılması, qarşıdurma və şiddət tərəfdarı fəlsəfələrin də dayaqlarını itirmələri mənasını verir.

Yer üzündəki insanların böyük hissəsinin inandığı üç ilahi din də (Xristianlıq, Musəvilik və İslam) qarşıdurmaya qarşıdır. İrəliləyən hissələrdə ətraflı olaraq görəcəyimiz kimi, hər üç ilahi din də, yer üzündə sülh və hüzur təmin edilməsini qarşısına məqsəd qoyur, günahsız insanların öldürülməsinə, zülm və işgəncə görməsinə qarşı çıxır. Qarşıdurmanı və şiddəti, Allahın insanlar üçün təyin etdiyi əxlaqa zidd olan, anormal və istənməyən anlayışlar olaraq qəbul edir. Halbuki darvinizm, qarşıdurmanı və şiddəti, mütləq var olması lazım olan, təbii, doğru və qanuni anlayışlar olaraq görməkdə və göstərir. Bu səbəbdən dünyamızı əhatə edən terror bəlasının mənşəyi, dinsizlikdə, dinsizliyin dövrümüzdəki qarşılığı olan “darvinizm” və “materyalizm”də gizlidir.

Dövrümüzdə dünyanın demək olar ki, hər ölkəsində, darvinizmin bütün məktəblərdə elmi həqiqət kimi tədris edildiyi düşünülsə, yeni terrorist

gənclərin yetişməsi də qaçınılmaz olacaq. Bu baxımdan, təsadüflər nəticəsində meydana gəlmiş, ataları heyvanlar olan, Allaha qarşı məsul olmayan, başıboş varlıqlar olduqları və ancaq döyüş və qarşıdurma ilə üstün gələrək həyatda qala biləcəkləri öyrədilən gənclərin, bu məsləhətdən uzaq tutulmaları son dərəcə vacibdir. Çünki belə səhv fikirlərlə yetişən gənclərin davakar, mərhəmətsiz, eqoist, şiddət meylli olmaları qaçınılmazdır. Bu gənclər, anarxiya tərəfdarı və terrorist ideologiyaların təlqinlərinə də asanlıqla qapıla bilir, daha sonra gözünü qırpmadan kiçik uşaqları qətl edə biləcək, öz qardaşını öldürə, hər cür vicdana və ağla zidd hərəkəti edə biləcək qədər qəddarlaşa bilirlər. Necə ki, son bir əsrdir dünyanı sıxıb qovuran irqçi və faşist terror qrupları, bu təhsil sisteminin məhsullarıdır.

O halda əvvəlcə edilməsi lazım olan şey, terrorçunun məntiq hörgüsünün çürük olmasını bütün dəlillərlə ortaya qoyulmasıdır. Darvinizmi müdafiə edənlərin və buna inananların hamısının yanıldıqları ən təsirli şəkildə insanlara izah edilməlidir. İnsan başıboş və məsuliyyətsiz deyil. Onu yaradan, hər anına nəzarət edən, düşüncələrini belə bilən və öldükdən sonra onu sorğulayaraq etdiyi hər şeyə qarşılığını verəcək olan Yaradıcımız vardır. Və Rəbbimiz insanı heyvanlardan fərqli olaraq bir ruh, ağıl, iradə, mühakimə qabiliyyəti ilə yaratmışdır. Məsələn bir hadisə qarşısında şiddətlə qəzəblənən, iradəsi zəif bir insan özünü və qarşısındakı insanı heyvan kimi görərsə, ona heç düşünmədən zərər verə bilər, mərhəmətsizcə davrana bilər. Qarşısındakının kiçik uşaq, müdafiəsiz insan olması heç fərq etməz. Ancaq, Allahın ona verdiyi ruhu daşıdığını bilən, ağıl və vicdan sahibi insan isə, hər cür vəziyyətdə qəzəbinə hakim olar. Mühakiməsi və vicdanı hər an açıq olur. Allaha hesab verə bilməyəcəyi ən kiçik hərəkət belə etməz.

Allah Quranda insanlara həm pisliyin həm də pisliklərdən çəkinməyi ilham edildiyini bildirir. (Şəms surəsi, 7-10) Bu səbəbdən, bəzi insanların əxlaqlarındakı pozuqluqların, cinayət işləmələrinin ardındakı səbəb xəyali təkamül prosesi deyil. Bunun səbəbi, Allaha iman etməmələri, etdiklərindən ötəri Allaha hesab verməyəcəklərini zənn etmələri və bu səbəblə çəkinməmələridir. Bu gün bütün dünyada meydana gələn müharibələrin, irqçi qırğınların, banda davalarının, dazlaqların mərhəmətsiz hücumlarının, insanların aclığa, səfalətə tərk edilmələrinin, ədalətsizliyin, mərhəmətsizliyin ardındakı səbəb budur. İnsanları heyvan olaraq görənlər, heyvanlar kimi həyat mübarizəsi içində olmaları lazım olduğunu zənn edənlər, Allahı və axirəti unudan və unutduranlar zalımlıqda sərhəd tanımazlar.

Hər insan Allahın ona üflədiyi ruhu daşıyır və özünü yoxdan var edən Yaradıcımıza qarşı məsuldur. Allah, Quranda özünü başıboş zənn edənlərə yaradılışına və ölümdən sonra təkrar diriləcəklərini belə xatırladar:

**Bəlkə insan özbaşına qoyulacağını güman edir? Məgər o, kişi toxumundan axıdılan bir damla nütfə deyildimi? Sonra laxtalanmış qan oldu. Allah onu yaradıb kamil bir görkəmə saldı. Ondan da bir cüt kişi və qadın yaratdı. Məgər O, ölüləri diriltməyə qadir deyil? (Qiyamət surəsi, 36-40)**

Kitabın bura qədər olan hissələrində terrorizmin şiddəti ucaldan, hər cür problemə şiddətlə həll tapmaq istəyən bir ideologiya olduğunun və darvinizmin terrorizmin əsas dayağı olduğu üzərində dayandıq. Məhz bu səbəblə də insana bir heyvan olduğunu, yalnız fiziki olaraq güclü olan insanların həyatlarını davam etdirə biləcəklərini, insan həyatının mübarizə arenası olduğunu öyrədən bu darvinist ideologiyanın ortadan qalxması, terrorizmin də əsas dayaqlarından birini itirməsi mənasını verir. Bununla birlikdə insanları terror bəlasından uzaq tutmanın ən əhəmiyyətli yolu insanların mənəvi təhsilləridir. Cəmiyyətlərin qalıcı sülhə qovuşa bilmələri ancaq fərdlərin gözəl əxlaqı öyrənmələri və bu əxlaqı yaşamağa başlamaları ilə mümkün olur. Bunun xaricində alınacaq tədbirlər, cəmiyyət həyatını təşkil etmək üçün qoyulan qaydalar və tədbirlər bir yerə qədər təsir edəcək, terror bəlasını tam mənasıyla ortadan qaldırmayacaq.

# Terrorizm ancaq sevgi ilə yox edilər

İnsanı yaradan Allah, ona, Öz ruhundan üfürdüyünü (Səcdə surəsi, 9) və insanın yer üzündə Özünün xəlifəsi olduğunu (Ənam surəsi, 165) bildirir. İnsanı digər canlılardan ayıran ən əhəmiyyətli xüsusiyyətlərindən biri, onun nəfsi və vicdanı ilə birlikdə yaradılmış olmasıdır. Hər insanda ona pisliyi əmr edən nəfs və pislikdən necə çəkinəcəyini ilham edən vicdan vardır. İnsan vicdanının ilham etdiyi sevgi, fədakarlıq, mərhəmət, təvazökarlıq, şəfqət, düzgünlük, dürüstlük, sədaqət, nəzakət və kömək sevərlik kimi gözəl xüsusiyyətləri ilə yanaşı, nəfsindən gələn dağıdıcı və mənfi xüsusiyyətlərə də malikdir. Ancaq inanclı insan vicdanı sayəsində doğru ilə yanlışı bir-birindən ayıra bilər və hər zaman gözəl əxlaqı seçər. Allaha olan güclü imanı və qorxusu, axirətin varlığına olan inancı, sonsuz cəhənnəm əzabından duyduğu şiddətli qorxu və cənnət həyatına olan həsrəti onu nəfsinin azğınlıqlarından uzaq tutar. İnsanlara qarşı gözəlliklə davranar, hər zaman bağışlayıcı olar, pisliyə qarşı yaxşılıqla cavab verər, ehtiyac içində olanın dərhal köməyinə qaçar, mərhəmətlidir, sevgi doludur, şəfqətlidir və anlayışlıdır.

Terroristlər isə nəfslərinin səsini dinləyib, hər cür pisliyi rahatlıqla işləyən, vicdanlarının səsini dinləməyən insanlardır. Bu səbəblə də sevgisiz, təcavüzkar, hər cür əxlaqsızlığı asanlıqla edən, insanlara heç vicdanı sıxıntı duymadan əziyyət edə bilən kəslərdir. Bunun səbəbi isə bu kəslərin Allah qorxusuna sahib olmamaları və din əxlaqını bilib əməl etməmələridir. Çünki Allahdan qorxmayan bir insanı cinayət işləməkdən çəkindirən heç bir güc yoxdur.

Cəmiyyətin mövcud qaydaları insanları cinayətdən və pis əxlaqdan ancaq bir nöqtəyə qədər uzaq tuta bilər. Dövlət cəmiyyətə açıq yerləri, küçələri və mərkəzi bölgələri təhlükəsizlik yolları ilə sayəsində qismən qoruya bilər, cəmiyyətin nizamını təmin edə bilər, güclü ədalət sistemi sayəsində cinayət nisbətini azaltma mövzusunda lazım olan tədbirləri ala bilər. Ancaq hər insana iyirmi dörd saat nəzarət edilməsi mümkün olmadığına görə, müəyyən bir yerdən sonra insanın vicdanı dövrəyə girməlidir. Vicdanını dinləməyən insan, yalnız ikən, ya da özü kimi düşünən insanlarla birlikdə ikən asanlıqla cinayət işləyə bilər. Bu vəziyyətdə lazım olduğunda yalan deyə bilən, haqsız qazanc təmin etməkdən çəkinməyən, məzlumu əzməkdən heç bir narahatlıq duymayan fərdlərdən ibarət olan bir cəmiyyət modeli ortaya

çıxar. Allah qorxusunun olmadığı, mənəvi dəyərlərin itirildiyi bir cəmiyyətdə fiziki tədbirlərin və tətbiqlərin nəticə verməyəcəyi açıqdır. Halbuki din əxlaqı insana, yalnız başına da olsa, etdiyi pislik səbəbiylə ətrafındakı heç kim onu cəzalandırmayacaq olsa da, pislikdən çəkinməsini əmr edər. Etdiyi hər hərəkətdən, aldığı hər qərardan, söylədiyi hər sözdən ötəri Allah Qatında hesaba çəkiləcəyini və sonsuz axirət həyatında bu etdiklərinə görə cavab alacağını bilən bir insanın pislikdən şiddətlə çəkinəcəyi açıqdır.

İnsanların öz istəkləri ilə pislikdən çəkinməyi öyrəndikləri bir cəmiyyətdə, terror təşkilatlarının yayılması mümkün deyil. Çünki din əxlaqının hakim olduğu bir cəmiyyətdə, şiddət tərəfdarı bir çox təşkilatın ortaya çıxmasına səbəb olan problemlər də təbii olaraq aradan qalxmış olar. Cəmiyyətin çox hissəsi dürüstlük, fədakarlıq, sevgi, şəfqət, ədalət kimi yüksək əxlaqa sahibsə bu cəmiyyətdə kasıblıq, gəlir bərabərsizliyi, ədalətsizlik, haqsızlıq, məzlumun əzilməsi, azadlığın məhdudlaşdırılması kimi mənfi hallar ilə qarşılaşılmaz. Tam tərsinə ehtiyac içində olanların ehtiyaclarının aradan qaldırıldığı, zəngin olan kasıb olanın qayğısına qaldığı, güclü olanın zəif olanı qoruduğu, səhiyyə, təhsil, nəqliyyat kimi ictimai imkanlarda hər kəsin ən yaxşısını istifadə edə bilən, fərqli etnik qruplar, dinlər və mədəniyyətlər arasında anlayışın hakim olduğu bir cəmiyyət nizamı olur. Məhz bu səbəblədir ki, gözəl əxlaq, bir çox ictimai problemin həllinin açarıdır. Bu əxlaqın qaynağı da, Allahın insanlara bir rəhbər olaraq göndərdiyi Qurandır.

## Mülayim İslam; Digər bir deyişlə Həqiqi İslam

İslam dini hz. Məhəmməd (s.ə.v)-ə ilk ayənin vəhy edilməsindən sonra keçən yarım əsrlik dövr ərzində, tarixdə tayına az rast gəlinər bir inkişaf göstərmişdir. İslamın Ərəb yarımadasından çıxıb bütün Yaxın Şərq, Şimali Afrika və hətta İspaniyaya yayılması, qərbdə yaşayan bir çox insanın da diqqətini bu dinə yönəltmişdir. Məşhur İslam mütəxəssisi John L. Espositonun ifadəsiylə, *"İslamın ilk yayılışı haqqındakı ən təsir edici şey, sürəti və müvəffəqiyyətidir. Qərbli alimlər buna heyran olmuşlar."*[14] Aradan keçən 14 əsr ərzində İslam, İndoneziyadan Latın Amerikaya qədər dünyanın hər yerinə çatdı. Bu gün müsəlmanlar 1 milyardı aşan əhaliləri ilə dünya əhalisinin təxminən 5-də birini meydana gətirir və İslam ən sürətli böyüyən din olaraq

qəbul edilir. Xüsusilə 11 sentyabrdakı terrorist hücumların ardından İslama olan maraq daha da artmış, İslam dininin mesajını anlamanın nə qədər əhəmiyyətli olduğu aydın olmuşdur. (Ətraflı məlumat üçün bax: *İslamın yüksəlişi, Harun Yəhya*)

Bu gün müsəlman dünyasına baxıldığında islami tətbiqlərin geniş əhatəli yer aldığını görərik. Tətbiq etmədəki fərqliliklər cəmiyyətlərin ənənə və adətlərinə, mədəniyyət təcrübələrinə və dünyanı qavrama formalarına görə formalaşır. Bu müxtəliflik zamanla İslamı anlamağa çalışan və ya İslamiyyət üzərinə araşdırmalar edən kəslərin səhv düşüncələrə qapılmasına səbəb olur. İslam ilə əlaqədar doğru düşüncəyə gəlməyin tək yolu isə bu fərqləri bir kənara buraxıb, İslam əxlaqının özünün izah edildiyi Qurana və Peyğəmbərimiz (s.ə.v)-in tətbiqlərinə baxmaqla mümkündür. Çünki çox vaxt bu fərqlər, Quran əxlaqında olmayan, ancaq o cəmiyyətin ənənəvi dəyərlərini simvollayan ünsürlər ola bilir. Bir cəmiyyətin əksəriyyətinin müsəlmanlardan meydana gəlməsi, o cəmiyyət içində alışılmış hərəkət formalarının, anlayışların və fikirlərinin tam mənasıyla İslami olduğu və ya bunların İslam adına müdafiə olunması lazım olduğu mənasını verməz. Bir qrupun və ya cəmiyyətin İslam anlayışını qiymətləndirərkən bu həqiqəti nəzərə almaq lazımdır. Fərqliliklər o kəslərin və ya qrupların içində olduqları şərtlərə görə etdikləri izahlardan qaynaqlanır. Bu izahların və nəticələrin doğru olub-olmadığı isə ancaq, islamı bizə ən doğru şəkildə çatdıran qaynağa, yəni Qurana və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsinə baxılaraq aydın ola bilər.

Quranı araşdırmadan, edilən tətbiqlərin Quranda yeri olub olmadığını bilmədən, islamiyyət və müsəlmanlar haqqında şərh edilməsi son dərəcə səhvdir. Tək bir birliyin və ya cəmiyyətin həyat tərzini ələ alaraq, İslamı anlamağa çalışmaq, İslam haqqında qənaət ifadə etmək və müxtəlif açıqlamalar vermək insanı çox yanılda bilər. Elə isə ilk olaraq edilməsi lazım olan həqiqi İslamın öyrənilməsi olmalıdır. İslam dinini həqiqi mənbəyindən öyrəndikdən sonra dünyanın fərqli ölkələrində yaşanan modellərin bu meyarlara görə ələ alınması lazımdır. Məhz o zaman İslam dinini tanıdığını zənn edən bir çox insan bəlkə də həyatında ilk dəfə həqiqi İslamla tanış olmuş olacaq və bu günə qədər qapıldığı bütün səhv fikirlər ortadan qalxacaq.

## İslam günahsız insanların öldürülməsini qadağan edir

İslam dininə görə günahsız bir insanı öldürmək çox böyük günahdır və günahsız insanı öldürən adam axirət həyatında çox böyük əzabla qarşılıq görəcək:

**... kim bir adamı öldürməyən və ya yer üzündə fəsad törətməyən bir şəxsi öldürərsə, sanki bütün insanları öldürmüşdür. Kim də onu ölümdən xilas edərsə, sanki bütün insanları xilas etmiş hesab olunar. Elçilərimiz onlara aydın dəlillər gətirdilər. Onların çoxu isə bundan sonra da yer üzündə həddi aşdılar. (Maidə surəsi, 32)**

Yuxarıdakı ayədə də göründüyü kimi, Quranda günahsız insanı öldürmək, bütün insanları öldürməklə bir tutulur. Möminlərin insan həyatına verdikləri əhəmiyyət Furqan surəsində bu şəkildə bildirilir:

**Onlar Allahla yanaşı başqa məbuda yalvarmaz, Allahın haram etdiyi cana haqsız yerə qıymaz və zina etməzlər. Bunu edən kimsə cəzalandırılar. (Furqan surəsi, 68)**

Allah bir digər ayəsində isə insanlara bu şəkildə əmr edir:

**De: "Gəlin, Rəbbinizin sizə nələri haram etdiyini oxuyum". Ona heç nəyi şərik qoşmayın, valideynlərə yaxşılıq edin və yoxsulluq ucbatından uşaqlarınızı öldürməyin. Sizin də, onların da ruzisini Biz veririk. Murdar əməllərin aşkarına da, gizlisinə də yaxınlaşmayın. Allahın, öldürülməsini haram buyurduğu şəxsi haqsız yerə öldürməyin. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə anlayasınız. (Ənam surəsi, 151)**

Allaha səmimi qəlblə iman edən, Onun ayələrini diqqətlə tətbiq edən və sonsuz axirət əzabından qorxan bir müsəlman tək bir insana belə zərər verməkdən çəkinər. Çünki Allahın sonsuz ədalət sahibi olduğunu və hər etdiyinin qarşılığını mütləq alacağını düşünür. Peyğəmbərimiz (s.ə.v) bir hədisində Allahın məmnun olmadığı insanları bu şəkildə saymışdır:

*Hərəm (Müqəddəs bölgə) içində zülm və haqsızlıq edən, cahiliyyə adətini arzulayan və haqsız yerə insan qanı axıtmaq istəyən olmaqla üçdür.*[15]

## İslam, ədalətlə davranmağı əmr edir

İslam əxlaqı iman edənlərə; bir qərar verərkən, bir söz söyləyərkən, bir iş görərkən, qısaca həyatlarının hər anında ədalətli davranmalarını əmr edir. Allahın Quranda bildirdiyi əmrləri və Peyğəmbərimiz (s.ə.v)-in sünnəti bu ədalət anlayışının necə olması lazım olduğunu bütün detallarıyla bizlərə təsvir edər. Quranda bizə bildirilən bütün elçilər, xəbərdar edənlər olaraq göndərildikləri qövmlərə ədalət və sülh gətirmiş, peyğəmbərlərin gəlişi ümmətlərin üzərindəki zülmün və zorakılığın aradan qalxmasına səbəb olmuşdur. Allah Yunis surəsində bu şəkildə bildirir:

**Hər ümmətin bir elçisi vardır. Elçiləri gəldikdə onların arasında ədalətlə hökm verilər və onlara zülm edilməz. (Yunus surəsi, 47)**

Müsəlmanın ədalət anlayışının ən əhəmiyyətli xüsusiyyəti, qarşısındakı insan öz yaxını da olsa, hər vəziyyətdə ədalətlə hökm etməsidir. Allah ayəsində bu şəkildə buyurur:

**Ey iman gətirənlər! Şahidliyiniz özünüzün və ya valideynlərin, ya da yaxın qohumların əleyhinə olsa belə, Allah şahidləri olub ədaləti qoruyun. Əleyhinə şahidlik edəcəyiniz şəxslərin varlı və ya kasıb olmasından asılı olmayaraq Allah onların hər ikisinə daha yaxındır. Arzularınıza uyaraq haqdan uzaqlaşmayın! Əgər siz yalan danışsanız və ya həqiqəti deməkdən boyun qaçırsanız, bilin ki, Allah nə etdiklərinizdən xəbərdardır. (Nisa surəsi, 135)**

Ayədə də görüldüyü kimi, iman edən bir insan üçün qarşısındakı insanın maddi vəziyyəti, ya da sosial vəziyyəti heç bir əhəmiyyət daşımaz.

Əhəmiyyətli olan haqqın reallaşması, heç kimsənin haqsızlığa məruz qalmaması və Allahın ayələrinin qüsursuz şəkildə yerinə yetirilməsidir. Maidə surəsində isə belə buyurulur:

**Ey iman gətirənlər! Allah xatirinə ədaləti qoruyan şahidlər olun. Hər hansı bir camaata qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır. Allahdan qorxun! Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır. (Maidə surəsi, 8)**

Yuxarıdakı ayədə isə Allah iman edənlərə, öz düşmənləri əleyhinə də olsa, hər zaman ədalətlə hökm etmələrinə əmr edir. Müsəlman qarşısındakı insanın ona haqsızlıq etdiyini, onu çətin vəziyyətə saldığını və ya ona düşmən olduğunu düşünüb ani qərarlar verməz, hər zaman vicdanı və Quran ayələri istiqamətində düşünər. Qarşı tərəf həqiqətən səhv bir tutum içində olsa belə, o yaxşılıqla cavab verməklə və Allahın əmr etdiyi əxlaqı göstərməklə məsuldur.

Allah Mumtəhinə surəsinin 8-ci ayəsində isə **"Allah, din yolunda sizinlə vuruşmayan və sizi yurdunuzdan çıxartmayan kimsələrə yaxşılıq etməyi və onlarla ədalətlə rəftar etməyi sizə qadağan etməz. Çünki Allah, ədalətli olanları sevər."** şəklində buyurmuş və müsəlmanların digər birliklərlə olan əlaqələrinin hansı sərhədlər daxilində olması lazım olduğunu bildirmişdir. Bu ayələr iman edən bir insanın bütün insanlara olan dünyagörüşünün təməlidir. Müsəlmanın rəftarı qarşısındakı insana görə deyil, Allahın Quranda bildirdiklərinə görədir. Bu səbəblə səmimi qəlblə iman edən müsəlman hər zaman doğrunun tərəfdarıdır. İman edənlərin bu mövzudakı qərarlılıqları **"Yaratdıqlarımız içərisində elə bir ümmət də vardır ki, haqq ilə doğru yola aparır və bunun sayəsində ədalətlə hökm edirlər."** (Əraf surəsi, 181) ayəsiylə də bizlərə müjdələyir. Quranda ədalətlə əlaqədar digər ayələr isə bu şəkildədir:

**Həqiqətən, Allah sizə əmanətləri sahiblərinə qaytarmanızı və insanlar arasında hökm verərkən ədalətlə hökm vermənizi əmr edir. Allahın sizə verdiyi bu öyüd-nəsihət necə də gözəldir! Şübhəsiz ki, Allah Eşidəndir, Görəndir. (Nisa surəsi, 58)**

**De: “Rəbbim ədalətli olmağı əmr etdi. Hər səcdə etdiyiniz yerdə üzünüzü Ona tutun və Allaha – dini məhz Ona məxsus edərək dua edin. Sizi ilk dəfə yaratdığı kimi diriləcəksiniz”. (Əraf surəsi, 29)**

**Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara haqqını verməyi əmr edir, iyrənc işlər görməyi, pis əməllər törətməyi və azğınlıq etməyi isə qadağan edir. O sizə öyüd-nəsihət verir ki, bəlkə düşünüb ibrət alasınız. (Nəhl surəsi, 90)**

Quranda təsvir edilən ədalət anlayışına görə, qarşı tərəfin hansı dinə, irqə ya da cinsiyyətə sahib olduğu əhəmiyyət daşımaz. Çünki İslam irqlər, cinsiyyətlər arasında bərabərliyi müdafiə edər. Hər cür etnik ayrı-seçkiliyi rədd edər. Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v) *“Bütün insanlar hz. Adəmdən, hz. Adəm isə torpaqdandır”*[16] şəklindəki sözləriylə insanlar arasında heç bir fərq olmadığını vurğulamışdır. Dərinin rəngi, sosial vəziyyət, zənginlik kimi xüsusiyyətlər heç bir insanda bir üstünlük təşkil etmir.

Bu gün dünyanın dörd bir tərəfində insanlar irqləri, dilləri, ya da dərilərinin rəngi səbəbiylə zalımca rəftarlara məruz qalırlar. Quranda isə fərqli xalqların və qəbilələrin yaradılmasının hikmətlərindən biri insanların “bir-birləriylə tanış olmaları” olaraq bildirilir. Hamısı da Allahın qulu olan fərqli millətlər və ya qəbilələr, bir-birləriylə tanış olmalı, bir-birlərinin fərqli mədəniyyətlərini, dillərini, adətlərini, qabiliyyətlərini öyrənməlidir. Müxtəlif irqlərin və millətlərin olmasının bir məqsədi də, qarşıdurma və müharibə deyil, mədəni zənginlikdir. İman edən bir insan tək üstünlüyün təqva ilə, yəni Allah qorxusu və Allaha imandakı üstünlüklə olduğunu çox yaxşı bilir. Allah Hucurat surəsində bu şəkildə bildirir:

**Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah Biləndir, Xəbərdardır. (Hucurat surəsi, 13)**

Bir başqa ayədə isə Allah “**Göylərin və yerin yaradılışı, dillərinizin və rənglərinizin müxtəlifliyi də Onun qüdrət əlamətlərindəndir. Həqiqətən,**

**bunda bilənlər üçün ibrətamiz dəlillər vardır.”** (Rum surəsi, 22) şəklində bildirir.

İslam tarixinə baxdığımız zaman iman edənlərin fərqli irqlərə istiqamətli ədalətli tətbiqləriylə əlaqədar bir çox nümunə görərik. İslam, Afrika, Asiya və Avropanı əhatə edən çox geniş sahədə çox böyük sürətlə böyümüş və bu fəthlər vasitəsilə İslam əxlaqının gözəllikləri də yayılmışdır. İslam hər irqi, milliyyəti, ictimai quruluşa və coğrafiyaya yayılmış, dünyanın daha əvvəl bənzərini görmədiyi bir qardaşlıq bağı ilə milyonlarla insanı birləşdirmişdir. İnsan irqinin qolları və qara irqin digər mədəniyyətlərlə olan əlaqələrini araşdıran və bu mövzudakı əhəmiyyətli işləriylə tanınan tədqiqatçı Joel Augustus Ragers məşhur kitabı “Sex and Race” (Cinsiyyət və irq) adlı əsərində İslam dininin dünya üzərindəki təsirini bu şəkildə təsvir edir:

*İslamın əsrlərdir parıltılı şəkildə ayaqda qalmasının bir səbəbi,* ***bu dində irq və sinif hökmlərinin demək olar yox olması, dərinin rəngi və ya sosial vəziyyəti heç hesaba alınmadan, cəmiyyətin ən yüksək pillələrinə qədər yüksəlmənin qabiliyyətə bağlı olması səbəbiylədir... İslam, tarixinin ən böyük və eyni zamanda ən azad irq potasını meydana gətirmiş və bu irqlər qarışığı, dünyanın bir tayı bərabərini belə görmədiyi ən geniş imperatorluq bünyəsi içində reallaşmışdır.*** *Gücünün zirvəsində ikən, İslam İmperatorluğu, qərbdə İspaniya və Fransa ortasından, Orta Asiya bölgələri də daxil, Şərqdə Hind, Çin və Sakit okeana qədər uzanırdı. Bu geniş torpaqların sultanları müxtəlif dəri rənglərinə sahib idilər.* ***Bir bağçanın çiçəklərinin rənglərinin fərqli-fərqli olması, bu çiçəklər baxımından nə qədər əhəmiyyətlidirsə, dərilərinin rənglərinin fərqliliyi, müsəlmanlar üçün bundan daha az önəmliydi.***[17]

Dünyanın ən tanınmış İslam mütəxəssislərindən biri olan professor Hamilton Alexander Rossken Gibb, “whither Islam?” (İslam hara?) adlı əsərində İslam dininin fərqli irqlərə baxışını bu şəkildə ifadə edir:

*İnsanlığın bu qədər fərqli irqini status, fürsət və təşəbbüs baxımından bərabər hüquqlara sahib olacaq şəkildə bir yerə yığma baxımından bu qədər müvəffəqiyyətli olan başqa bir cəmiyyət yoxdur. İslam qəti olaraq uyğun gəlməyəcək kimi görünən fərqli irqləri uzlaşdırma gücünə malikdir. Şərq və*

*qərbdəki böyük cəmiyyətlərin müxalifəti yerini əməkdaşlığa buraxdığı halda, İslamın uzlaşdırıcı rolu qaçınılmaz olacaq...*[18]

İslam əxlaqı qardaşlıq, sülh, azadlıq və hüzur təməlləri üzərində cəmiyyət məqsəd edər. Bu səbəblə də İslamla tanış olan hər cəmiyyət keçmiş dövrlərin təzyiqçi, zorakı, qarşıdırmaçı anlayışlarından sıyrılmış, yenidən sülh əsaslı bir cəmiyyət inşa etmişdir. (Ətraflı məlumat üçün baxın: *Quranda ədalət və tolerantlıq*, Vural nəşriyyat, Harun Yəhya) Bir çox qərbli tarixçi də bu gerçəyi əsərlərində dilə gətirmiş, islamla tanış olmanın fərqli cəmiyyətlər üzərində çox dərin və müsbət təsir etdiyini ifadə etmişdir. Professor Robert Briffault, "İnsanlığın inkişafı" (The Making of Humanity) adlı əsərində qərb cəmiyyətinin İslam ilə olan əlaqəsinə bu şəkildə toxunar:

*Bütün bəşəriyyət üçün azadlıq, insani qardaşlıq, insanların qanun qarşısında bərabərliyi, məsləhətləşməyi və ümumi seçimi istifadə edən demokratik hökumət idealları, Amerikan konstitusiyasının hazırlanmasına liderlik edən və İnsan Haqları Bəyannaməsində ilham edən ideallar, qərbin yenilikləri deyildi. Bu ideallarin hamısının təməlləri Müqəddəs kitab Quranda var. Bu ideallar, orta əsr Avropasının ziyalılarının müsəlman İspaniya, Siciliya, Xaçlılar və İslami qardaşlıq dərnəklərini təqlid yolu ilə, Xaçlılar sonrasında Avropada inkişaf edən cəmiyyətlər vasitəsilə İslamdan öyrəndiklərinin əsasıdır.*[19]

Yuxarıda izah edilən gerçəklər, islam əxlaqının bütün dünyaya əsrlər boyunca sülh, anlaşma və ədalət dərsi verdiyinin ifadəsidir. Dövrümüzdə də bütün dünya insanları belə bir mədəniyyətin həsrəti içindədirlər və belə bir mədəniyyətin təkrar meydana gəlməməsi üçün ortada heç bir səbəb yoxdur. Lazım olan tək şey insanların əvvəl özlərindən başlayaraq Quran əxlaqını yaşamağa niyyət etmələri, daha sonra da insanlar arasında eyni əxlaqı yaymaq üçün səy göstərmələridir. Quranda əmr edilən əxlaq yaşandığı zaman, ən üst addımdakı rəhbərlərdən ən alta qədər, hər kəs ədalətli, mərhəmətli, anlayışlı, sevgi dolu, hörmətli, bağışlayıcı, dürüst olacaq, bütün cəmiyyətlərə hüzur və sülh gələcəkdir.

## Müsəlman, İslam əxlaqına gözəl sözlə dəvət edər

İnsanları islam əxlaqına dəvət etmək və onlara Allahın varlığını və yaradılış dəlillərini izah etmək hər müsəlmanın məsuliyyətidir. Allah **"içərinizdən xeyrə çağıran, yaxşı işlər görməyi (bilinəni) əmr edən və pislikdən (münkərdən) çəkindirən bir camaat olsun. Məhz onlar nicata qovuşanlardır."** (Al-i İmran surəsi, 104) ayəsiylə bu məsuliyyəti bütün müsəlmanlara bildirmişdir. Allah ayələrdə bu dəvətin necə olacağını da bildirir:

**İnsanları Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et. Şübhəsiz ki, Rəbbin azğınlığa düşənləri də, doğru yolda olanları da yaxşı tanıyır. (Nəhl surəsi, 125)**

**Xoş söz demək və xətaları bağışlamaq, minnətlə verilən sədəqədən daha yaxşıdır. Allah Zəngindir, Həlimdir. (Bəqərə surəsi, 263)**

Saleh möminlər **"Bunlar, yaxşı işlər görməyi buyurur, pis əməlləri qadağan edir və xeyirxah işlər görməyə tələsirlər. Məhz onlar əməlisalehlərdəndirlər"** (Ali İmran surəsi, 114) ayəsiylə də diqqət çəkilən bu vəzifənin əhəmiyyətini dərk edirlər. Bu səbəblə ətraflarındakı hər kəsi, yaxınlarını, ailələrini və ünsiyyət qura bildikləri bütün insanları Allaha iman etməyə, qorxub çəkinməyə və gözəl əxlaqı yaşamağa dəvət edərlər. Möminlərin bu gözəl xüsusiyyətləri Tövbə surəsində bu şəkildə xəbər verilər:

**Mömin kişilərlə mömin qadınlar bir-birinin dostlarıdır. Onlar insanlara yaxşı işlər görməyi buyurur, pis əməllərə qadağa qoyur, namaz qılır, zəkat verir, Allaha və Onun Elçisinə itaət edirlər. Allah onlara rəhm edəcəkdir. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir. (Tövbə surəsi, 71)**

Bu ayədən də aydın olduğu kimi, iman edən hər insan dünya həyatı boyunca davamlı gözəl əxlaqı izah etməklə, şəxsən özü yaşamaqla və insanlara gözəllikləri tövsiyə edib, onları pis işlərdən çəkindirməklə

məsuldur. Allah **“Qullarıma, sözün ən gözəl olanını söyləmələrini söylə...”** (İsra surəsi, 53) ayəsiylə iman edənlərə gözəl sözlə danışmalarını əmr etmişdir. Gözəl söz və pis söz, İbrahim surəsində bu bənzətməklə təsvir edilməkdədir:

**Allahın necə məsəl çəkdiyini görmürsənmi? Gözəl söz kökü yerdə möhkəm olan, budaqları isə göyə yüksələn gözəl bir ağac kimidir. O ağac Rəbbinin izni ilə öz bəhrəsini hər zaman verir. Allah insanlar üçün misallar çəkir ki, bəlkə, düşünüb ibrət alsınlar. Pis söz isə yerdən qoparılmış və artıq kökü üstə dura bilməyən pis bir ağaca bənzəyir. Allah iman gətirənləri dünya həyatında da, axirətdə də möhkəm sözlə sabit saxlayar. Allah zalımları sapdırar. Allah istədiyini edər. (İbrahim surəsi, 24-27)**

Gözəl həyat istəyən insanın, gözəllikləri təşviq etməsi, yaxşılıq istəyənin yaxşılığı yaymaq üçün səy göstərməsi, vicdanlı davranışlar görmək istəyən insanın vicdanlı olmağı tövsiyə etməsi, zülmə razı olmayanın zalımları xəbərdar etməsi, qısacası düzgünlük istəyən insanın digər insanları da doğruya dəvət etməsi əsas şərtdir. Bu dəvəti edərkən ağılından çıxarmamalı ən əhəmiyyətli nöqtələrdən biri isə, hidayəti verəcək və gözəl sözü qarşı tərəfdə təsirli edəcək olanın ancaq Allah olduğudur. Allah Peyğəmbərimiz (s.ə.v)-in də yüksək xarakterinin və üstün əxlaqının bir nəticəsi olaraq insanlara həmişə gözəlliklə davrandığını bildirmiş və onu bütün insanlara nümunə etmişdir.

## İslam, insanlar arasında həmrəyliyi və yardımlaşmanı əmr edər

Allah Quranda insanlara bu şəkildə əmr etmişdir:

**... Yaxşılıq etməkdə və Allahdan qorxmaqda bir-birinizə yardım edin. Günah işlər görməkdə və düşmənçilikdə bir-birinizə köməkçi olmayın. Allahdan qorxun. Həqiqətən, Allah şiddətli cəza verəndir (Maidə surəsi, 2)**

Ayədə də açıqlandığı kimi, möminlər yalnız yaxşılıq mövzusunda səy göstərərlər. Onlar Allahın **"Xeyr adına hər nə etsəniz, şübhəsiz ki, Allah onu bilir."** (Nisa surəsi, 127) ayəsini düşünər və hər etdiklərinin qarşılığını Rəbbimiz qatında mütləq alacaqlarını heç unutmazlar. Yuxarıdakı ayədə Allah məqbul olan köməkləşmənin "yaxşılıq və təqva" mövzusunda olması lazım olduğunu bildirmişdir. Yaxşılığın nə olduğu isə bizə Quranda açıqlanmışdır:

**Yaxşı əməl üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl sahibləri Allaha, Axirət gününə, mələklərə, kitablara, peyğəmbərlərə iman gətirən, sevdiyi malı qohum-əqrəbaya, yetimlərə, kasıblara, müsafirlərə, dilənənlərə və kölələrin azad edilməsinə sərf edən, namaz qılıb zəkat verən, əhd bağladıqda əhdlərini yerinə yetirən, sıxıntı və xəstəlik üz verdikdə, habelə döyüşdə səbir edən şəxslərdir. Onlar imanlarında doğru olanlardır. Müttəqi olanlar da elə məhz onlardır. (Bəqərə surəsi, 177)**

Göründüyü kimi gerçək yaxşılıq, cəmiyyətdə qəbul edilən şəklindən fərqlidir. Quran əxlaqını yaşamayan kəslər yaxşılığı, insanın canı istədiyi zaman, qarşı tərəfə bir lütf olaraq bir yardım olması hesab edərlər. Bu yaxşılıqlar isə ümumiyyətlə yalnız yolda görülən bir dilənçiyə pul vermək, səfərdə yaşlılara yer vermək kimi vərdişlərlə məhduddur.

Halbuki Bəqərə surəsindəki ayədə gördüyümüz kimi, Quranın bildirdiyi yaxşılıq möminin bütün həyatını əhatə edən əxlaq şəklidir və yalnız insanın ürəyi istədiyində, ağılına gəldiyində deyil, bütün həyatı boyunca tətbiq etdiyi bir ibadətdir. Müsəlman özü ehtiyac içində olsa belə yoxsula və yetimə yardım edər, sevdiklərindən infaq edən (İnsan surəsi, 8) ixlas sahibi bir quldur. Çünki Allah **"Mallarında da dilənçinin və (abrına qısılıb dilənməyən) yoxsulun bir haqq var idi."** (Zəriyət surəsi, 19) ayəsiylə yardımlaşmanı, infaq etməyi və yaxşılıq etməyi bir müsəlman xüsusiyyəti olaraq xəbər vermişdir. Onların köməyi heç bir şərtə bağlı deyil. Mömin lazım olduğunda yaxşılıq edə bilmək və başqalarını yaxşılığa təşviq edə bilmək üçün hər cür fədakarlığı gözə ala bilər. Etdiyi köməyi əvəzsiz edər, yalnız Allah rizasını hədəfləyər. Allah İnsan surəsində möminlərin rəftarını bu şəkildə bildirir:

**Və deyərlər: "Biz sizi yalnız Allahın Üzü xatirinə yedirdirik və sizdən nə əvəzini, nə də minnətdarlıq gözləyirik! Əslində, biz, Rəbbimizdən gələ bilən çox kəskin və ağır bir gündən ehtiyat edirik!" (İnsan surəsi, 9-10)**

Müsəlman Allahın sonsuz ədalət sahibi olduğunu bilir və dünya həyatında etdiyi gözəl davranışların mütləq qarşılığı olacağını ağlından çıxarmaz. Dünya həyatının müvəqqəti olduğunu, əsl yurdun Rəbbimiz Qatında olduğunu heç unutmaz. Çünki Allah insanları bu qaçınılmaz sonla xəbərdar edir və hər kəsi gözəl davranmağa dəvət edir:

**Biz göyləri, yeri və onların arasında olanları yalnız haqq olaraq yaratdıq. O Saat mütləq gələcəkdir. Odur ki, Sən onları gözəl tərzdə bağışla. (Hicr surəsi, 85)**

**Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın! Valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara, yaxın və uzaq qonum-qonşuya, yol yoldaşına, müsafirə və sahib olduğunuz kölə və kənizlərə yaxşılıq edin! Həqiqətən, Allah lovğalıq edənləri və özünü öyənləri sevmir. (Nisa surəsi, 36)**

Gözəl davranış edənlərin alacağı qarşılığı isə, Allah ayələrdə bu şəkildə bildirir və bütün insanlığa çox gözəl müjdə verir:

**İman gətirib yaxşı əməllər edənlərə gəlincə, Biz yaxşı işlər görənlərin mükafatını puç etmərik. (Kəhf surəsi, 30)**

**Müttəqilərə: "Allah nə nazil etmişdir?" – deyildikdə, onlar: "Xeyir nazil etmişdir!" – deyərlər. Bu dünyada xeyirli işlər görənlər üçün gözəl mükafat hazırlanmışdır. Axirət yurdu isə daha xeyirlidir. Müttəqilərin yurdu necə də gözəldir! Onlar ağacları altından çaylar axan Ədn bağlarına girəcəklər. Orada onların ürəklərinin istədikləri hər şey vardır. Allah müttəqiləri belə mükafatlandırır. (Nəhl surəsi, 30-31)**

## İslam, yaxşılığı əmr edib, pis əməllərdən çəkinməyi əmr edər

İman edənlər həqiqi yaxşılıq və həqiqi pisliyin nə olduğunu Allahın doğrunu səhvdən ayıran "**kitab olaraq göndərdiyi Quran**" dan öyrənirlər. Quranda, doğru və yanlış, yaxşılıq və pislik kimi anlayışlar, nümunələr verilərək hər insanın anlaya biləcəyi kimi açıqlanmışdır. Həmçinin möminlərə, Allahdan qorxmaları səbəbiylə, yaxşını pisdən ayırd etmələrini təmin edən bir nur və anlayış da verilmişdir. (Ənfal surəsi, 29)

Müsəlman Quranda təsvir edilən doğru və səhvləri çox yaxşı bilir və bütün həyatında tətbiq etmək üçün səy göstərir. Ancaq onun üzərinə yüklənən əhəmiyyətli məsuliyyət daha vardır: İnsanları, doğruları görməyə, səhvlərdən çəkinməyə, Quran əxlaqını yaşamağa dəvət etmək. Bu səbəblə möminlər bütün həyatları boyunca insanlara yaxşı ilə pisin arasındakı fərqi izah edərlər. Allah möminlərə belə əmr etmişdir:

**Qoy sizin içərinizdən xeyrə çağıran, yaxşı işlər görməyi buyuran və pis əməlləri qadağan edən bir camaat çıxsın. Məhz onlar nicata qovuşanlardır. (Al-i İmran surəsi, 104)**

Quranda həmçinin Allahın bu əmrini yerinə gətirən insanların digər insanlar üçün nə qədər xeyirli kimsələr olduqlarına da diqqət çəkilmişdir:

**Siz insanlar arasında üzə çıxarılmış ən xeyirli ümmətsiniz. Siz yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha iman gətirirsiniz. Kitab əhli də iman gətirsəydi, əlbəttə, onlar üçün yaxşı olardı. Onların arasında iman gətirənlər də vardır. Əksəriyyəti isə haqq yolunu azmış fasiqlərdir. (Al-i İmran surəsi, 110)**

Möminlər, Quranın yaxşılığı əmr etmə hökmünü yalnız doğru və səhvi heç bilməyən və dini heç tanımayan insanlara deyil, eyni zamanda möminlərə qarşı da tətbiq edir. Çünki insan yalnız bilmədiyindən deyil, bəzən də unutduğundan, yanıldığından ya da nəfsinin təlqinlərinə cavab verməsindən səhv edə bilər. Məhz bu vəziyyətdə möminlər bir-birlərinə Quranın hökmlərini xatırladaraq yaxşılığı əmr etmiş və pisliyə maneə törətmiş olurlar.

Bir-birlərinə, dünya həyatında ancaq yaxşılıq edənlərin və saleh əməllər edənlərin cənnətlə müjdələnəcəklərini, pislikdən çəkinməyənlərin isə cəhənnəm əzabıyla qarşılıq görəcəklərini söyləyərək xəbərdar edərlər. Bu gözəl məsuliyyət səbəbiylə ən kiçik bir yorğunluq, ya da çətinlik duymaz, qarşılarındakı insan nə qədər çox səhv edirsə etsin səbirlə, şəfqətlə və mərhəmətlə xatırlatmağa davam edərlər. Çünki Allah bir çox ayəsində səbir edənləri sevdiyini bildirərək, möminləri Quran əxlaqını tətbiq edərkən səbirli olmağa dəvət etmişdir. Allah ayələrdə bu şəkildə bildirir:

**Ey iman gətirənlər! Səbir etmək və namaz qılmaqla Allahdan kömək diləyin. Həqiqətən, Allah səbir edənlərlədir! (Bəqərə surəsi, 153)**

**Səbir edib yaxşı işlər görənlər istisnadır. Məhz onlar üçün bağışlanma və böyük bir mükafat vardır. (Hud surəsi, 11)**

## İslam, pisliyə yaxşılıqla cavab verməyi əmr edər

**Yaxşılıqla pislik eyni ola bilməz. Sən pisliyi yaxşılıqla dəf et! O zaman səninlə ədavət aparan kimsə sanki yaxın bir dost olar. (Fussilət surəsi, 34)**

**Sən pisliyi yaxşılıqla dəf et. Biz onların aid etdikləri sifətləri daha yaxşı bilirik. (Muminun surəsi, 96)**

Yuxarıdakı ayələrdə də görüldüyü kimi Allah möminlərə, pisliyə qarşı ən gözəl rəftarla qarşılıq verdikləri təqdirdə xeyirli nəticə əldə edəcəklərini vəd etmişdir. Hətta qarşılarındakı insanla aralarında düşmənçilik olsa belə yaxın dostluq meydana gələ biləcəyinə diqqət çəkmişdir. Pisliyə qarşı yaxşılıqla cavab vermək, inananların mərhəmət anlayışlarının da bir gərəyidir. Qarşı tərəfin Allahın bəyənməyəcəyi pis rəftar etdiyini gördükləri zaman, hər şeydən əvvəl bunun o insanın axirəti baxımından əhəmiyyətli olduğunu düşünərək, qürur və təkəbbürə qapılmadan, ona anlayışlı və təvazökar bir şəkildə yaxınlaşarlar.

İman edənlər həyatları boyunca çox fərqli xarakterdə insanla qarşılaşarlar. Amma qarşılarındakı insanların rəftarlarına görə, onlar da əxlaq anlayışlarını dəyişdirməzlər. Qarşı tərəf lağ edə bilər, çirkin sözlər sərf edə bilər, hirslənə, pis hərəkətlər edə bilər, ya da düşməncə rəftarlar sərgiləyər. Ancaq möminin əfəndiliyi, təvazökarlığı, mərhəmətli və həlim rəftarı heç bir zaman dəyişməz. Özünə deyilən pis bir sözə eynisi ilə qarşılıq verməz. Lağ edənə lağla, qəzəbə qəzəblə cavab vermir. Hirslənən bir insana qarşı sakit və etidallı olar. Səbir edər və lütfkar olar. İncidici rəftara qarşılıq, onu etdiyindən utandıracaq, gözəl əxlaqa təşviq edən şəfqət və mərhəmət anlayışı ilə hərəkət edir. Bu, Peyğəmbərimiz (s.ə.v)-in də bizlərə tövsiyə etdiyi bir əxlaqdır. Peyğəmbərimiz (s.ə.v) bir hədisində *"lütfkar ol ki, sənə də lütfkar davranılsın"*[20] şəklində buyurmuşdur. Bir digər hədisində də möminlərə bu şəkildə səslənmişdir:

*Heç biriniz: "Mən insanlarla bərabərəm. İnsanlar yaxşılıq edərsə mən də edərəm, pis davransa mən də pis davranaram" deyən şəxsiyyətsiz kimsələrdən olmasın! Əksinə insanlar yaxşılıq etsələr onlara yaxşılıq etmək, pis davranırlarsa, haqsızlıq etməmək üçün nəfsinizi tərbiyə edin.*[21]

Maidə surəsində Peyğəmbərimiz (s.ə.v)-ə bəzi İsrailoğullarının xəyanətlərinə qarşı bağışlayıcı olması lazım olduğu bu şəkildə bildirilmişdir:

**... Onlar özlərinə öyrədilmiş şeylərin bir hissəsini unutdular. İçərilərindən az bir qismi istisna olmaqla, sən onlardan daim xəyanət görəcəksən. Onları əfv et və təqsirlərindən keç. Şübhəsiz ki, Allah yaxşılıq edənləri sevir. (Maidə surəsi, 13)**

Ayədə də görüldüyü kimi Allah Peyğəmbərimiz (s.ə.v)-ə, davamlı xəyanət gördüyü bəzi İsrailoğullarına qarşı belə bağışlayıcı olmasını əmr etmişdir. Həmçinin bunu da heç unutmamaq lazımdır: Qarşı tərəfin pis əxlaq göstərməsi insanın özünün də pis əxlaq göstərməsinə bir səbəb deyil. Hər insan Allaha qarşı etdiklərindən tək başına məsuldur. Üstəlik pis rəftara qarşı şəfqət, mərhəmət və gözəl əxlaq göstərər, Qurana görə üstün əxlaqın göstəricisidir. Çünki möminin bu gözəl tutumu, onun Allaha olan bağlılığının

gücünü və şiddətini göstərir. Bu gözəl mövqeyinin qarşılığı isə Yunis surəsində bu şəkildə xəbər verilir:

**Yaxşı iş görənlər üçün ən yaxşısı (Cənnət) və bundan da üstünü (Allahı görmək) vardır. Onların üzünü nə bir qubar, nə də bir zillət bürüyər. Onlar Cənnət sakinləridirlər və orada əbədi qalacaqlar. (Yunis surəsi, 26)**

## İslam, möminlərin hər zaman bağışlayıcı olmalarını əmr edir

Mərhəmətin əhəmiyyətli göstəricilərindən biri də insanın bağışlayıcı ola bilməsidir. Allah Quranda iman edən qullarını "bağışlayıcı" olmağa belə çağırır:

**Sən bağışlama yolunu tut, yaxşı iş görməyi əmr et və cahillərdən üz döndər. (Əraf surəsi, 199)**

Bu, insanın nəfsinə çətin gələ bilən, amma Allah qatında gözəl qarşılığı olan bir davranışdır. İnsan, edilən səhv qarşısında qəzəblənə bilər, ya da bağışlamaq istəməyə bilər. Amma Allah möminlərə bağışlamanın daha gözəl olduğunu bildirmiş və onları bu əxlaqa təşviq etmişdir:

**Pisliyin cəzası özü kimi pislikdir. Amma kim bağışlasa və barışsa, onun mükafatı Allaha aid olar... (Şura surəsi, 40)**

Bir başqa ayədə Allah "**Kim səbir edər və bağışlayarsa, şübhəsiz bu, əzmə dəyər işlərdəndir.**" (Şura surəsi, 43) şəklində bildirərək bunun üstün bir əxlaq olduğuna diqqət çəkmişdir. Allah, "**Sizdən, fəzilət və sərvət sahibləri qohum-əqrəbaya, miskinlərə və Allah yolunda hicrət edənlərə verməyəcəklərinə and içməsinlər, bağışlasınlar və xoş görsünlər. Allahın sizi bağışlamasını istəmirsinizmi? Allah bağışlayandır, rəhm edəndir.**" (Nur surəsi, 22) ayəsiylə möminləri bağışlamaq mövzusunda öz vəziyyətlərini düşünməyə

də təşviq etmişdir. Çünki həqiqətən hər insan Allahın özünü bağışlamasını, əsirgəməsini və rəhmət etməsini istəyər. Yenə eyni şəkildə səhv etdiyi zaman, ətrafındakı insanların onu üzrlü görməsini və bağışlamasını diləyər. Məhz Allah möminlərə bu vəziyyəti xatırladaraq özlərinə edilməsindən xoşladıqları rəftarı, başqalarına da göstərmələrini əmr etmişdir. Bu, möminlər arasında mərhəməti təşviq edən əhəmiyyətli bir hökmdür. Peyğəmbərimiz də bir sözündə *"... Bir haqsızlığı, bir zülmü bağışlayan elə bir insan yoxdur ki, Allah onun izzətini artırmamış olsun."*[22] şəklində buyurmuş və möminləri bağışlayan olmağa təşviq etmişdir.

Möminlər hər insanın səhv edə biləcəyini bildikləri üçün, qarşı tərəfə anlayış ilə yaxınlaşarlar. Çünki Quranda bəhs edilən tövbə ilə əlaqədar ayələrdə əhəmiyyətli olanın səhv etmək deyil, səhvi fərq edər etməz bir daha təkrar etməmək olduğu bildirilir. Bu ayələrdən biri belədir:

**Allah ancaq o kəslərin tövbələrini qəbul edir ki, onlar avamlıqları üzündən pis iş gördükdən sonra tezliklə tövbə edirlər. Allah onların tövbələrini qəbul edər. Həqiqətən, Allah Biləndir, Müdrikdir. (Nisa surəsi, 17)**

İnsanın səmimiyyətini ifadə edən bu şərtlər meydana gəldiyi müddətcə möminlər də bir-birlərinə qarşı son dərəcə bağışlayıcı və mərhəmətli rəftar göstərərlər. Əgər səhv edən insan etdiyindən səmimi olaraq imtina etmişsə, o kimsəni keçmişdə etdiklərindən ötəri mühakimə etməzlər. Həmçinin möminlər özləri tamamilə haqlı olduqları və qarşı tərəfin tamamilə haqsız olduğu bir vəziyyətdə belə heç tərəddüdsüz bağışlaya bilərlər. Çünki Allah bunun gözəl bir əxlaq xüsusiyyəti olduğunu bildirərək möminlərə tövsiyə etmişdir:

**O müttəqilər ki, bolluq zamanı da, qıtlıq zamanı da mallarından Allah yolunda xərcləyir, qəzəblərini boğur və insanları bağışlayırlar. Allah yaxşı iş görənləri sevir (Al-i İmran surəsi, 134)**

Möminlər bağışlama mövzusunda səhvləri böyük, ya da kiçik deyərək ayırmaz və səhvə görə fərqli bağışlayıcılıq anlayışı çıxarmazlar. Səhvi edən insan istəmədən böyük bir can, ya da mal itkisinə səbəb olmuş və bu da qarşı tərəfin maraqlarına böyük ölçüdə zərər vermiş ola bilər. Ancaq meydana

gələn hər hadisənin Allahın izni ilə və bir qədər daxilində inkişaf etdiyini bilən möminlər, bu cür bir hadisəni təvəkküllə qarşılayır və şəxsi olaraq qəzəblənməzlər.

Yenə bu insan cəhalət nəticəsində Quranın bir hökmünə qarşı gəlmiş və Allahın qoyduğu sərhədləri aşmış ola bilər. Ancaq bu rəftarlarından ötəri insanı mühakimə edəcək olan yalnız Allahdır. Bu səbəblə hər hansı bir mövzuda bir insanı mühakimə etmək, ya da bağışlamaq möminlərin məsuliyyətində deyil. İnsanın səmimi olaraq tövbə edib, bu rəftarından peşman olması vəziyyətində alacağı qarşılıq yalnız Allah yanındadır. Necə ki, Allah bir çox ayəsində "Allaha şərik qoşmaq" xaricində möminlərin səmimiyyətlə imtina etdiyi səhvlərini bağışlayacağını bildirmişdir. Möminlər bunu bilmədikləri üçün onlar ancaq Allahın bildirdiyi şəkildə bağışlayar və əgər bu mövzuda Quranda bildirilən bir açıqlama varsa, səhv edən insana bu istiqamətdə davranarlar.

## İslam, insanlara həlim xasiyyətli olmalarını əmr edir

Allah iman gətirənlərə qarşı sonsuz mərhəmət sahibi olandır, bağışlayandır, rəhm edəndir, yumşaq olandır. O, kainatdakı bütün nemətləri insanın əmrinə verən, onları doğru yola çatdıran elçilərlə dəstəkləyən, bir hidayət rəhbəri olan vəhyləriylə saleh qul olmağa yönəldən, Rəhman və Rəhm olandır. Rəbbimiz, Həlim (çox yumşaq olan), Ədl (sonsuz ədalət sahibi olan), Afüvv (əfvi çox olan), Asim (qoruyan), Bərr (qullarına qarşı yaxşılığı çox olan), Qaffar (bağışlaması çox olan), Hafiz (qoruyan və nəzarət edən), Kərim (ikramı bol və comərd olan), Lətif (lütf sahibi), Muhsin (sonsuz lütf sahibi olan), Rauf (çox əsirgəyən), Salam (hər cür təhlükədən qullarını təhlükəsizliyə çıxaran), Təvvab (tövbələri qəbul edən) və Vəhhab (mükafatı çox olan, qarşılıqsız hədiyyə edən) Odur.

İman edənlər, Rəbbimizin üzərindəki qorumasının, sonsuz lütf və lütfkarlığının fərqindədirlər. Bu səbəblə də Allahın razı olacağı, sonsuz cənnətinə və rəhmətinə layiq bir qul olmaq üçün ciddi səy göstərirlər. İman edənlərin ən diqqətə çarpan xüsusiyyətlərindən biri, əvvəlki səhifələrdə də vurğuladığımız kimi sevgi dolu və mərhəmətli olmalarıdır. Müsəlman eyni zamanda çox yumşaq xasiyyətli olan və insanlara qarşı həmişə gözəl tutum

içərisində olan kimsədir. Allah Peyğəmbərimiz (s.ə.v)-in bu yumşaq xasiyyətli rəftarını iman edənlərə nümunə vermişdir:

**Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin. Əgər sən kobud və daş qəlbli olsaydın, onlar hökmən sənin ətrafından dağılışardılar. Sən onların günahından keç, Allahdan onların bağışlanmalarını dilə və görəcəyin işlər barədə onlarla məsləhətləş. Qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən, Allah təvəkkül edənləri sevir.** (Al-i İmran surəsi, 159)

Ayədə Peyğəmbərimiz (s.ə.v)-in yumşaq xasiyyətli əxlaqının insanlar üzərində çox müsbət təsir meydana gətirdiyi və insanların ona daha da bağlanmalarına vəsilə olduğu xəbər verilir. Quranda digər peyğəmbərlərin sevgi dolu və yumşaq xasiyyətli əxlaqları da insanlara nümunə olaraq verilmişdir. Bu peyğəmbərlərdən biri Mədyən xalqına elçi olaraq göndərilən hz. Şueybdir. Ayədə qövmünün hz. Şueyb üçün "...**Doğrudan da, sən yumşaq xasiyyətlisən, ağıllısan**." (Hud surəsi, 87). Hz. İbrahim də üstün əxlaqıyla bütün insanlar üçün nümunədir. Allah Quranda hz. İbrahimin duyğulu, yumşaq xasiyyətli və sevgi dolu olduğunu bildirir. Ayələr bu şəkildədir:

**İbrahimin öz atası üçün bağışlanma diləməsi isə sadəcə ona verdiyi vədə görə idi. Atasının Allaha düşmən olduğu ona bəlli olduqdan sonra isə ondan uzaqlaşdı. Həqiqətən, İbrahim Allaha çox yalvaran həlim bir kimsə idi. (Tövbə surəsi, 114)**

**Həqiqətən, İbrahim həlim, Allaha çox yalvaran və Ona üz tutan bir şəxs idi. (Hud surəsi, 75)**

Allah iman edənlərə həmişə gözəl davranışlar etmələrini, gözəl söz söyləmələrini və insanlara yaxşılıq olmalarını əmr etmişdir. Allahın elçiləri də insanlara Allahın əmr etdiyi şəkildə davranmış və gözəl əxlaqlarından əsla güzəştə getməyiblər. Məsələn dövrün ən azğın və ən zalım rəhbəri olan Fironun yanına gedən hz. Musa (ə.s)-a Allah bu şəkildə səslənmişdir:

**Sən və qardaşın möcüzələrimlə gedin və Məni zikr etməkdə zəiflik göstərməyin. Fironun yanına gedin. Çünki o, həddini aşmışdır. Onunla yumşaq danışın. Bəlkə, öyüd-nəsihət qəbul etsin, yaxud qorxsun!" (Taha surəsi, 42-44)**

Yuxarıdakı ayələr bütün insanlar üçün çox əhəmiyyətli xatırlatmalar ehtiva edir. Hər insan, Allahın Quranda bildirdiyi bu gözəl əxlaqı əskiksiz bir şəkildə yaşamaqla, peyğəmbərlərin əxlaqını özünə nümunə götürməklə məsuldur. Quranda Allahın yaratdığı bütün varlıqlara qarşı çox böyük məhəbbət duyan, sevgisini ən gözəl şəkildə ifadə edən, hər zaman razılıq və anlayış tərəfdarı olan, ən çətin vəziyyətdə belə gözəl sözdən əsla imtina etməyən, istəyərək və zövq alaraq fədakarlıq edən, insanlar üçün həmişə gözəllik və yaxşılıq istəyən, şəxsi mənfəətlərini hər zaman geri plana atan, özü üçün istəmədiyini başqası üçün də istəməyən, ehtiyac içində olanın dərhal köməyinə çatan, zülmə qəti şəkildə razılıq göstərməyən bir insan modeli insanlara təqdim olunur. Bu isə, heç şübhəsiz ki, bütün insanların həsrətini duyduqları və ehtiyacını hiss etdikləri bir modeldir.

## İslam, inanc azadlığını müdafiə edər

İslam inanc mövzusunda insanlara qəti və açıq dillə, tam azadlıq verir. İslamın vəhy edildiyi dövrdən günümüzə qədər etibarlı olan bu anlayış, İslam əxlaqının da təməlini meydana gətirər. Bu mövzudakı ayələr çox açıqdır.

**Dində məcburiyyət yoxdur. Artıq doğru yol azğınlıqdan aydın fərqlənir. Hər kəs tağutu inkar edib Allaha iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar. Allah Eşidəndir, Biləndir. (Bəqərə surəsi, 256)**

İslam əxlaqına görə insan istədiyi inancı seçməkdə azaddır və heç kimsə bir digərinin inanc mövzusunda məcbur edə bilməz. Müsəlman İslam olmasını tələb etdiyi insana yalnız təbliğ etməklə, Allahın varlığını, Quranın Allahın haqq kitabı olduğunu, hz. Məhəmməd (s.ə.v)-in Onun elçisi

olduğunu, axirətin və hesab gününün varlığını, islam əxlaqının gözəlliklərini izah etməklə məsuldur. Amma bu öhdəliyi yalnız dini izah etməklə məhduddur. Allah Peyğəmbərimiz (s.ə.v)-in də yalnız bir təbliğçi olduğunu Nəhl surəsində bu şəkildə bildirir:

**İnsanları Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et. Şübhəsiz ki, Rəbbin azğınlığa düşənləri də, doğru yolda olanları da yaxşı tanıyır. (Nəhl surəsi, 125)**

Bir digər ayədə isə **"... De: "Haqq Rəbbiniz tərəfindəndir. Kim istəyir inansın, kim də istəyir inanmasın"...."** (Kəhf surəsi, 29) şəklində buyurur və Rəbbimiz Peyğəmbərimiz (s.ə.v)-ə **"Onların iman gətirmədiyinə görə özünü həlakmı edəcəksən?"** (Şüara surəsi, 3) şəklində bildirir. Qaf surəsində isə Allah bu şəkildə buyurur:

**Biz onların nə dediklərini yaxşı bilirik. Sən onları məcbur edən deyilsən. Sən Mənim təhdidimdən qorxanlara Quranla öyüd-nəsihət ver! (Qaf surəsi, 45)**

Özünə Allahın, Qatından bir hidayət olaraq endirdiyi İslam dini izah edildiyi zaman insan öz istəyiylə iman edər, heç bir təzyiq və ya məcburiyyət altında qalmadan qərar verər. İnsan doğrunu, ya da səhvi seçməkdə azaddır. Əgər səhv seçim etsə axirətdə bunun qarşılığını alacaq. Quran ayələrində bu mövzuyla əlaqədar çox açıq əmrlər və xatırladıcılar var:

**Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. İnsanları mömin olmağa sənmi məcbur edəcəksən? (Yunis surəsi, 99)**

Məsələn bir möminin təbliği qarşısında birisi dərhal iman edərkən, digər biri inkar edərək lağ edər və aqressiv rəftarlarla cavab verə bilər. Başqa biri vicdanını istifadə edib, həyatını Allahın razı olacağı ümid edilən şəkildə keçirməyə qərar verərkən, digəri isə inkarçılardan olub, gözəl sözə pisliklə cavab verə bilər. Ancaq bu inkar, dəvəti edən kimsəni heç bir şəkildə ümidsizliyə, ya da kədərə salmaz. Allah Yusif surəsində bu şəkildə buyurur:

**Sən nə qədər çox istəsən də, insanların əksəriyyəti iman gətirən deyildir. Sən ki bunun əvəzinə onlardan bir mükafat istəmirsən. Bu Quran aləmlər üçün ancaq bir öyüd-nəsihətdir. (Yusif surəsi, 103-104)**

Burada əhəmiyyətli olan Qurana tabe olmağa dəvət edən insanın, qarşılaşdığı reaksiyalar nə olursa olsun hər zaman üçün Allahın razı olacağı ümid edilən əxlaqı göstərməsi, gözəl əxlaqından qəti olaraq güzəştə getməməyi, təvəkküllü davranmasıdır. Necə ki, Allah "İçərilərindən zülm edənlər istisna olmaqla kitab əhli"ylə ən gözəl olan bir tərzdə mübahisə edin. Və deyin ki: **"Bizə və sizə endirilənə iman etdik; bizim ilahımız da, sizin ilahınız da birdir və biz Ona təslim olmuşuq."** (Ənkəbut surəsi, 46) ayəsiylə dinin necə izah ediləcəyi də bizlərə bildirmişdir: "Ən gözəl tərzdə."

Bunu heç unutmamaq lazımdır ki, yer üzündəki kiçik, böyük hər hadisə Allahın yaratdığı qədər istiqamətində inkişaf edir. Və iman etməyə dəvət edilən bir insana hidayəti verən də Allahdır. Bu səbəblə möminlər, inkarçıların davranışları ilə əlaqədar olaraq heç bir çətinlik hiss etməzlər. Quranda bu mövzuyla əlaqədar bir çox nümunə verilmişdir. Allah "**Onlar bu Kitaba inanmırlar deyə, arxalarınca kədərlənib özünü həlakmı edəcəksən?** (Kəhf surəsi, 6) ayəsiylə Peyğəmbərimiz (s.ə.v)-ə Qurana dəvət etdiyi insanların iman etməmələrinin onda bir sıxıntı meydana gətirməməsi lazım olduğunu bildirmişdir. Bir başqa ayədə isə; **"Gerçək budur ki, sən istədiyini doğru yola yönəldə bilməzsən, ancaq Allah, dilədiyini hidayətə çatdırar; O, hidayətə çatacaq olanları daha yaxşı biləndir."** (Qəsas surəsi, 56) şəklində bildirilmişdir. Bu səbəbdən bir insanın etdiyi dəvət, söylədiyi gözəl sözlər, izah etdiyi hər detal ancaq Allahın istəyi qarşıdakı insan üzərində təsir edər.

İman edən insanın tək məsuliyyəti Qurana dəvət etməkdir. İnkarçıların inkarda dirənmələrinin və bu etdikləri səbəbiylə cəhənnəm əzabını haqq etmələri üçün heç bir məsuliyyəti yoxdur. Rəbbimiz "**Həqiqətən, Biz səni bir müjdəçi və bir qorxudan kimi, haqq (Quran) ilə göndərdik. Sən cəhənnəmin xalqından məsul tutulmayacaksın."** (Bəqərə surəsi, 119) ayəsiylə bu həqiqəti Peyğəmbərimiz (s.ə.v)-ə də bildirmişdir.

Allah insana ağıl və vicdan vermişdir. Elçilərinə və peyğəmbərlərinə vəhy etdiyi müqəddəs kitablarda haqq yolunu göstərmişdir. Bu səbəblə də insan öz seçkilərindən məsuldur. İslam əxlaqı ancaq səmimi qərarla, Allaha təslimiyyətlə və hər zaman doğruları əmr edən vicdanın səsini dinləyərək

yaşana bilər. Bir insanı ibadət etməyə məcbur etmək islam əxlaqına tamamilə ziddir. Çünki əhəmiyyətli olan insanın qəlbdən Allaha təslim olması, səmimi olaraq iman etməsidir. Əgər bir sistem insanları inanca və ibadətə məcbur edirsə, bu vəziyyətdə insanlar o sistemdən qorxduqları üçün dindar olarlar. Bu da münafiqliyin inkişafı üçün mühit hazırlanması deməkdir ki, heç arzu olunmayacaq bir vəziyyətdir. Din baxımından məqbul olan, vicdanların tamamilə sərbəst buraxıldığı bir mühitdə Allah rizası üçün din əxlaqının yaşanmasıdır. Allah Ğaşiyə surəsində Peyğəmbərimiz (s.ə.v)-ə bu şəkildə buyurur:

**Yerin necə döşədildiyini görmürlər? Onlara nəsihət ver! Sən yalnız nəsihətçisən. Sən onların üstündə hökmdar deyilsən. Lakin üz döndərib küfr edəni, Allah ən şiddətli əzabla cəzalandırar. Şübhəsiz ki, onların dönüşü Bizədir. Sonra onları sorğu-suala çəkmək də Bizə aiddir. (Ğaşiyə surəsi, 21-26)**

İslam dini, yuxarıda da qeyd etdiyimiz kimi, insanları dini inanclarını seçməkdə azad buraxarkən, onların digər dinlərə hörmət etmələrini əmr edir. Bir insan Quranda batil olaraq təsvir edilən bir inanca sahib olsa belə, islam torpaqlarında hüzur və barış içində yaşaya bilər, ibadətlərini azad şəkildə edə bilər. Allah Peyğəmbərimiz (s.ə.v)-ə inkar edənlərə bu şəkildə söyləməsini əmr etmişdir:

**Mən sizin ibadət etdiklərinizə ibadət etmərəm, siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. Mən sizin ibadət etdiklərinizə ibadət edən deyiləm, siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. Sizin dininiz sizə, mənim dinim də mənədir!” (Kafirun surəsi, 2-6)**

İslam əxlaqına görə hər insan öz inanclarına görə ibadətlərini azad şəkildə yerinə gətirə bilər. Heç kimsə bir digərini öz dininin ibadətlərini yerinə yetirməkdən saxlaya bilməz. Ya da bir insanı istədiyi şəkildə ibadət etməyə məcbur edə bilməz. Bu islam əxlaqına ziddir və Allahın razı olmadığı bir davranış formasıdır. İslam tarixini araşdıranda hər kəsin sərbəst şəkildə ibadət edə bildiyi, inanclarının gərəklərini yerinə gətirə bildiyi bir cəmiyyət

modeli görülür. Quranda kitab əhlinin ibadət yerləri olan monastır, kilsə və sinaqoqlarda da Allahın qoruduğu ibadət məkanları olaraq bəhs edilir:

**... Əgər Allah insanların bəzilərini, digərləri ilə dəf etməsəydi, içərisində Allahın adı çox zikr olunan hücrələr, kilsələr, sinaqoqlar və məscidlər dağılıb gedərdi. Allah Ona yardım edənlərə, mütləq yardım edər. Şübhəsiz ki, Allah Qüvvətlidir, Qüdrətlidir. (Həcc surəsi, 40)**

Peyğəmbərimiz (s.ə.v)-in həyatı da bu kimi nümunələrlə doludur. Hətta Peyğəmbərimiz (s.ə.v) onunla görüşməyə gələn xristianların öz məscidində ibadət etmələrini söyləmiş və bu iş üçün məscidi onların istifadəsinə buraxmışdır.[23] Peyğəmbərimiz (s.ə.v)-dən sonrakı xəlifələr dövründə də bu mərhəmətli anlayış qorunmuşdur. Şam fəth edildiyi zaman, məscidə çevrilən kilsə ikiyə bölünmüş, bir yarısında xristianlar, o biri yarısında müsəlmanlar ibadət etmişlər.[24]

## İslam, zülmə razılıq göstərilməməsini əmr edər

Möminlər şahid olduqları, eşitdikləri, hətta dolayı yolla xəbərdar olduqları heç bir zülmə qarşı laqeyd qalmazlar. Quran əxlaqından qaynaqlanan mərhəmətləri onları, hər cür zorakılığa, pisliyə və zülmə qarşı rəftar almağa, məzlumların haqqını qorumağa və onlar üçün fikri mübarizə etməyə yönəldir. Qarşılarında ən yaxın dostları da olsa, heç tanımadıqları və heç bir mənafelərinin olmadığı yad biri də olsa, edilən zülmə mane törətmə mövzusunda qərarlı davranırlar. Bu vəziyyətin Allahın razılığını qazanmaq və Quran əxlaqını tətbiq etmək üçün dəyərli fürsət olduğunu düşünürlər. Möminin vicdanı çox həssas olduğu üçün mərhəmət anlayışı ən kiçik haqsızlığa, ya da zülmə göz yummasına qəti olaraq icazə verməzlər. Ən əsas özü kimsəyə qarşı zülm edən, haqsızlıq edici rəftar göstərməyərək bu əxlaqın qabaqcılları olarlar. Başqalarında şahid olduğunda isə bu vəziyyəti aradan qaldırmaq üçün əlindən gələn ən son nöqtəyə qədər səy sərf etməyincə vicdanı rahat etməz. Çünki həqiqi mərhəmətdə zülmü görməzlikdən gəlmək,

unutmaq, ya da ona diqqət etməmək kimi bir vəziyyətdən söhbət gedə bilməz.

Cahiliyyə insanları isə zülm qapılarına gələnə qədər hərəkətə keçməzlər. “Mənə toxunmayan ilan min il yaşasın” atalar sözü bu hərəkəti ən gözəl şəkildə vurğulayır. Bu onların edilən yaxşılıqların və göstərilən gözəl əxlaqın axirətdə qarşılarına çıxacağını unutduqları və ya bunu inkar etmələrindən qaynaqlanır. Mömin isə bu vəziyyətin şüurundadır; bu səbəblə də tanımadığı bir insana belə mərhəmətlə yaxınlaşıb onu zülmdən qurtarmağa çalışar. Kimsə dəstək olmasa belə tək başına, bütün imkanlarını səfərbər edərək pisliyə maneə törətməyə çalışır. Əks şəkildə davranan insanlar sayı olaraq çox olsalar da, onların vicdansızlıqları və laqeydsizlikləri inananları ruhdan düşməyə vadar edə bilməz. Müsəlmanlar, axirətdə hər şahid olduqları hadisədə haqq üçün necə səy göstərdiklərini, sorğuya çəkiləcəklərini və bu zülmün qarşısını almaq üçün nə etdiklərinin özlərindən soruşulacağını bilirlər. Dünyada bir çox insanın etdiyi kimi “görmədim, eşitmədim, ya da fərq etmədim” deyərək məsuliyyətdən qaça bilməyəcəklərini, yalnız vicdanlı davrananın qazanclı olacağını unutmazlar. Çünki insan tək başına imtahan olunur və **“... o Bizə, hüzurumuza tək-tənha gələcəkdir.”** (Məryəm surəsi, 80) ayəsində də ifadə edildiyi kimi, tək başına Allahın hüzuruna gedib, dünyada etdiklərinin hesabını verəcəkdir. Yaxşı və gözəl davranışlar edib, hər cür zülmə qarşı çıxanlar və pisliklərə qarşı Allah yolunda gözəl mübarizə göstərənlər, əməllərinin qarşılığında Allahdan gözəl mükafat ümid edə biləcəkdir. Allah bir ayəsində bu mövzudan belə bəhs edir:

**Xeyr! Kim yaxşı işlər görüb Allaha təslim olarsa, Rəbbi yanında onun mükafatı olar. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər. (Bəqərə surəsi, 112)**

# Əhdi-Ətiq və İncildən sülhə, anlayışa və gözəl əxlaqa dəvət

Əvvəlki hissədə Allahın Quran ayələriylə insanları sevgiyə, hüzura və güvən dolu həyata dəvət etdiyinin üzərində dayandıq və İslamın bir sülh dini olduğunu vurğuladıq. Quran əxlaqının yaşandığı bir cəmiyyətdə anlayışlı, kompromisə gedən, insancıl, düşüncə azadlığına hörmət edən, insan hüquqlarına əhəmiyyət verən bir model meydana gələcəyini izah etdik. Çünki İslam əxlaqı digər ilahi dinlərdə də olduğu kimi mehriban, yetkin, etidallı, mülayim, yumşaq xasiyyətli, nəzakətli, müharibə və qarşıdurmadan çəkinən, insaflı, vəfalı, anlayışlı və bağışlayıcı əxlaqa sahib insanlardan ibarət olan bir cəmiyyət modeli təqdim edər və iman edənlərə də belə bir cəmiyyət yaratmaq üçün səy göstərmələrini əmr edər.

Qurandan əvvəl endirilən haqq kitablarda da (hər nə qədər müxtəlif təhriflərə məruz qalsalar da) Quranla uyğun olan hissələr vardır. Quranda adı keçən bu kitablarda eyni gözəl əxlaq əmr edilir, insanlar həmişə sevgiyə və sülhə sövq edilir. Bu hissədə də Əhdi-Ətiq və Əhdi-Cədidin Quranla uyğun olan hissələrindən sevgiyə, sülhə və anlayışa təşviq ehtiva edən izahlara, terrorun və zülmün qadağan edildiyi əmrlərə diqqət çəkəcək, dünyanın dörd bir tərəfindəki musəvilərin və xristianların da bu əmrlər istiqamətində hərəkət edib, terrorun qarşı çıxmalarının lazım olduğu üzərində dayanacağıq.

Ancaq bundan əvvəl bir mövzunun üzərində dayanmaq lazımdır: Əhdi-Ətiq, hz. Musa (ə.s)-a verilən Tövratı, hz. Davud (ə.s)-a verilən Zəburu (Zəbur) və müxtəlif yəhudi peyğəmbərləri tərəfindən yazıldığı və onların həyatlarını izah etdiyi yazılar olan kitablar toplusudur. Yəhudilər hamısı Əhdi-Ətiqə inanırlar. Xristianlar isə həm Əhdi-Ətiqə həm də ona əlavə olaraq "Əhdi-Cədid" adı verilən və İncil adlı dörd kitabın və digər bəzi məktubların olduğu ikinci kitablar toplusuna inanırlar. Ancaq Qurana görə, Tövrat, Zəbur və İncil, Allahın vəhyindən sonra insanlar tərəfindən təhrif edilmişdir. Bu təhrif səbəbiylə mövcud Əhdi-Ətiq və Əhdi-Cədidə ilahi kəlam olaraq deyil, içində Quranla uyğun, haqq olan hissələr, ancaq bununla yanaşı müxtəlif insanı səhvlər də ehtiva edən qaynaqlar olaraq baxmaq lazımdır. Bu səbəbdən Əhdi-Ətiq və Əhdi-Cədiddən faydalanarkən bu izahların doğruluğunu Qurana uyğun olub-olmamasına görə anlaya bilərik.

## Əhdi-Ətiqdən terroru lənətləyən, sevgini və sülhü təşviq edən şərhlər

*Pisliyi deyil, yaxşılığı axtarın ki, yaşayasınız; və beləcə Rəbb, orduların Allahı, dediyiniz kimi sizinlə birlikdə olar. Pislikdən nifrət edin, və yaxşılığı sevin... (Amos, Bap 5, 14-15)*

Kitabın əvvəlki hissələrində də ətraflı olaraq vurğuladığımız kimi, Allahın qullarına hidayət rəhbəri olaraq göndərdiyi haqq kitablarında sevgiyə, sülhə, anlayışa və ədalətə söykənən cəmiyyət modeli təsvir edilir. Məsələn, Allah Maidə surəsində yəhudilərə endirilən Tövratın insanlar üçün bir yol göstərici olduğunu bildirir:

**Şübhəsiz ki, Tövratı Biz nazil etmişik. Onda hidayət və nur vardır. Allaha təslim olan peyğəmbərlər yəhudilər üçün bununla, din xadimləri və baş keşişlər isə Allahın Kitabından qorunub saxlanılanlarla hökm verirdilər. Onlar hamısı buna şahid oldular... (Maidə surəsi, 44)**

Tövratdakı bu İlahi əmrlərin bir qismini bu gün də Əhdi-Ətiqdə tapmaq mümkündür. Əhdi-Ətiqdə də insanlar pislik etməkdən, zorakılıqdan, oğurluqdan, rüşvətdən, saxtakarlıqdan, zalımlıqdan uzaqlaşdırır, həmişə gözəl əxlaqa istiqamətləndirilir. Necə ki, Allah Əraf surəsində bu şəkildə bildirir:

**Allah dedi: "Ey Musa! Mən vəhy etdiyim hökmlərimlə və səninlə danışmağımla səni seçib insanlardan üstün etdim. Elə isə sənə verdiyimi götür və şükür edənlərdən ol!" Biz onun üçün lövhələrdə hər şeydən öyüd-nəsihət və hər şeyin təfsilatını yazdıq və dedik: "Bunları möhkəm tut və xalqına da onun ən yaxşısından yapışmağı əmr et! Mən sizə fasiqlərin yurdunu göstərəcəyəm. (Əraf surəsi, 144-145)**

İsrailoğullarının müqəddəs kitabının bir çox hissəsində gözəl əxlaq ətraflı olaraq və müxtəlif nümunələr verilərək təsvir edilir. Bir çox hissədə də şiddəti, zorakılığı seçənlərin lənətləndiyi ifadələr vardır. Bunlardan bəzilərini aşağıda araşdıracağıq:

## Şiddət və zorakılığın hər növü qadağan olunmuşdur

Əhdi-Ətiqdə pislik edənlərin və insanlar arasında pisliyin yayılmasını istəyən kəslərin alacağı qarşılıq ətraflı olaraq təsvir edilir, insanlar bu kəslərin yolunu izləməməyi mövzusunda xəbərdarlıq edilir. Qəzəbə qapılıb insanlara zərər vermək, onları doğru yollarından uzaqlaşdırmaq, qan tökmək, bir insanla çəkişmək Allahın xoşlanmadığı və qadağan etdiyi hərəkətlər olaraq izah edilir. Allah şərin və zorakılığın arxasınca gedənləri şiddətlə lənətləyir və bu kəslərin əsla rahatlıq tapa bilməyəcəklərini bildirir. Əhdi-Ətiqdə yazılan bəzi izahlar bu şəkildədir:

*Simeon və Levi qardaşdır; zorakılıq silahları onların qılınclarıdır. Ey canım, sən onların məclislərinə girmə; ey izzətim, sən onların cəmiyyətləriylə birləşmə; çünki* ***onlar qəzəblərindən adam öldürdülər; və qəzəblərindən inəkləri topal etdilər. Onların qəzəbi lənətli olsun, çünki o vəhşi idi; onların qəzəbi lənətli olsun, çünki qəddardı****... (Yaradılış, Bap 49, 5-7)*

*... Pislər çalxalanan dəniz kimidirlər; çünki o rahat dayana bilməz və onun suları çölə palçıq və kir atar. Allahım deyir:* ***Pislərə salamatlıq yoxdur.*** *(Yeşaya, Bap 57, 20-21)*

*Ey İsrail oğulları ...* ***məmləkətdə həqiqət və yaxşılıq və Allah bilgisi yoxdur. Lənət və yalan və adam öldürmə və oğurluq və zinadan başqa bir şey yox; zorbalıq edirlər və qan üzərinə qan tökülür.*** *Bundan ötrü ölkə yas tutur və onda oturan hər kəs, tarla heyvanları və göylərin quşları da zəbun düşəcək; və dənizin balıqları belə aradan qaldırılacaq.* ***Ancaq kimsə çəkişməsin və kimsə danlamasin; çünki qövmün kahinlə çəkişənlər kimidir.*** *(Huşə, Bap 4, 1-4)*

*Gilead fəsad törədənlərin şəhəridir;* ***qan izləriylə doludur****. Quldur dəstələri adam gözlədikləri kimi, kahinlər komandası Şəkəmə gedən* ***yolda adam öldürürlər****; həqiqətən onlar həyasızlıq etdilər. (Huşə, Bap 6, 8-9)*

*Mərhəmətli adam öz canına yaxşılıq edər; lakin qəddar adam öz ətinə işgəncə edər ... Salahta sabit olan həyata çatar; və şərin ardınca gedən öz ölümü üçün edir ... Əmin ol, şərli adam günahsız tutulmaz; lakin salehlərin nəsli xilas olacaq. (Süleymanın məsəlləri, Bap 11, 17-21)*

*Yaramaz adam şər çuxurunu qazar; və onun dodaqlarında sanki yandıran atəş vardır. Pis adam döyüş çıxarar; və çəkişdirici adam yaxın dostları ayırar. Qabadayı adam yoldaşını aldadar və onu yaxşı olmayan yolda aparar ... Gec hirslənən adam igiddən yaxşıdır ... (Süleymanın məsəlləri, Bap 16, 27-32)*

***Rəbb pis adamlardan uzaqdır*** *... (Süleymanın məsəlləri, Bap 15, 29)*

Əhdi-Ətiqdə pislik edənlərin, insanlara zorbaca görənlərin, qəddarların, şərlilərin etdikləri zülm ətraflı olaraq təsvir edilir, etdiklərinin qarşılığını mütləq alacaqları ifadə edilir. Ancaq bununla yanaşı əgər etdiklərindən geri dönər, tövbə edib Allahın dininə tabe olsa artıq yaxşı insan olaraq qəbul ediləcəkləri də bildirilir. Bu mövzuyla əlaqədar izahlar bu şəkildədir:

*Lakin siz: Rəbbin yolu doğru deyil, deyirsiniz. Ey İsrail evi, indi dinləyin: Mənim yolummu doğru deyil? Doğru olmayan sizin yollarınız deyilmi? Saleh adam salehliyindən dönər və pislik edər və onlarla ölsə, işləmiş olduğu pisliklərlə ölər.* ***Pis adam da işləmiş olduğu pislikdən dönər və haqq olanı və doğru olanı etsə, o adam canını yaşadar. Madam ki, görür və işlədiyi bütün günahlardan dönür, əlbəttə yaşayacaq, ölməz.*** *Ancaq İsrail evi: Rəbbin yolu doğru deyil, deyirlər. Ey İsrail evi, Mənim yollarımmı doğru deyil? Doğru olmayan sizin yollarınız deyilmi? Bundan ötəri, ey İsrail evi, sizə, hər kəsə öz yollarına görə hökm verəcəyəm, Rəbb Yehovanın sözü. Dönün və özünüzü bütün günahlarınızdan döndürün də, fəsad sizi həlaka salmasın. Işləmiş*

*olduğunuz günahların hamısını üstünüzdən atın və özünüzə yeni ürək və yeni ruh edin; və nə üçün öləsiniz, ey İsrail evi? Çünki ölən adamın ölümündən mən zövq duymam, Rəbb Yehovanın sözü; elə isə, dönün də yaşayın. (Yezekel, Bap 18, 25-32)*

*Rəbb belə deyir: ... sizə qarşı bir nizam düşünməkdəyəm; indi hər biriniz,* ***öz pis yolunuzdan dönün və yollarınızı və əməllərinizi islah edin.*** *Lakin onlar deyir: Boşuna; çünki biz düzənlərimizin ardınca gedəcəyik və* ***hər birimiz pis qəlbimizin inadçılığına görə işləyəcəyik.*** *(Yeremya, Bap 18, 11-12)*

*... Atalarınız kimi olmayın; əvvəlki peyğəmbərlər onlara çağırıb dedilər: Orduların Rəbbi belə deyir:* ***İndi pis yollarınızdan və pis işlərinizdən əl çəkin;*** *lakin onlar eşitməmişik və məni yaxşı dinləmədilər ... (Zəkəriyyə, Bap 1, 3-4)*

## İnsanlara zərər verilməsi qadağan edilmişdir

Əhdi-Ətiqdə insanlara zərər verməməklə, cinayət etməməklə, insanlar arasında ədalətlə hökm etməklə, haqsızlıq etməməklə əlaqədar də bir çox əmr vardır.

***Qətl törətmə.*** *Zina etmə. Oğurluq etmə. Heç kimə qarşı yalan şahidlik etmə. Qonşunun evinə tamah etməyəcəksən ... (Çıxış, Bap 20, 13-17)*

***Hökmdə haqsızlıq etməyəcəksiniz ...*** *və qüdrətlinin xətirinə etibar etməyəcəksiniz; və qonşuna ədalətlə hökm edəcəksən. Qövmünün arasında xəbərçilik etmə; qonşunun qanına qarşı ayağa qalxmayacaqsan; Mən Rəbbım* ***... Qisas almayacaqsan və qövmünün oğullarına kin bəsləməyəcəksən****; və qonşunu özün kimi sev; Mən Rəbbin. (Levililər, Bap 19, 15-18)*

*Allahın Rəbbin miras olaraq sənə verdiyi məmləkətinin içində* ***günahsız qan tökülməsin*** *və sənin üzərinə qan olmasın. (Təsniyə, Bap 19, 10)*

*Ölümə aparılanları xilas elə və öldürülməyə səndələyərək gedənləri əsirgə. Məhz, bunu bilmirdik, desən; ürəkləri ölçən anlamazmı? Və sənin canını qoruyan bilməzmi? ... (Süleymanın məsəlləri, Bap 24, 11-12)*

## İnsanlara yaxşı davranmaq əmr edilmişdir

Yenə Tövratda insanlar arasında qardaşlığın yayılmasını, sevgini, fədakarlığı, təvazökarlığı əmr edən bir çox ayələr var. Yəhudilər də eyni müsəlmanlar və xristianlar kimi insanlara gözəlliklə davranmaq, yaxşılıq etmək, doğruluqdan əsla azmamaq, mülayim və yumşaq xasiyyətli olmaq, anlayışlı və bağışlayıcı olmaq əmr olunmuşdur. Bu tövsiyələrdən bəziləri bunlardır:

*Özünüz üçün düzgünlüklə əkin, yaxşılığa görə biçin ... Pislik əkdim, fəsad biçdilər; yalanın meyvəsini yediniz; çünki öz yoluna, igidlərinin çoxluğuna güvəndin ... Özlərini qapıda danlayan adamdan nifrət edirlər və düzgünlükləri söyləyəndən ikrah edirlər. Bundan ötəri, madam ki, kasıbı ayaq altına alırsınız və ondan buğda hədiyyələri qoparırsınız; yonulmuş daşdan evlər tikdiniz, lakin onlarda qalmayacaqsınız ... Çünki cinayətlərinizin çox və günahlarınızın ağır olduğunu bilirəm, ey salehi sıxışdıranlar, rüşvət alanlar və qapıda yoxsulların haqqını azdıranlar! Bundan ötəri ağıllı adam bu vaxtda susacaqdır; çünki zaman pisdir.* ***Pisliyi deyil, yaxşılığı axtarın ki, yaşayasınız; və beləcə Rəbb, orduların Allahı, dediyiniz kimi sizinlə birlikdə olar. Pislikdən nifrət edin və yaxşılığı sevin və qapıda haqqı gücləndirin*** *... (Amos, Bap 5, 10-15)*

## İnsanlar gözəl əxlaqa dəvət edilmişlər

*Ey adam, yaxşı olanı sənə vermişdir; və* ***haqq olanı etmək və mərhəməti sevmək*** *və Allahınla* ***alçaq könüllü olaraq yeriməkdən*** *başqa Rəbb səndən nə istəyər? (Mikeya, Bap 6, 8)*

*Nə vaxta qədər haqsız hökm verəcəksiniz və pislərə hörmət göstərəcəksiniz?* ***Zəifin və yetimin işini görün; Yoxsulun ədalətlə davranın. Zəifi və fəqiri xilas edin; Pislərin əlindən onları azad edin****. (Zəbur, Bap 82, 2-4)*

***Doğruların kamalı onlara yol göstərir;*** *lakin xainlərin azğınlıqları onları məhv edər. Qəzəb günündə mal işə yaramaz;* ***lakin saleh ölümdən qurtarar.*** *Kamil adamın əmin-amanlığı öz yolunu düzəldər; lakin pis adam öz pisliyi ilə düşər.* ***Doğruların əmin-amanlığı özlərini qurtarar;*** *lakin xainlər öz fəsadları ilə tutulurlar.* ***(Süleymanın məsəlləri, Bap 11, 3-6)***

***Salehlərin istəyi ancaq yaxşılıqdır;*** *lakin pislərin gözlədiyi qəzəbdir. (Süleymanın məsəlləri, Bap 11, 23)*

***Yaxşılığı səylə axtaran mərhəmət görər;*** *lakin şər onu axtaranın başına gəlir. (Süleymanın məsəlləri, Bap 11, 27)*

***Rəbb pis adamın yolundan ikrah edər;*** *lakin saleh ardınca gedəni sevər. (Süleymanın məsəlləri, Bap 15, 9)*

***İnayət və həqiqətlə fəsad örtülür;*** *və insan Rəbb qorxusu ilə şərdən ayrılır. Adamın yolları Rəbbə məqbul olduqda, düşmənlərini belə özü ilə barışdırar. Saleh əməllərdir olan az şey, haqsızlıqla olan böyük iradlardan yaxşıdır. (Süleymanın məsəlləri, Bap 16, 6-8)*

***Şərdən ayrılmaq düzgün adamların böyük yoldur*** *... (Süleymanın məsəlləri, Bap 16, 17)*

***Şərli adamlara qibtə etmə; və onlarla birlikdə olmağa arzulama. Çünki onların ürəkləri zorakılıq planlayar və dodaqları pislik söyləyərlər.*** *(Süleymanın məsəlləri, Bap 24, 1-2)*

*Ey pis adam, salihin oturduğu yerə qarşı tələ qurma; onun yurdunu yıxma; çünki saleh yeddi dəfə düşər də, yenə qalxar; lakin fəlakət pislər itirəcəklər.* ***Düşmənin yıxıldıqda sevinmə, düşdüyü zaman ürəyin məsrur olmasın; yoxsa Rəbb bunu görür ... dərrakəni; pis adamlara da qibtə etmə; çünki şərli adamın sonu gəlməz ...*** *(Süleymanın məsəlləri, Bap 24, 15-20)*

## Sülh tərəfdarı olmaq əmr edilmişdir

Yəhudilərə də eyni müsəlmanlar kimi müharibə olmasına maneə törətməyi və vacib olan sülhü təmin etməyi əmr olunmuşdur. Əhdi-Ətiq və İncilə görə bir xristianın necə əxlaqa sahib olmasının lazım olduğu izah edildiyi "Xristian əxlaqı" adlı əsərdə bu vəziyyət *"Müqəddəs Kitabda bəhsi keçən qarşıdurmaların onları qorumaq kimi bir səbəbi vardır"*[25] şəklində deyilməkdədir. Müharibə vəziyyətində müdafiəsiz uşaqlara zərər vermək isə qadağan edilmişdir.

Padşahlıq əlində möhkəmlənəndə Amasya padşah olan atasını öldürmüş əyanları öldürdü. **Ancaq Musanın Qanun kitabında yazıldığı kimi qatillərin oğullarını öldürmədi**, çünki Rəbb əmr edib demişdi: "Oğula görə ata, ataya görə oğul öldürülməsin, hər kəs öz günahına görə ölməlidir". (2-ci Padşahlar, Bap 14, 5-6)

## Əhdi-Ətiqə görə din əxlaqının hakim olduğu mühit

Müsəlmanlıqda olduğu kimi yəhudilikdə də insanlara nümunə cəmiyyət modeli təqdim olunur. Allahın insanlara rəhbər olaraq göndərdiyi elçilər, Allaha olan güclü imanları, gözəl əxlaqları və Allahın ayələrini tətbiq etməkdə

diqqətləri insanlara ən gözəl nümunədir. Bu səbəblə iman edənlərin əvvəlcə etmələri lazım olan şey, peyğəmbərlərin əxlaqlarını özlərinə nümunə almaq və onlar kimi bir həyat sürməyə çalışmaq olmalıdır. Din əxlaqının insanlara qazandırdığı bütün gözəl əxlaq xüsusiyyətlərinin insanlar arasında yayılması dünya üzərində cənnət bənzəri mühit yaradacaq. Belə bir cəmiyyətdə terror və anarxiya bəlası aradan qalxacaq. Çünki Allahdan qorxan iman sahibləri Onun əmrlərinə olan vasvasılıqları səbəbi ilə hər cür fitnə-fəsad törətməkdən, itaətsizlikdən şiddətlə uzaq duracaq, dünya sülhlə, mülayim və anlayışlı insanlarla dolacaq. Əhdi-Ətiqdə də din əxlaqının hakim olduğu həyatın necə olacağı bəzi nümunələrlə təsvir edilir. Bunlardan bəziləri bu şəkildədir:

*O zaman ədalət səhrada sakin olacaq; və düzgünlük səmərəli tarlada oturacaq. Və doğruluğun işi salamatlıq olacaq; və doğruluğun səmərəsi əbədi susma və güvənmə olacaq. Və qövmüm salamatlıq yurdunda və təhlükəsiz məskənlərində və rahat yerlərində oturacaq. (Yeşaya, Bap 32, 16-18)*

***Çöl və quraq yer çəkilmiş olacaq; və çöllər sevinəcək və nərgiz kimi çiçəklənəcək. Bol-bol çiçəklənəcək və sevinclə və tərənnümlə sevinəcək ... Rəbbin izzətini, Allahımızın əzəmətini görəcəklər. Zəif əlləri qüvvətləndirin və Pals dizləri gücləndirin. Ürəkləri qorxaq olanlara deyin: Qüvvətlənin, qorxmayın ... O zaman korların gözləri açılacaq, karların da qulaqları açılacaq. O zaman topal adam maral kimi sıçrayacak və dilsizin dili tərənnüm edəcək; çünki səhrada sular və çöllərdə sellər qaynayacaq.*** *(Yeşaya, Bap 35, 1-6)*

*Haqla gedən və doğru söyləyən, qəddarlıq ilə olan qazancı xor görən, rüşvət almaqdan əllərini təmizləyən, qan tökmək sözünü eşitməmək üçün qulaq tıxayan və pisliyi görməmək üçün gözlərini yuman;* ***yüksək yerlərdə o oturacaq; qaya qalaları onun yüksək qülləsi olacaq; çörəyi veriləcək; suyu əmin olacaq.*** *(Yeşaya, Bap 33, 15-16)*

***... Pislik zəncirlərini açmaq, boyunduruq bağlarını açmaq və əzilmiş olanları azad etmək və hər boyunduruğu qırmaq, Mənim seçdiyim oruc bu deyilmi? Öz çörəyini ac olanla bölüşmək və yurdsuz düşkünləri öz evinə gətirmək və çılpağı görüncə üstünü örtmək və öz ətindən olandan qaçınmamaq deyilmi? O zaman işığın dan kimi doğular və yaran tez ət***

***bağlayar və sənin önündən öz önündən salehin gedər; Rəbbin izzəti qoruyucun olar. O zaman köməyə çağıracaqsan və Rəbb cavab verəcək; fəryad edəcəksən və: məhz, buradayam, deyəcək. Əgər boyunduruğu, barmaq uzatmağı və fəsad söyləməyi aradan götürərsən; və ürəyin istədiyin şeyi aç olana verərsən və alçaldılmış canı doydurarsan; o zaman qaranlıq içində işığın doğulacaq və tünd qaranlığın günorta vaxtı kimi olacaq.*** *(Yeşaya, Bap 58, 6-10)*

## Əhdi-Cədiddə insanlara sevgi və sülh dolu dünya üçün tövsiyələr

*... Allahın Rəbbi bütün qəlbinlə, bütün varlığınla, bütün anlayışınla sevəcəksən. Ən əhəmiyyətli olan və birinci gələn əmr budur. İkincisi də bununla bərabər dəyərdədir. İnsan qardaşını özün kimi sevəcəksin. (Matta, Bap 22, 37-39)*

Əhdi-Ətiqdə olduğu kimi, xristianların müqəddəs kitabı olan Əhdi-Cədiddə, yəni İncildə də, insanların zülm və fitnə-fəsad törətməyi qadağan edildiyi bir çox ayələr var. İnsanlar hər zaman üçün bağışlayıcılığa, sülhə, anlayış və qarşılıqlı razılaşmaya dəvət edilir. Bu səbəblədir ki, xristianlıq mülayim, anlayışlı, mehriban, döyüş və qarşıdurmadan uzaq insan modeli nəzərdə tutur. Hz. İsa (ə.s)-a vəhy edilən dini izləyən və onun gözəl əxlaqını özlərinə nümunə götürən xristianların bu əxlaqları Quranın Əl-Hədid surəsində bu şəkildə bildirilir:

**Sonra onların ardınca dalbadal elçilərimizi yolladıq. Sonra Məryəm oğlu İsanı göndərib ona İncil bəxş etdik. Onun ardınca gedənlərin qəlblərinə şəfqət və mərhəmət saldıq. ... (Hədid surəsi, 27)**

Allah digər Quran ayəsində "**... Onlardan gətirənlərə qarşı düşmənçilik edən insanların ən pisi olduğunu görəcəksən. "Biz xaçpərəstik!" - deyənləri isə dostluq baxımından iman gətirənlərə ən yaxın olduğunu görəcəksən. Çünki onların arasında keşişlər və rahiblər vardır və onlar təkəbbürlük**

**göstərmirlər.”** (Maidə surəsi, 82) şəklində buyurur və səmimi qəlblə Allaha yönələn xristianların gözəl əxlaqlarını tərifləyir.

Xristianlığın bu müsbət əxlaqı, İncildəki Quranla eyni olan hökmlərə əsaslanır. Xristianlar İncil izahları ilə pisliyə qarşı yaxşılıqla cavab verməyə, insanları qarşılıqsız sevməklə və ehtiyac içində olanlara qarşılıqsız kömək etməklə əmr olunurlar. Hətta Əhdi-Cədiddə iman edənlərin Rəbbimizə və iman edənlərə qarşı duyduqları “qarşılıqsız sevgini” izah etmək üçün xüsusi bir söz istifadə edilir. Xristian əxlaqının izah edildiyi bir əsərdə bu vəziyyət belə açıqlanır.

*“Aqape” (İncildə) ən çox istifadə edilən sevgi sözcüyüdür (116 dəfə) Aqape hər zaman verən və heç bir zaman qarşılığı gözləməyən sevgidir. Məsələn “... Allahın Rəbbi bütün qəlbinlə, bütün varlığınla, bütün anlayışınla sevəcəksən. Ən əhəmiyyətli olan və əvvəl gələn əmr budur. İkincisi də bununla bərabər dəyərdədir: İnsan qardaşını özün kimi sevəcəksən.” (Matta, Bap 22, 37-39) açıqlamasında sevgi sözünün keçdiyi yerdə “Aqape” sözü istifadə edilməkdədir. Yəni qarşılıqsız sevgi.*[26]

Aşağıda İncildə insanları pislikdən və qan tökməkdən çəkindirən, gözəl əxlaqa təşviq edən bəzi hissələrə yer veriləcəkdir.

## Qarşılıqsız sevmək, şəfqətli və mərhəmətli olmaq

*Sizə yeni bir əmr bildirirəm: Bir-birinizi sevin. Eynilə Mənim sizləri sevdiyim kimi, siz də bir-birinizi sevin. (Yəhya, Bap 13, 34)*

*Sevginiz ikiüzlü olmasın. Pislikdən çəkinin, yaxşılığa bağlanın.* ***Bir-birinizi qardaşlıq sevgisi ilə sevin. Bir-birinizə hörmət göstərməkdə yarışın****. Zəhmətiniz azalmasın. Ruhda alovlu olun. Rəbbinə ibadət edin. Ümidinizi düşünərək sevinin. Çətinliyə səbir edin. Özünüzü duaya verin. Ehtiyac içində olan müqəddəslərə yardım edin. Qonaqpərvər olmağa baxın. Sizə zülm*

*edənlər üçün yaxşılıq diləyin. Yaxşılıq diləyin, lənət etməyin. (Romalılar məktub, Bap 12, 9-14)*

*Bir-birinizi sevməkdən başqa heç kimsəyə bir şey borclu olmayın. Çünki* ***başqalarını sevən, Müqəddəs Qanununu yerinə yetirmiş olur. "Zina etmə, adam öldürmə, oğurluq etmə, başqasının malına göz dikmə****" buyruqları və bundan başqa nə əmr varsa, bu sözdə ümumiləşdirilir: "****Qonşunu özün kimi sev.****" Sevgi, qonşuya pislik etməz. Bu səbəblə sevgi, Müqəddəs Qanununun yerinə yetirilməsidir. (Romalılara, Bap 13, 8-10)*

***Rəbb, bir-birinizə və bütün insanlara olan sevginizi, bizim sizə olan sevgimiz ölçüsündə çoxaldıb artırsın!*** *(1 Saloniklilərə, Bap 3, 12)*

*...Bir din alimi yaxınlaşıb ona, "Bütün buyruqların ən əhəmiyyətlisi hansıdır?" deyə soruşdu. İsa onlara cavab verdi: "Ən əhəmiyyətlisi budur:* ***Dinlə, ey İsrail! Allahımız olan Rəbb tək Rəbdir. Allahın olan Rəbbi bütün ürəyinlə, bütün canınla, bütün düşüncənlə və bütün gücünlə sev. İkincisi də budur: Qonşunu özün kimi sev.*** *Bunlardan daha böyük əmr yoxdur." Din alimi İsaya, "yaxşı söylədin, müəllimim" dedi. "Allah təkdir və Ondan başqası yoxdur" deməklə həqiqəti söylədin. İnsanın Allahı bütün qəlbi, bütün anlayışı və bütün gücüylə sevməsi, qonşusunu da özü kimi sevməsi, bütün veriləcək sədəqələrdən və təqdim edilən qurbanlardan daha əhəmiyyətlidir." (Mark, Bap 12, 28-33)*

*Həqiqətlərə əməl etməklə özünüzü təmizlədiniz və qardaşlar üçün dərin bir sevgiyə sahib oldunuz.* ***Buna görə bir-birinizi dərin, ürəkdən sevin*** *... (1 Peter, Bap 1, 22-23)*

*Nəticə olaraq hamınız eyni düşüncədə birləşin. Başqalarının duyğularını paylaşın.* ***Bir-birinizi qardaşca sevin. Şəfqətli və təvazökar olun. Pisliyə pisliklə, söyüşə söyüşlə deyil, əksinə xeyir-dua ilə qarşılıq verin.*** *Çünki xeyir-duaya miras almaq üzrə çağrılmısınız. (1 Peter, Bap 3, 8-10)*

***Hər şeydən əvvəl bir-birinizə olan sevginiz dərin olsun. Çünki sevgi bir çox günahı örtər. Şikayətsiz, bir-birinizə qarşı qonaqpərvər olun.*** *Hər biriniz hansı ruhi hədiyyələr aldınızsa, bunu Allahın çox yönlü lütfünün yaxşı kəhyalar olaraq bir-birinizə xidmət etməkdə istifadə edin. (1 Peter, Bap 4, 8-10)*

## Düşmənləridə sevmək

*"Qonşunu sev, düşməndən nifrət et" deyimini eşitmisiniz. Amma mən sizə deyirəm ki,* ***düşmənlərinizi sevin, sizə zülm edənlər üçün dua edin.*** *(Matta, Bap 5, 43-44)*

*"Amma məni dinləyin sizlərə bunu söyləyirəm:* ***Düşmənlərinizi sevin, sizə nifrət edənlərə yaxşılıq edin, sizə lənət edənlər üçün yaxşılıq diləyin, sizə təhqir edənlər üçün dua edin. Bir yanağınıza yumruq atana o biri yanağınızı da çevirin. Əbanızı alandan köynəyinizi də əsirgəməyin. Sizdən bir şey diləyən hər kəsə verin, malınızı alandan onu geri istəməyin. İnsanların sizə necə rəftar etməsini istəyirsinizsə, siz də onlarla elə rəftar edin.***

*"Əgər yalnız sizi sevənləri sevsəniz, bu sizə nə tərif qazandırar? Günahkarlar belə özlərini sevənləri sevir. Sizə yaxşılıq edənlərə yaxşılıq etsəniz, bu sizə nə tərif qazandırar? Günahkarlar belə, belə edər. Verdiyinizi geri almaq umudunda olduğunuz kəslərə borc versəniz, bu sizə nə tərif qazandırar? Günahkarlar belə verdikləri qədərini geri almaq şərtilə günahkarlara borc verirlər.* ***Amma siz düşmənlərinizi sevin, yaxşılıq edin, heç bir qarşılıq gözləmədən borc verin.*** *Alacağınız mükafat böyük olacaq ... (Luka, Bap 6, 27-35)*

## Gözəl əxlaqlı olmaq

***Nə xoşbəxt mərhəmətli olanlara! Onlar mərhəmət tapacaqlar. Nə xoşbəxt ürəyi təmiz olanlara! Onlar Allahı görəcəklər. Nə xoşbəxt sülhü təmin edənlərə...*** *(Matta, Bap 5, 7-9)*

***"Başqasını mühakimə etməyin, siz də mühakimə olunmazsınız. Günahkar çıxarmayın, siz də günahkar çıxarılmazsınız. Başqasını bağışlayın, siz də bağışlanarsız. Sizdə olanı verin, sizə veriləcək.*** *Yaxşıca doldurulmuş, silkələnməmiş və daşmış, dolu bir ölçü qucağınıza boşaldılacaq. Hansı ölçü ilə ölçərsəniz, sizə də eyni ölçü tətbiq olunacaq." (Luka, Bap 6, 37-38)*

*"Sən nə üçün qardaşının gözündə çöpü görürsən, amma öz gözündəki tiri seçmirsən? Öz gözündəki tiri görməzkən, necə olur da qardaşına, "Qardaş, icazə ver də gözündəki çöpü çıxarım" deyərsən? Səni ikiüzlü! Əvvəl öz gözündəki tiri çıxar, o zaman qardaşının gözündəki çöpü (Luka, Bap 6, 41-42)*

*Elə isə Allahın seçilmişləri, müqəddəs həyat yaşayanlar və sevilənlər olaraq,* ***mehribanlıqla dolu bir ürək, yaxşılıq, təvazökarlıq, yumşaq xasiyyətlilik və səbirlə yaraqlanın. Bir-birinizə qarşı səbirli davranın; birinin o birisinə qarşı bir şikayətlənməsi varsa, bir-birinizi bağışlayın. Bunların hamısı üzərinə, yetkinlik həyatının əsası olan sevgiyə bürünün.*** *(Kolosselilərə, Bap 3, 12-14)*

***Qısaca, qardaşlarım, ağlınızı ərdəmli və tərifəlayiq nə varsa ona yorun: Gerçək, hörmətli, doğru, pak, gözəl, şərəfli olan nə varsa."*** *(Filipililər, Bap 4, 8)*

*...Allah təkəbbürlülərə qarşıdır, amma təvazökarlara lütf edər. "Bunun üçün Allaha bağlı olun.* ***İblisə qarşı müqavimət göstərin, o da sizdən qaçacaq. Tanrıya yaxınlaşın, O da sizə yaxınlaşacaqdır.*** *Ey günahkarlar, əllərinizi günahdan təmizləyin. Ey qərarsızlar, ürəyinizi paklayın. Kədərlənin, yas tutub ağlayın. Gülüşünüz yasa, sevinciniz kədərə çevrilsin. Rəbbimin qarşısında özünüzü alçaldın, O da sizi ucaltsın.* ***Qardaşlarım, bir-birinizi tənqid etməyin.*** *Qardaşını tənqid edən, ya da qardaşını mühakimə edən kimsə, qanunu tənqid*

*etmiş və qanunu mühakimə etmiş olur. Amma Qanunu mühakimə etsən, Qanunu tətbiq deyil, mühakiməçisi olmuş olarsan. Halbuki tək bir Qanun qoyucu və tək bir Hakim vardır; qurtarmağa və məhv etməyə gücü çatan Odur. Ya qonşusunu mühakimə edən sən, kim olursan? (Yaqub, Bap 4, 6-12)*

## Ehtiyacı olanlara kömək etmək, yaxşılıq etmək

*"Yaxşı ağac pis meyvə verməz. Pis ağac da yaxşı meyvə verməz. Hər ağac meyvəsindən tanınar. Tikanlı bitkilərdən əncir toplanmaz, kollardan üzüm yığılmaz. Yaxşı insan, ürəyindəki yaxşılıq xəzinəsindən yaxşı, pis insan isə içindəki pislik xəzinəsindən pis çıxarar. İnsanın ağzı, ürəyindən daşanı söyləyər. (Luka, Bap 6, 43-45)*

*Sizlər isə qardaşlar, **yaxşılıq etməkdən usanmayın**. Əgər bu məktubdakı sözlərimizə əməl etməyən olarsa, onu nişanlayın. Etdiklərindən utansın deyə onunla əlaqənizi kəsin. Yenə də onu düşmən hesab etməyin, bir qardaş olaraq xəbərdarlıq edin. (2 Saloniklilərə, Bap 3, 13-15)*

*Xalq ona, "Bəs biz nə edək?" deyə soruşdu. Yəhya onlara, "**İki köynəyi olan birini köynəyi olmayana versin; yeməyi olan da bunu olmayanla bölüşsün."** cavabını verdi. Bəzi vergi işçiləri də vəftiz olmağa gələrək ona, "Müəllim, biz nə edək?" dedilər. Yəhya onlara**, "Sizə buyurulandan daha çox vergi almayın."** dedi. Bəzi əsgərlər də ona, "Bəs biz nə edək?" deyə soruşdular. O da onlara belə dedi: **"Qaba qüvvətlə, ya da yalan ittihamlarla kimsədən pul almayın, haqqınızı alın, kifayətlənin."** (Luka, Bap 3, 10-14)*

*Etdiyim hər işdə sizlərə, belə əmək verərək **zəiflərə kömək etməmiz və İsanın, "vermək, almaqdan daha böyük xoşbəxtlikdir"** deyən sözünü unutmamaq lazım olduğunu göstərdim." (Həvarilərin işləri, Bap 20, 35)*

***Xidmətsə, xidmət etsin. Öyrədən biridirsə, öyrətsin. Öyüd verən, öyüd alın. Hədiyyədə verən, bunu səxavətlə etsin. İdarə edən, səylə idarə etsin. Mərhəmət edən, gülərüzlə etsin.*** *(Romalılar Məktubu, Bap 12, 7-8)*

***Allahın istəyi, yaxşılıq edərək ağılsızların məlumatsızlığını susturmanızdır.*** *Azad insanlar olaraq yaşayın; amma azadlığınızı pislik etmək üçün bəhanə etməyin. Allahın qulları olaraq yaşayın. Bütün insanlara hörmət göstərin. İmanlı qardaşlarınız sevin. Allahdan qorxun ... (1 Peter, Bap 2, 16-17)*

***... "Həyatdan zövq almaq və yaxşı günlər görmək istəyən, dilini pislikdən, dodaqlarını hiyləli sözlərdən uzaq tutsun.*** *Pis işləri qadağan elə və yaxşılıq edin.* ***Sağlamlığı axtarıb onun ardınca getsin. Çünki Rəbbimin gözləri doğru kəslərin üzərindədir.*** *Qulaqları onların yalvarışını eşidir. Amma Rəbb pislik edənlərə qarşı durur." (1 Peter, Bap 3, 10-12)*

## Pislikdən çəkinmək və sülhsevər olmaq

Aranızdakı döyüş və çəkişmələrin qaynağı nədir? Bədənlərinizi üzvlərində döyüşən ehtiraslarınız deyil mi? **Bir şey arzu edirsiniz, amma əldə edə bilməyincə adam öldürürsünüz. Paxıllıq edirsiniz, amma istəyinizə çatmadıqda çəkişir və dava edirsiniz.** Əldə edə bilmirsiniz, çünki Allahdan diləmirsiniz. Dilədiyiniz zaman da diləyinizi qovuşa bilmirsiniz. Çünki pis məqsədlə, ehtiraslarınız uğuruna istifadə etmək üçün istəyirsiniz. Siz ey vəfasızlar, dünya ilə dostluğun Allaha düşmənçilik olduğunu bilmirsinizmi? Dünya ilə dost olmaq istəyən, özünü Allaha düşmən edər. (Yaqub, Bap 4, 1-4)

**Hər cür acı söz, qəzəb, hirslilik, səs-küyçülük, söyüş söymək və bunlarla yanaşı hər cür pislik üzərinizdən getsin.** Bir-birinizə qarşı yaxşı ürəkli olun. Məsih bağlılığından sizləri bağışladığı kimi, siz də mehribanlıqla bir-birinizi bağışlayın. (Efeslilərə, Bap 4, 31-32)

**Nə xoşbəxt sülhü təmin edənlərə!** ... (Matta, Bap 5, 9)

**Hər kəslə sülh içində yaşamaq üçün əlinizdən gələni edin. Ey sevgililər, heç bir zaman qisas almayın ... Rəbb ... qarşılığını Mən verəcəyəm buyurur. Amma "düşmənin acmışsa onu doydur, susamışsa ona içki ver. Çünki bunu etməklə, onun başı üstünə qızğın korlar yığmış olarsan"** (Romalılara, Bap 12, 18-20)

**Özünüzə diqqət edin. Qardaşın sənə qarşı günah edərsə özünü qına. Günahından dönsə onu bağışla.** (Luka, Bap 17, 3)

# PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN ANLAYIŞLI VƏ SEVGİ DOLU ƏXLAQI

Kitabın əvvəlki hissələrində terrorun yaratdığı maddi və mənəvi itkilər üzərində dayandıq və terrorla mədəni mübarizədə atılacaq ən əhəmiyyətli addımın din əxlaqının insanlar arasında yayılması üçün fikri mübarizə aparmaq olduğunu ifadə etdik. Əhdi-Ətiqdə, İncildə və Quranda təsvir edilən gözəl əxlaq xüsusiyyətlərinin, sevginin, şəfqətin, mərhəmətin, anlayışın və mülayim dünyagörüşünün izah edilməsi, terror deyilən qan tökmə quyusunun ortadan qaldırıla bilməsi üçün tək yoldur. Xüsusilə də din adına tətbiq olunan terrorizmin həlli, dinin doğru başa düşülməsindən, yəni əvvəlki səhifələrdə izah etdiyimiz əxlaq modelinin qavranmasında keçir.

Bunun üçün də insanların önlərində nümunə götürəcəkləri bir model, özlərinə rəhbər olaraq görəcəkləri bir qaynaq olmalıdır. Bu qaynaq Quran, onların nümunə götürəcəkləri model isə Peyğəmbərimiz (s.ə.v)-in həyatıdır.

Bu hissədə Allahın razı olacağı gözəl əxlaqı həyatının hər anında, ən mükəmməl formada yaşayan Peyğəmbərimiz (s.ə.v)-i Quran ayələri və hədislər işığında tanıdacağıq. Onlara Allahın elçilərini nümunə edən insanlardan ibarət olan bir cəmiyyət, heç şübhəsiz ki, terrorun önündəki ən böyük maneə olacaq. Belə bir mühitdə terrorun həyat tapması mümkün deyil. İnsan sevgisini bilməyən, təcavüzkar, güzəştə getməyən, tolerantsız, fərqli düşüncədəki insanlarla dialoq qura bilməyən, qarşısındakı insanın fikirlərinə dəyər verməyən, tez hirslənən, hər problemə şiddətlə həll tapmağa çalışan terrorçular, sevgi və mərhəmət üzərində qurulmuş bir cəmiyyətdə hədəflərinə heç vaxt çata bilməzlər.

## Peyğəmbərimiz (s.ə.v) anlayışlı və sevgi dolu insan idi

Peyğəmbərimiz (s.ə.v)-in dövründə Ərəbistanda da bir çox dindən, fərqli mədəniyyətlərdən və anlayışlardan birliklər var idi. Yəhudilər,

xristianlar, sabiilər, atəşpərəstlər və bütpərəstlər birlikdə yaşayırdılar. Üstəlik eyni inancı mənimsəmələrinə baxmayaraq bir-birlərinə düşmən olan bir çox fərqli qəbilə var idi. Ancaq Peyğəmbərimiz (s.ə.v) hansı dindən və qəbilədən olursa olsun hər kəsə şəfqətlə, səbirlə, mərhəmətlə və sevgiylə yaxınlaşdı və insanları böyük bir anlayış içində dinə dəvət etdi. Hz. Məhəmməd (s.ə.v)-in ətrafındakılara göstərdiyi bu gözəl rəftar Quranda belə bildirilir:

**Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin. Əgər sən kobud və daş qəlbli olsaydın, onlar hökmən sənin ətrafından dağılışardılar. Sən onların günahından keç, Allahdan onların bağışlanmalarını dilə... (Al-i İmran surəsi, 159)**

Əvvəlki hissələrdə də ifadə etdiyimiz kimi, Quranda heç kimə İslama girməsi üçün məcbur edilməməsi bildirilir. Müsəlman ancaq Allahın dinini izah etməklə məsuldur. O adamın hidayət tapması, iman etməsi ancaq Uca Allahın istəyi olur. Heç kimsə bir digərini iman etməsində, ibadətlərini yerinə yetirməsində məcbur edə bilməz. Peyğəmbərimiz (s.ə.v) Rəbbimiz Allahın bu əmrinə hər zaman diqqətlə uymuş, dinin ancaq qəlbən istəndiyi zaman yaşana biləcəyini tez-tez ifadə etmişdir. Allah bir ayəsində Peyğəmbərimiz (s.ə.v)-ə ətrafındakılara qarşı necə davranması lazım olduğunu belə bildirmişdir:

**Biz onların nə dediklərini yaxşı bilirik. Sən onları məcbur edən deyilsən. Sən Mənim təhdidimdən qorxanlara Quranla öyüd-nəsihət ver (Qaf surəsi, 45)**

Peyğəmbərimiz (s.ə.v) bir sözündə "*anlayışlı həniflik (hz. İbrahimin dinindən olanların vəsfi) ilə göndərildim, kim mənim sünnəmə müxalifət etsə, məndən deyil*"[27], şəklində buyurmuş, bir digər sözündə isə möminlərə *"Mən mərhəmət edici və sülhsevər olaraq göndərildim ..."*[28] Peyğəmbərimiz (s.ə.v)-in bu üstün əxlaqı bir digər sözündə belə ifadə edilir:

*Hirsləndiyi zaman (nəfsinə hakim olub) mülayim qarşılıq verən kimsə, Allahın sevgisinə nail olur!*[29]

Peyğəmbərimiz (s.ə.v)-in mərhəmətli, şəfqətli və anlayışlı əxlaqı ilə əlaqədar bir çox hədisi vardır. Məsələn Peyğəmbərimiz (s.ə.v) *"İnsanlara mərhəmət etməyənə, Allah da mərhəmət etməz."*[30] Digər sözləri bu şəkildədir:

*"Mərhəmət edin, mərhəmət olunasınız. Əfv edin, əfv olunasınız. Təəssüf edirəm, boşboğaz olanlara. Təəssüf, günahlarına bilərək davam edib, istiğfar etməyənlərə."*[31]

*"Allah rəfiqdir (mərhəmətli və şəfqətli), rəfiqliyi sevər və rəfiqə müqabil verdiyini başqa heç bir şeylə verməz."*[32]

Böyük İslam alimi İmam Qəzəli, hədis alimlərindən yığdığı məlumatlar ilə Peyğəmbərimiz (s.ə.v)-in ətrafındakılara qarşı mövqeyini belə yekunlaşdırmışdır:

*Qəzəblənməkdən son dərəcə uzaq və bir şeyə tez razılıq göstərən biri idi. İnsanlara qarşı insanların ən şəfqətlisi idi. Elə ki, insanların ən xeyirlisi insanlara xeyiri toxunan, insanların ən yararlısı da insanlara faydalı olandır.*[33]

Peyğəmbərimiz (s.ə.v)-in ətrafındakıları dinə bağlayan və ürəklərini imana isindirən insan sevgisi, incə düşüncəsi və şəfqəti, bütün müsəlmanların əhəmiyyətlə üzərində dayanmaları lazım olan əxlaq üstünlüyüdür. Peyğəmbərimiz (s.ə.v)-in bu bütün insanlığa nümunə olan gözəl xüsusiyyətləri Tövbə surəsində belə bildirilir:

**Sizə özünüzdən elə bir Elçi gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir. O sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir. (Tövbə surəsi, 128)**

Sevgi, şəfqət, anlayışlı və mərhəmətli olmaq Allahın hidayət rəhbəri olaraq göndərdiyi elçilərinin ortaq xüsusiyyətləridir. Allah Quranda digər

peyğəmbərlərin də "sevgi həssaslığı ilə" şərəfləndirildiklərini xəbər verməkdə və Öz tərəfindən hikmət verdiyi Hz. Yəhya (ə.s)-ı bu mövzuda insanlara nümunə göstərir. Ayədə bu müqəddəs insan üçün "**Özümüzdən ona bir sevgi həssaslığı və təmizlik (də verdik). O, müttəqi idi**." (Məryəm surəsi, 13).

## Peyğəmbərimiz (s.ə.v) incə düşüncəli və yumşaq xasiyyətli insan idi

Peyğəmbərimiz (s.ə.v) hər seqmentdən insanla davamlı əlaqə halında olmuş, ən üst səviyyədəki kəslərdən əsirlərə, kimsəsiz yetimlər qadın və uşaqlara qədər hər kəslə görüşmüşdür. Bütün bu ictimai strukturları, yaşayış tərzləri, xasiyyətləri, vərdişləri bir-birindən tamamilə fərqli olan insanlarla, hər sahədə yaxşı dialoq qurmuş, hamısının könülünü xoş tutmuş, hər birinə qarşı nəzakətli, anlayışlı, səbirli və gözəl rəftar göstərmişdir.

Peyğəmbərimiz (s.ə.v)-in ətrafında olan yaxın səhabələrinin nəql etdikləri hədislərdən də aydın olduğu kimi Peyğəmbərimiz (s.ə.v), *"son dərəcə nəzakətli, sadə, zərif, lətif və incə düşüncəli"* idi. Peyğəmbərimiz (s.ə.v)-in *"İnsanlara "müdara" ilə (yumşaqlıqla, lütf ilə rəftar etmək üzrə) göndərildim."*[34] şəklindəki sözü, onun bu yüksək xarakterinin də bir ifadəsidir. Peyğəmbərimiz (s.ə.v)-i çox yaxından tanıyan hz. Aişə (r.ə), *"Rəsulullahdan daha gözəl əxlaqa sahib heç kimsə yoxdur. Əshabədən və ailəsindən biri ona səslənincə, "buyurun" deyə cavab verərdi. Bu səbəblə Allah, ona, "Sən yüksək əxlaq üzərindəsən" buyurmuşdur"*[35] deyərək, ondan gördüyü gözəl əxlaqı izah etmişdir.

Peyğəmbərimiz (s.ə.v)-in evində böyüyən və illərlə ona xidmət edən hz. Ənəs (r.ə), Peyğəmbərimiz (s.ə.v)-in bənzərsiz nəzakətini belə izah etmişdir:

*"Özündən bir şey soruşanı canla başla dinləyər, sualı soruşan yanından ayrılmadıqca, onu tərk etməzdi. Rəsulullah ilə bir kimsə qucaqlaşsa və ya bir kimsə qucaqlaşmaq üçün əlini uzatdığında, qarşısındakı adam əlini çəkmədən Rəsulullah əlini çəkməzdi. Biriylə üz-üzə gəlincə də, qarşısındakı, üzünü çevirib ayrılmadıqca Rəsulullah o kimsədən üzünü çevirməzdi. Önünə*

*oturan kimsəyə heç bir zaman ayaqlarını uzatmazdı. Qarşılaşdığı kimsəyə əvvəl özü salam verərdi. Səhabələriylə salamlaşmağa əvvəl özü başlayardı."*

*"Kimsənin sözünü kəsməzdi. Söhbətini yarıda buraxmazdı. Danışdığı adam sözünü bitirmədən yaxud getmək üçün ayağa qalxmadan söhbətinə davam edərdi."*

*"Rəsuli Əkrəmə on il xidmət etdim. Vallah, mənə "Of" belə demədi. Etməkdə gecikdiyim və ya etmədiyim bir əmrinə görə məni danlamadığı kimi, ailəsindən danlayan olarsa, onlara da, "Ona toxunmayın. Bu işi etməsi təqdir edilmiş olsaydı edərdi "buyururdu."*

*"Bir gün bir iş üçün bir yerə getməyimi əmr buyurdu. Hüzurunda çıxdıqdan sonra küçədə bir neçə uşağın oynadığını gördüm və onları seyrə daldım. Deyərkən arxadan biri iki əliylə başımı tutdu. Döndüyümdə baxdım ki, özüdür. Gülür. Mənə:" Ənəsçiyim sənə söylədiyim yerə getdin?" dedi.*

*"Xeyr, daha getmədim, gedəcəyəm" dedim.*

*"Mən ona illərlə xidmət etdim. Vallahi bir dəfə olsun etdiyim bir iş üçün "Nə üçün etdin?", etmədiyim bir iş üçün "Nə üçün etmədin?" dediyini xatırlamıram."*[36]

Peyğəmbərimiz (s.ə.v) həyatı boyunca minlərlə insanı öyrətmiş, dini, gözəl əxlaqı bilməyən insanların gözəl rəftarlı, incə düşüncəli, fədakar, üstün əxlaqlı insanlar olmalarına vəsilə olmuşdur. Özündən sonra da sözləri, rəftarı və əxlaqı ilə milyardlarla insanın təhsilinə vəsilə olan Peyğəmbərimiz (s.ə.v), insanlar üçün ən xeyirli yol göstərici və təlimatçıdır.

## Peyğəmbərimiz (s.ə.v) möminlərə de sevgi dolu olmalarını nəsihət edərdi

Peyğəmbərimiz (s.ə.v)-in xüsusilə üzərində dayandığı ən əhəmiyyətli mövzulardan biri, möminlərin bir-birlərini heç bir çıxar güdmədən, dərin sevgi ilə sevmələri və bir-birlərinə qarşı kin, qəzəb və qısqanclıq kimi pis hisslər bəsləməmələriydi. Peyğəmbərimiz (s.ə.v) həm bu mövzuda möminlərə

ən gözəl nümunə olmuş, həm də onlara tez-tez bu mövzularda tövsiyələr vermişdir.

Quranda Allahın Peyğəmbərimiz (s.ə.v)-ə bu mövzuda söyləməsini əmr etdiyi bir söz belədir:

**İman gətirib yaxşı işlər görən qullarına Allahın müjdə verdiyi nemət budur. De: "Mən sizdən bunun əvəzində qohumluq sevgisindən başqa bir şey istəmirəm". Kim bir yaxşılıq etsə, onun savabını artırarıq. Həqiqətən, Allah Bağışlayandır, şükrün əvəzini verəndir. (Şura surəsi, 23)**

Peyğəmbərimiz (s.ə.v)-in sevgi, dostluq və qardaşlıq haqqında hədisi şəriflərindən bəziləri isə belədir:

*"Mömin özü üçün sevdiyini qardaşı üçün də arzulayar."*[37]

*"Hədiyyələşin, bir-birinizi sevin. Bir-birinizə yemək hədiyyə edin. Bu, ruzinizdə genişlik hasil edər."*[38]

*"Ziyarətləşin, hədiyyələşin. Çünki ziyarət sevgini pərçimlər, hədiyyə də ürəkdəki pis duyğuları sökər atar."*[39]

*"Bir-birinizi qısqanmayın, bir-birinizə kin tutmayın, bir-birinizə çirkin sözlər söyləməyin, bir-birinizə arxanızı dönməyin, bir-birinizi arxasından çəkişdirməyin. Allahın qulları qardaş olun."*[40]

*"Sizdən əvvəlki cəmiyyətlərin dərdi sizə də bulaşdı: Həsəd və kin. Kin bəsləmək kökdən silən şeydir. Allaha and içirəm ki, iman etmədikcə cənnətə girə bilməzsiniz. Bir-birinizi sevmədikcə iman etmiş ola bilməzsiniz. Sizə bir-birinizi sevəcəyiniz bir şeyi xəbər verimmi? Aranızda salamı yayın."*[41]

*Allaha imandan sonra ağılın başı, insanları sevməkdir.*[42]

*Bir-birinizə antipatiya hiss etməyiniz, biriniz digərinizi qısqanmayın, bir-birinizə arxa çevirib əlaqənizi kəsməyin; ey Allahın qulları, hamınız qardaş olun!*[43]

*Düşün də bax: "Sən qırmızı yaxud qapqara rəngindən ötəri heç kimsədən daha xeyirli deyilsən; üstünlük ancaq təqva ilədir!"*[44]

## Peyğəmbərimiz (s.ə.v) ədalətlə hökm edərdi

Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v), həm müsəlmanlar arasında verdiyi hökmlər, həm digər din, dil, irq və qövmlərdən olan kəslərə qarşı ədalətli və anlayışlı mövqeyi, həm də Allahın ayəsində bildirdiyi kimi zəngin, kasıb ayırd etmədən hər kəsə bərabər davranmasıyla bütün insanlar üçün çox böyük nümunədir. Allah bir ayəsində hz. Məhəmməd (s.ə.v)-ə **"... Aralarında hökm etsən, ədalətlə hökm et. Həqiqətən, Allah, ədalət sahiblərini sevər."** (Maidə surəsi, 42) şəklində buyurmuşdur və O da çətin şərtlərdə də ədalətdən əsla güzəştə getməmişdir.

Hz. Məhəmməd peyğəmbərlik dövründə ədalətli münasibətinə nümunə kimi bir çox hadisələri yaşadı. Hz. Peyğəmbərimizin (s.ə.v) yaşadığı coğrafi bölgədə bir çox müxtəlif din, irq və qəbilədən olan insanlar bir yerdə yaşamışlar. Bu birliklərin bir yerdə hüzur və güvən içində yaşamaları, aralarına nifaq salmağa çalışanlara qarşı mübarizə aparmaq çox çətin idi. Ancaq Peyğəmbərimiz (s.ə.v)-in ədaləti, müsəlmanlar üçün olduğu qədər bu birliklər üçün də hüzur və zəmanət qaynağı olmuşdur. Əsri-Səadət dövründə Ərəbistan yarımadasında xristian, yəhudi, bütpərəst, ayırd etmədən hər kəsə ədalətli davranırdılar.

Peyğəmbərimiz (s.ə.v)-in Quran əxlaqına uyğun gələrək göstərdiyi bu gözəl rəftarı, bu gün fərqli dinlərdən insanların bir-birlərinə qarşı mövqeləri mövzusunda nümunə olmalıdır. Peyğəmbərimiz (s.ə.v)-in ədaləti, fərqli irqlərdən insanlar arasında da uzlaşma təmin etmişdir. Peyğəmbərimiz (s.ə.v) bir çox dəfə, hətta Vida xütbəsində də irqlərə görə bir üstünlük ola bilməyəcəyini, Allahın ayəsində xəbər verdiyi kimi "**üstünlüyün təqvaya görə olacağını**" bildirmişdir. Digər hədislərində isə bu şəkildə buyurmuşdur:

*“Ey insanlar! Hamınız Adəmin övladlarısınız. Adəm isə torpaqdan yaradılmışdır. İnsanlar şübhəsiz və şübhəsiz irqləriylə tərif olunmağa qapılmamalıdırlar”.*[45]

*“Sizin bu soyunuz-kökünüz kimsəyə üstünlük və qürur göstərməyə səbəb olacaq şey deyil. (Ey insanlar)! Hamınız Adəmin övladlarısınız. Hamınız bir ölçü içindəki bir-birinə bərabər buğda dənələri kimi... Halbuki, heç kimsənin kimsəyə din və təqva müstəsna üstünlüyü yoxdur. İnsana pis olması üçün; başqalarını tənqid etməsi, kiçik görməsi, xəsis, pis xasiyyətli, hədd və hüdudu aşmış olması yetər.”*[46]

## Peyğəmbərimiz (s.ə.v) hər zaman sülh tərəfdarı olmuşdur

Peyğəmbərimiz (s.ə.v) heç vaxt döyüşməyi arzu etməmiş, İslam əxlaqını tamamilə sülh yolu ilə insanlara çatdırmaq üçün səy göstərmişdir. Bu səbəblə ağır hücum və təzyiqlərə illərcə həmişə səbirlə cavab vermiş, ancaq bu təzyiqlərə cavab vermək bir zərurət halına gəlincə, Allahdan gələn bir vəhylə, döyüşə icazə vermişdir. O, təzyiq və hücumlar həyati təhlükə ifadə etmədikcə və sülh yolu tam olaraq bağlanmadıqca heç bir ölkəyə müharibə elan etməmişdir.

Mute müharibəsi müsəlmanların Peyğəmbərimiz (s.ə.v) həyatda ikən etdikləri ən qanlı və ən çətin döyüşdür. Peyğəmbərimiz (s.ə.v) bu orduya komandir olaraq Zeyd ibn Harisəni təyin etmiş və orduya bu tövsiyələri vermişdir:

*Allahın adıyla, Allah yolunda, Allahı inkar edənlərlə döyüşün. Xəyanət etməyin. Qulaq, burun kimi bədən üzvlərini kəsməyin. Uşaqları və qadınları, yaşlıları, məbədinə çəkilmiş din adamlarını öldürməyin. Xurmaları və digər ağacları kəsməyin, binaları dağıtmayın.*[47]

Döyüş əsnasında mütləq tətbiq olunması lazım olan əxlaqi prinsiplər isə hədislərdən bu şəkildə sıralanır:

1) Yalnız müharibəni təşviq edən və müharibəyə qarışanlarla döyüşmək lazımdır.
2) Kilsələrdəki rahiblərə qəti olaraq toxunmaq olmaz.
3) Uşaqlara zərər vermək olmaz.
4) Qadınlara zərər vermək olmaz.
5) Yaşlılara zərər vermək olmaz.
6) Əkilmiş sahələrə zərər vermək olmaz.
7) Əhdə vəfa göstərilər, müqavilələrə sadiq qalınar.
8) Heyvanlara zərər vermək olmaz.
9) Zülm etmək olmaz.
10) Şəhərləri viran etmək olmaz.[48]

Peyğəmbərimiz (s.ə.v)-in yəhudi və müşrik birliklərlə imzaladığı Mədinə Vəsiqəsi də əhəmiyyətli ədalət nümunəsidir. Fərqli inanclara sahib birliklər arasında ədalətin təmin edilməsi və hər birliyin maraqlarının nəzərə alınması üçün hazırlanan bu müqavilə sayəsində illərcə düşmənçilik içində yaşayan icmalara sülh gətirilmişdir. Mədinə Vəsiqəsinin ən diqqətə çarpan xüsusiyyətlərindən biri inanc azadlığı təmin etməsidir. Bu mövzu ilə əlaqədar maddə belədir:

*"Beni Avf Yəhudiləri, möminlərlə birlikdə eyni ümmətdirlər, Yəhudilərin dinləri özlərinə, müsəlmanların dinləri də özlərinədir."*[49]

Mədinə Vəsiqəsinin 16-cı maddəsində isə, *"Bizə tabe olan yəhudilər, heç bir haqsızlıq edilməyəcəyi və düşmənləriylə də köməkləşmədən, kömək və dəstəyimizi haqq qazanacaqlar"*[50] deyə bildirilmişdir. Peyğəmbərimiz (s.ə.v)-dən sonra da səhabələri Peyğəmbərimiz (s.ə.v)-in müqaviləyə yazdığı bu hökmə sadiq qalmışlar və eyni hökmü, Bərbəri, Buddist, Brahman və bənzəri inanclara sahib insanlar üçün də tətbiq etmişlər.[51]

Əsri-Səadət dövrünün sülh, hüzur və təhlükəsizlik içində keçməsinin ən əhəmiyyətli səbəblərindən biri, Quran əxlaqına əməl edən Peyğəmbərimiz (s.ə.v)-in ədalətli mövqeyidir. Xarici yazarlar da Peyğəmbərimiz (s.ə.v)-in bu üstün xarakterindən təsirlənmiş, onun gözəl əxlaqını əsərlərində çox təsir edici ifadələrlə tərifləyiblər. George Bernard Shawın "The Genuine Islam" adlı əsərində bu üstün xüsusiyyətlər belə ifadə edilir:

*Hz. Məhəmməd (s.ə.v)-in dinini möcüzəvi canlılığı səbəbiylə daim gözümdə üstün tutmuşam. Hər çağa xitab edə bilən, həyatın dəyişən mərhələlərinə assimilyasiya ola bilmə tutumuna sahib olan tək din kimi gəlir mənə. Onu, o möcüzəvi insanı araşdırdım və məncə... insanlığın xilaskarı olaraq adlandırılmalıdır. Əgər onun kimi bir insan müasir dünyanın hökmdarlığı vəzifəsinə yiyələnsəydi, çox ehtiyac duyulan sülh və xoşbəxtliyi gətirəcək şəkildə dünyanın problemlərini həll etmədə müvəffəqiyyətli olardı...*[52]

Zəmanəmizdə də, dünyanın dörd bir tərəfində meydana gələn qarşıdurmaların, müharibələrin, narahatlıqların tək həlli Quran əxlaqına tabe olmaq və Peyğəmbərimiz (s.ə.v) kimi, din, dil və ya irq ayrı-seçkiliyi güdmədən, ədalətdən heç bir zaman ayrılmamaqdır.

# BƏDİÜZZAMAN SƏİD NURSİDƏN TERROR VƏ ANARXİYA ÇÖZÜMLƏRİ

Tarix boyunca terrorun və anarxiyanın şiddətləndiyi dövrlər olmuş və bütün insanlığı təhdid edən bu problemə çözüm tapa bilmək üçün müxtəlif təkliflər ortaya atılmışdır. Terror və anarxiya bəlaları ilə bütünlüklə bir mübarizə aparılmasını çox üzərində dayanan insanlardan biri də böyük İslam alimi Bədiüzzaman Səid Nursidir. Bədiüzzaman bunun üçün əvvəlcə edilməsi lazım olan şeyin din əxlaqının insanlar arasında yayılması üçün səy göstərilməsi olduğunu izah etmiş və müxtəlif tövsiyələr vermişdir.

Bədiüzzaman Səid Nursinin həyatı dünya tarixinin köklü dəyişikliklər yaşadığı bir dövrə düşür. Birinci Dünya Müharibəsi Bədiüzzamanın həyatında əhəmiyyətli yer tutur. Ustad, Osmanlının çökməsinə və Türkiyə Respublikasının quruluş mərhələsinə çox yaxından şahid olmuşdur. O, Rusiyada kommunizmin iqtidara keçməsinə, dünya dövlətlərinin Birinci və İkinci Dünya Müharibələrinə sövq edilməsinə və Türkiyə Respublikasının bu müddət ərzində yaşadığı çətin dövrlərə şahidlik etmişdir. Bədiüzzaman yaşadığı dövrdə reallaşan bütün hadisələri çox ətraflı təhlil etmiş və siyasət səhnəsində inkişaf edən hər hadisəni Quran ayələrinə əsasən dəyərləndirmişdir. Onun bu xüsusiyyətini bütün əsərlərində və hər sözündə görmək mümkündür. Din əxlaqından uzaqlaşmağın cəmiyyəti nə qədər böyük təxribata sürükləyəcəyini, müsəlmanların birlik dinsiz ideologiyalara qarşı böyük müvəffəqiyyət əldə edəcəklərinə hər sözündə toxunmuşdur.

Bədiüzzaman həm öz yaşadığı dövrdə həm də özündən sonra terror və anarxiyanın insanların qarşısına böyük bəla olaraq çıxacağını bilirdi. Bu səbəblə də terrorla mübarizə ilə əlaqədar müxtəlif həll yolları təklif edir, insanları bu mövzuda bilikləndirməyə çalışırdı. O, *"Dinin şiddətlə qadağan etdiyi şey, fitnə və anarxiyadır. Çünki anarxiya heç bir haqq tanımır. İnsanlıq əxlaqını və mədəniyyət əsərlərini vəhşi heyvanların əxlaqına çevirir..."*[53] sözüylə İslam dininin terror və şiddətə dünyagörüşünü ən gözəl şəkildə ifadə etmişdi. Bütün həyatını da bu dünyagörüşünü insanlara izah etməklə keçirmişdi. Ustad bir sözündə "*Madam iman xidmətində tam ixlasla, anarxiyaya son qoymaqla, asayişi mühafizə etməklə səbir və dözüm lazımdır. Mən də bunun üçün rahatlığımı və şərəfimi fəda edirəm. Onları da halal*

*edirəm"*[54] demiş, anarxiya və terrorla elmi mübarizənin iman edənlərin üzərinə məsuliyyət olduğunu, bu mübarizənin səbir və dözüm tələb etdiyini ifadə etmişdir.

Bizlər üçün Bədiüzzamanın təcrübələri və bir rəhbər kimi sözləri çox qiymətlidir. Bu səbəblə bütün həyatı boyunca, Quran əxlaqındakı sevgi, sülh və hüzur dolu dünyanı təsis etmək üçün səy göstərmiş olan bu insanın hər bir şərhi üzərində diqqətlə düşünməliyik.

## Bədiüzzaman terrorun ancaq sevgi ilə həll edilə biləcəyini söyləyirdi

Bədiüzzamanın izahlarında öncəlik olaraq diqqət çəkən istiqamət, insan sevgisi və insan həyatına verilən əhəmiyyətidir. Bu, Quran əxlaqının insana qazandırdığı bir gözəllikdir. Bədiüzzaman da bir sözündə bunu bu şəkildə ifadə etmişdir:

*Qurani Hakimdən aldığımız həqiqət dərsi budur ki: Evdə, yaxud bir gəmidə bir günahsız, on qatil olsa, Quranın ədaləti, o günahsızın haqqına zərər verməmək üçün, o evi, gəmini yandırmağa qadağan etdiyi halda, on günahsızın bir tək qatilə görə məhv edilməsi üçün, o ev, o gəmi yandırılarmı? Yandırılsa ən böyük zülm, ən böyük xəyanət olmazmı? Bu səbəblə, təhlükəsizliyi pozan yolunda yüzdə on qatil doxsan günahsızın həyatını təhlükəyə və zərərə salmaq ilahi ədalət və Quran həqiqəti şiddətlə qadağan etdiyi üçün, biz bütün qüvvətimizlə Qurana uyğun olaraq təhlükəsizliyi təmin etməyə özümüzü dinə görə məcbur bilməliyik...*[55]

Ustad yuxarıdakı sözündə insan həyatının nə qədər əhəmiyyətli olduğunu, tək bir insanın həyatı qorumaq üçün hər cür fədakarlıq etmək lazım olduğunu, əksinin çox böyük zülm olacağını bildirmişdir. Müsəlman dünya üzərindəki bütün insanların təhlükəsizliyini, rahatlığını təmin etməyi, anlayışlı və sevgi dolu dünyada yaşamalarını istəyər. Bu, onun üzərində bir məsuliyyət, Allahın bildirdiyi bir əmrdir. Bunun üçün də din əxlaqının yayılması üçün bütün imkanlarıyla səy edər, insanların təhlükəsizliyini

pozacaq hər cür zorakılığa mane olmaq üçün əllərindən gələni edərlər. Anarxiya və terror insanı sanki bir canavara çevirdiyi halda, İslam əxlaqının yaşandığı mühit cənnət bənzəri olar. Bədiüzzaman bunu bəzi sözlərində bu şəkildə ifadə edir:

*...Bir müsəlman İslamiyyətdən çıxsa, İslam dinindən dönər və anarxist olar, ictimai həyat üçün zəhər olar. Çünki anarxiya heç bir haqq tanımır, insaniyyətin gözəl xüsusiyyətlərini vəhşi heyvanların əxlaqına çevirir.*[56]

*Həqiqi müsəlman, səmimi mömin heç bir zaman anarxiyaya və fitnə-fəsad törətməyə tərəfdar olmaz. Dinin şiddətlə aradan qaldırdığı şey fitnə və anarxiyadır. Çünki anarxiya heç bir haqqı tanımır. İnsanlıq gözəl xüsusiyyətlərini və mədəniyyət əsərlərini vəhşi heyvanların əxlaqına çevirir.*[57]

Bədiüzzaman din əxlaqının izah edilməsi ilə insan sevgisini bilməyən, anlayışsız, qeyri-konstruktiv və təcavüzkar insanların ürəklərində belə böyük bir sevgi və məhəbbət meydana gələcəyini, bu Allah sevgisinin isə insanları hər cür zorakılıqdan uzaq tutacağını bildirmişdir. Müsəlmanın vəzifəsi, insanlarda bu sevgini yaratmaq üçün dinin gözəlliklərini və Quran həqiqətlərini izah etmək olduğunu vurğulamışdır. Ustad yazdığı Nur Risalələrinin bu vəzifəni yerinə yetirdiyini belə vurğulayır:

*Bəli, Risalə-i Nur haqq və həqiqətə bağlı, dəlil və isbata söykənən iman və Quran həqiqətlərini zamana uyğun, cəmiyyətin qəbul etmə tərzinə uyğun, cazibədar bir üslub və asan izahlarla isbat və izah etməsi ilə milyonlarla insanın iman və inancını təhqiq edərək, ruhlarda İslam sevgi və məhəbbəti oyandırmaq anarxiyanın əlaməti olan dinsizlik və əxlaqsızlığa qarşı mənəvi sədd inşa etmişdir. Bəli ruhlarda, ağıl və ürəklərdə təsis edilən müqəddəs ideal və məqsəd birliyi, imani sevgi və məhəbbəti, yıxılmaz qüvvət, aşılmaz bir sədd kimi mənəvi təsir meydana gətirir.*[58]

## Quran əxlaqının yaşanması terrorla mübarizədə ən əhəmiyyətli nöqtədir

Bədiüzzaman terror və anarxiya ilə mübarizədə ən əhəmiyyətli məsələ kimi din əxlaqının yayılması olduğunu hər fürsətdə dilə gətirmişdir. Bu sözlərindən birində bunları ifadə edir:

*Həm hər şəhər öz xalqına geniş bir xanadır. Əgər axirət inancı o böyük ailə fərdlərində hökm edilməzsə; gözəl əxlaqın əsasları olan ixlas, səmimiyyət, fəzilət, həmiyyət, fədakarlıq, Allahın razılığı, axirət savabı yerinə pis niyyət, mənfəət, saxtakarlıq, özünü bəyənmişlik, süni hərəkət, riya, rüşvət, aldatmaq kimi hallar meydan gələr. Zahiri təhlükəsizlik və insaniyyət altında, anarxistlik və vəhşilik hökm edər; o şəhər həyatı zəhərlənəcəkdir. Uşaqlar avaralığa, gənclər sərxoşluğa, güclülər zülmə, qocalar ağlamağa başlayarlar.*[59]

Bədiüzzamanın da vurğuladığı kimi, din əxlaqının yaşanması ilə bir çox gözəl əxlaq xüsusiyyəti ortaya çıxarkən, dindən uzaq bir cəmiyyətdə hər cür saxtakarlıq, zorakılıq, anarxiya, vəhşilik və terror inkişaf edər. Yardımlaşma, fədakarlıq, dürüstlük kimi üstünlüklər ortadan qalxar. İnsanlar yalnız öz mənfəətlərini düşünər, yalnız öz rahatlıqlarını, yalnız öz mənfəətləri üçün çalışmağa başlayarlar. Ancaq dinin yaşanması cəmiyyətdə çox böyük həmrəylik, qardaşlıq və dostluq meydana gəlməsinə vəsilə olur. Bədiüzzaman eyni sözünün davamında, din əxlaqının bir cəmiyyətə və ailə həyatına qazandırdığı gözəllikləri bu şəkildə bildirir:

*Buna müqayisə olaraq məmləkət bir evdir və vətən də milli ailənin evidir. Əgər axirət inancı bu geniş evlərdə hökm etsə, səmimi hörmət və ciddi mərhəmət və rüşvətsiz söhbət və yardımlaşma və hiyləsiz xidmət və birlikdə yaşanılanlar və riyasız lütfkarlıq və fəzilət və mənlik verilməyən böyüklük və üstünlük o həyatda inkişafa başlayar. Uşaqlara deyər: "Cənnət var, dəcəlliyi burax." Quran dərsi ilə təmkin verir. Gənclərə deyər: "Cəhənnəm var, sərxoşluğu burax." Ağılları başlarına gələr. Zalıma deyər: "Şiddətli əzab var, döyüləcəksən." Ədalətə boyun əyər. Qocalara deyər: "Sənin əlindən çıxmış bütün səadətlərindən çox yüksək və daimi axirət səadəti və təzə, əbədi gənclik gözləyir. Onları qazanmağa çalış." Ağlamasını gülməyə çevirir. Bunlara müqayisədə, bir bölüm və bir bütün olaraq hər qövmdə gözəl təsirini*

*göstərər, işıqlandırar. İnsanların ictimai həyatı ilə əlaqədar olan sosioloqların və əxlaq elmi ilə məşğul olanların qulaqları cingildəsin! Məhz axirət inancının minlərlə faydasından işarə etdiyimiz beş-altı nümunə digərləri ilə müqayisə edilsə, tamamilə aydın olar ki;* ***iki dünyanın və iki həyatın səadətə səbəb olan yolu sadəcə imandır.***[60]

Yuxarıdakı nümunələrdə də göründüyü kimi din əxlaqı yaşandıqda insanlara öyüd-nəsihət vermək, onları pisliklərdən daşındırmağa çağırıb doğru yola sövq etmək son dərəcə asan olur. Bədiüzzaman terrorun və anarxiyanın ancaq sevgini, anlayışı, sülhü, bağışlayıcılığı, şəfqəti və mərhəməti əmr edən, insanı hər cür pislik və fitnə-fəsad törətməyi qadağan edən Quran əxlaqının yaşanması ilə yox olacağını tez-tez ifadə etmişdir. Aşağıdakı sözlərində də müsəlmanlara Quranın həqiqətlərinə sarılmağı tövsiyə etmiş və anarxiyanın yer üzündə dinin hakim olması ilə son çatacağını təkrar vurğulayır:

*İnsanlığı dəhşətli müsibətlərə sövq edən, təhdid edən anarxiyanı pozma və təxribatın tək çarəsi ancaq və ancaq İlahi, səmavi bir dinin əzəli və əbədi gerçəkləridir, gerçək İslamdır.*[61]

*İndi bu zamanda en böyük təhlükə olan münafiqlik və dinsizlik və anarxiya və maddəçilərə qarşı yalnız və yalnız tək çarə var: O da Quranın möcüzələrinə sarılmaqdır. Yoxsa böyük Çini, az bir zamanda kommunistliyə çevirən insanlıq müsibəti; siyasi, maddi qüvvətlər ilə susmaz. Yalnız onu susduran Quran gerçəyidir.*[62]

Bədiüzzaman terror və anarxiyanın yox olmasında Quran əxlaqının və Quranın bir təfsiri hökmündəki Risalələrin çox böyük vəzifə boynuna götürdüyünə və gələcəkdə də bu vəzifəsinə davam edəcəyinə daha çox diqqət çəkər. Bu səbəbdən Quran əxlaqının izah edildiyi, insanların gerçək İslama dəvət edildiyi hər cür iş də bu vəzifəni layiqincə görəcək və terrorla mübarizədə təsirli rol boynuna götürəcək. Bədiüzzaman *"Risalə-i Nurun hərçənd siyasətlə əlaqəsi yoxdur, amma küfrü qırdığı üçün, küfrün altında olan anarxiyalılığı (və) üstü olan istibdadı mütləq əsasıyla pozar, rədd edər."*[63] sözləriylə bu əhəmiyyətə diqqət çəkir. Bədiüzzaman bir digər izahında isə

anarxizmdən xilas olmaq üçün 5 əsasdan bəhs etmişdir. Bunlar Ustadın ifadəsiylə *"...Hörmət, mərhəmət, haramdan çəkinmək, təhlükəsizlik, özbaşınalığı buraxıb itaət etməkdir."*[64] Bədiüzzaman eyni sözünün davamında Risalə-i Nurların aldığı vəzifəni necə yerinə yetirdiyini bu şəkildə vurğulayır:

*Risalə-i Nur ictimai həyata baxdığı zaman, bu beş əsası qüvvətli surətdə təsbit edərək və möhkəmlədir, asayişin təməl daşını mühafizə etdiyinə dəlil isə; bu iyirmi il ərzində Risalə-i Nurun, yüz minlərlə insanı vətənə və millətə zərərsiz, faydalı üzv halına gətirməsidir.*[65]

## İncəsənət, mərifət və ittifaq gücü ilə mübarizə etmək

Bədiüzzaman Səid Nursi əsərlərində dinsizlik, terror və anarxiya ilə necə mübarizə aparılacağını ətraflı olaraq təsvir etmişdir. Bunu da *"... Bizim düşmənimiz cəhalət, zərurət, ixtilafdır. Bu üç düşmənə qarşı sənət, mərifət, ittifaq silahları ilə mübarizə edəcəyik ..."*[66] sözləriylə ifadə etmişdir. Səid Nursinin bu sözləri insanların dinsizliyə qarşı mübarizəsinin nə şəkildə olacağını anlamaq baxımından çox əhəmiyyətlidir. Bədiüzzaman yuxarıdakı sözündə üç təhlükəyə diqqət çəkir: Cəhalət, zərurət və ixtilaf ...

İlk təhlükəyə qarşı, yəni **cəhalətə qarşı** xalqın bilgiləndirilməsi son dərəcə əhəmiyyətlidir. Yaşadığımız cəmiyyətdə insanların böyük əksəriyyəti dini məlumata malikdir, Allaha və dinə inanır. Ancaq yenə böyük əksəriyyəti dinin və mənəvi dəyərlərin dərinliyini dərk etmir, yalnız səthi və qulaqdan duyulan məlumatlara malikdir. Bu səbəbdən dinin gətirdiyi gözəl əxlaqı gerçək mənada həyata keçirmək mümkün olmur. Bu səbəblə cəhalətin, yəni məlumat əskikliyinin sürətlə aradan qaldırılması əsas şərtdir.

Bədiüzzamanın diqqət çəkdiyi ikinci təhlükə isə **zərurət** yəni pulsuzluqdur. Zəmanəmizdə xüsusilə müsəlman ölkələrində xalq böyük yoxluqla qarşı-qarşıyadır. Çox zəngin yeraltı qaynaqlarına və məhsuldar torpaqlara sahib müsəlman ölkələrdə belə siyasi xaosun gətirdiyi böyük kasıblıq yaşanır. İslam əxlaqının yaşanmaması bu ölkələrdəki kasıblığın gün keçdikcə daha da artmasına səbəb olur. Səid Nursinin son olaraq diqqət

çəkdiyi ixtilaf təhlükəsi də bu gün mövcuddur. Bu gün dünyada insanlar arasında bir çox mövzu ixtilaflıdır. Çox vaxt fikir birliyinə gəlinmir və bir çox mövzu müzakirələrə, qarşıdurmalara çevrilir. Bu **ixtilaf** insanların ən böyük mərkəz nöqtəsi halına gəlir, gözəl əxlaq, din və axirət tamamilə unudulmuşdur. Halbuki məntiqli yanaşma ixtilafları asanlıqla həll edir. Ağılın və vicdanın yolu birdir. Bu səbəblə bu ixtilafın gətirəcəyi qarışıqlıq və xaos təhlükəsinə qarşı çox açıq şəkildə ortaya qoyulmalıdır.

Bədiüzzaman, bu üç təhlükəyə qarşı tədbir alarkən göz qarşısında saxlanılması lazım olan mövzuları da bildirmişdir. Bu mövzuların ilki incəsənətdır. İnsanların terror və anarxiya ilə edəcəkləri mübarizədə incəsənət çox əhəmiyyətli yer tutur. Burada "**incəsənət**" sözündə bir çox şey nəzərdə tutulmuşdur. Biri, insanların ümumi olaraq Allahın bir neməti və ayəti olan gözəlliyə və estetikaya düşkün olması, bu insan ruhunun kobudluqdan və şiddətdən uzaqlaşmasını təmin edər. Bir digəri də, Allah sənətinin bir neməti olduğunu bilmək və buna şükür etməkdir ki, insanın mənəvi dərinliyini artırır. Bu Allahın ətrafımızdakı incəsənətinin bütün gözəlliklərinin izahı çox əhəmiyyətli bir mövzudur. Sənətçilər bu şüurla hərəkət etməli, dindar insanlar bu şüurla sənəti yiyələnməlidirlərlər. Dini izah etmək üçün, üçüncü şəxsin sahibi olmalıdır. Bundan əlavə, sözlü ifadə etmək də müdrik incəsənətdir. Seçilən sözlər, istifadə olunan nümunələr, anladılanlarda təsirli olmaq və təəssürat yaratmaq təsiri baxımından çox vacibdir. Dinin gözəlliklərini izah edərkən aydın olmayan, kompleksli, qəlibvari və çətin yolu mənimsəyən üsulların əksinə, izahatdakı sadəlik, insanların həqiqətləri anlamasına çox böyük asanlıq təmin edəcək.

Ustadın diqqət çəkdiyi **mərifət** isə "məlumat sahibi olmaq" mənasına gəlir və müsəlmanların yaşadıqları dövrün bütün məlumatlarına hakim olmaları lazım olduğunu ifadə edir. Müsəlman, Uca Rəbbimiz Allahın insanlar üçün seçdiyi dinin yer üzündəki nümayəndəsidir, bu səbəbdən yaşadığı dövrün elm, mədəniyyət, düşüncə, texnologiya kimi fərqli sahələrinə hakim olmalı, onları bilməli və ən yaxşı şəkildə istifadə edə biləcək qabiliyyətə sahib olmalıdır.

Ustadın göstərdiyi son üsul olan **ittifaq** isə, bütün insanlığın rifahı və təhlükəsizliyini istəyən hər kəsin yerinə yetirməsi lazım olan bir vəzifədir. İnananların bütün insanları təhdid edən terror və anarxiya bəlası ilə mübarizə edərkən bir-birlərinə dəstək olmaları son dərəcə əhəmiyyətlidir. Bu birliyi pozmaq üçün ediləcək hər cür cəhd də təsirin azalmasına səbəb olacaq.

# NƏTİCƏ

Kitab boyu vurğuladığımız kimi, əgər lazım olan tədbirlər alınmaz və köklü çözümlər tətbiq edilməzsə, 21-ci əsrdə də eyni 20-ci əsrdə olduğu kimi şiddət və terror davam edəcək. Bunun üçün terrorla fikri mübarizənin çox böyük sürətlə və çox geniş kütlələri əhatə edəcək şəkildə başladılması lazımdır. Bu fikri mübarizə, cahillikdən və şiddətdən qüvvət tapan terrorçularla, Allaha iman edən, şəfqətli, sevgi dolu, bağışlayıcı, mərhəmətli və vicdanlı insanlar arasında reallaşacaq. Rəbbimiz Hud surəsinin 116-cı ayəsində **"... yer üzündə fitnə-fəsad törətməyi önləyəcək fəzilət sahibi kəslər olmalı deyildimi?"** İman edənlər Allahın ayələrdə təsvir etdiyi, bu fəzilət sahibi kəslərdir. Terroristlər nəticəni şiddətdə axtararkən, onlar həqiqi müvəffəqiyyətin ancaq Allahın dininə möhkəm sarılmaqla əldə edəcəyinin dərk edərək hərəkət edəcəklər. Müsəlmanlar, yəhudilər və xristianlar birlik olub, bu fikri mübarizəni hər inanca və hər fikrə hörmətlə anlayışla icra edəcək və Allahın izni ilə mütləq müvəffəqiyyətlə qarşılaşacaqlar. Bu, Allahın bütün inanc sahibi qullarına söz verdiyi və mütləq reallaşacaq vədidir.

Bir terrorist sahib olduğu ideoloji fikrin bütün təməl qaynaqlarını əzbərdən bilər. Ancaq özünü həm dünyada, həm də axirətdə həqiqi xoşbəxtliyə və sağlamlığa qovuşduracaq olan açıq-aydın qafildir. Çünki həyatı boyunca dinsiz ideologiyalarla, həyatın yalnız güclülər lehində inkişaf edən mübarizə meydanı olduğu fikrinə öyrədilmişdir. Onun üçün həyatda qalmaq üçün şiddətdən, zorakılıqdan başqa yol yoxdur. Bilinməlidir ki, dini, irqi, milləti nə olursa olsun terror edən hər insan, mütləq materialist və darvinist düşüncənin təsiriylə hərəkət edir. Terror istifadə edənlərin xəbərsiz olduğu ən əhəmiyyətli gerçək isə, Allahın və axirət həyatının varlığı, dünya həyatının yalnız bir sınaqdan ibarət olduğu və ancaq iman gətirib saleh əməllər edənlərin qurtuluşa çatacaqlarıdır. Şiddət bu kəsləri həm dünyada həm də sonsuz axirət həyatında çox böyük və geri dönülməyən məhvə uğradacaq.

Məhz bu nöqtədə hansı dindən olursa olsun, iman sahibi hər insana çox böyük məsuliyyət düşür. Yəhudilər Əhdi-Ətiqdə bəhs edilən və insanlığı sülhə və sevgiyə çağıran izahları nəzərdən qaçırmamalı, bütün yəhudiləri terrorun qarşısında dayanmağa dəvət etməlidirlər. Xristianlar da Allahın məmnun olacağı gözəl əxlaqı özlərinə rəhbər edərək, bütün xristianları terrorizmlə mübarizəyə dəvət etməlidirlər. Şübhəsiz bu mübarizə, terrora

zəmin meydana gətirən ideologiyalarla fikri sahədə ediləcək olan bir mübarizədir. Bir tərəfdən bu ideologiyaların ziddiyyətlərini, bir tərəfdən də heç bir fikrin şiddətlə, təzyiqlə, zülmlə hakim ola bilməyəcəyini, zorbalığın əsla bir gözəllik meydana gətirə bilməyəcəyini izah etməlidirlər.

Terrorist ideologiya çürük təməllər üzərinə qurulmuşdur və kitab boyu dayandığımız bu dayaqları bütünlüklə təhsil səfərbərliyi ilə asanlıqla aradan qaldırılması mümkündür. Yer üzünün dörd tərəfindəki səmimi möminlər də çözüm yolları tapmaqla, kitablar və yazılar yazmaqla, müxtəlif təhsil təşəbbüsləriylə, mədəni təcrübə ortaya qoymaqla terrorizmin qarşısında dayana bilər, cəhalətin önünü kəsə bilərlər. Dünya üzərində Allahın əmr etdiyi mərhəmətin, sülhün və səadətin hakim olması, terrorizmi geri dönməyəcək şəkildə tarixin səhifələrinə qərq edəcəkdir.

**Əgər onlara yer üzündə hökmranlıq versək, onlar namaz qılar, zəkat verər, yaxşı işlər görməyi əmr edib, pis işlər görməyi qadağan edərlər. Bütün işlərin aqibəti Allaha aiddir. (Həcc surəsi, 41)**

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allahın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allahın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: Həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

## XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

### Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**
- **Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**
- **Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**
- **Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya

Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, cild 271, oktyabr 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

## Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir.

Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

### Fosillər: Ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə

iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

### Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar

təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”. (Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, cild 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

“Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar”. *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni “növlərin mənşəyi” Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid

formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

- **Australopithecus**
- **Homo habilis**
- **Homo erectus**
- **Homo sapiens**

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, cild 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwins Current Bulldog: Ernst Mayr", Scientific American, dekabr 1992)*

Təkamülçülər "*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, səh 221; M. D. Leakey, Olduvai Gorge, cild 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, cild 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

## Darvin düsturu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından “Darvin düsturu” adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi

milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allahın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda

əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan

əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allahı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

“Bizim materializmə bir inancımız var, bu “a priori” (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan “a priori” bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik”. *(Richard Lewontin, “The Demon-Haunted World”, The New York Review of Books, 9 yanvar 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allahın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allahdır.

**Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir**

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allahın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar**

**heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın

ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən bilənsən, müdriksən! (Bəqərə surəsi, 32)**

# ŞƏKİLALTI YAZILAR

10:

11 sentyabr hücumları minlərlə insanın həyatını itirməsinə, bir çox insanın da yaralanmasına səbəb oldu.

13:

Cumhuriyet, 2 may 2002

Gözçü, 28 sentyabr 2001

Akşam, 21 mart 2002

Gözçü, 22 mart 2002

İndiki vaxtda terror dünyanın bir çox ölkəsini qana bulamışdır. Bu səbəblə terrorla mübarizədə, əsas olaraq terroru bəsləyən fikri qaynaqların qurudulması və bunun üçün sülhdən yana olanların ittifaq etməsi lazımdır.

16:

**Sən bağışlama yolunu tut, yaxşı iş görməyi əmr et və cahillərdən üz döndər. (Əraf surəsi, 199)**

17:

**Qoy sizin içərinizdən xeyrə çağıran, yaxşı işlər görməyi buyuran və pis əməlləri qadağan edən bir camaat çıxsın. Məhz onlar nicata qovuşanlardır. (Ali İmran surəsi, 104)**

Harun Yəhya (Adnan Oktar)

21:

Oreqonda 750 insanın zəhərlənməsinə səbəb olan hücumu reallaşdıran azğın təriqətin lideri Bhagwan Shee Rajneesh müridləri ilə birlikdə görülməkdədir.

22:

Oreqon hücumu, bioloji silahların terrorist qrupların əlində nə qədər böyük təhdidə çevrildiyini göstərən əhəmiyyətli nümunədir.

Aum Shinrikyo

25:

ETA və IRA terror təşkilatları İspaniya və İngiltərədə illərlə çox böyük can və mal itkisinə səbəb oldular.

27:

Bölgələrə görə terror hadisələri

272

1995

1996

1997

1998

1999

2000

193

128

121

121

111

98

92

84

85

72

55

52

52

49

48

45

45

42

37

35

31

31

30

25

24

21

21

15

16

14

13

11

11

11

10

5

2

0

0

0

0

Orta Şərq

Şimali Amerika

Avrasiya

Latın Amerikası

Qərbi Avropa

Afrika

Asiya

1981-2000-ci illəri arasında terror hadisələri

666

635

612

605

565

565

498

489

487

437

440

431

423

392

375

363

322

304

296

274

1981

82

83

84

85

86

87

88

89

90

91

92

93

94

95

96

97

98

99

2000

Yuxarıdakı qrafiklər ABŞ Xarici İşlər Nazirliyi tərəfindən hazırlanmışdır. Üstdəki qrafikdə, 1995-2000-ci illəri arasında yaşanan terror hadisələrinin regional paylaşması görülməkdədir. Aşağıdakı qrafik isə 1981-2000-ci illəri arasında reallaşan terror hadisələri göstərməkdədir.

28:

10 avqust 2001-ci ildə Anqolanın tam müstəqilliyi üçün Milli Birlik (UNUDA) partizanlarının bir yolçu qatarına etdikləri hücumda 252-dən çox insan öldü.

29:

30 dekabr 1996-cı ildə Hindistanın Assam əyalətində qatara yerləşdirilən bombanın partlaması nəticəsində 300 insan öldü. Hücumun irqçi Bodo partizanları tərəfindən reallaşdırıldığı təxmin edilməkdədir.

7 avqust 1998-ci ildə ABŞ-ın Keniya və Tanzaniyadakı səfirliklərinə yerləşdirilən bombanın partlaması nəticəsində 224 insan öldü, minlərlə insan yaralandı.[10]

21 oktyabr 1999-cu ildə Çeçenistanın paytaxtı Qroznıda böyük alış-veriş mərkəzindəki günahsız xalqa edilən raket hücumunda 110 insan öldü, 400 insan yaralandı.

30-31:

“Aydınlıq yol”un qanlı terroru

Dünyanın ən qanlı terror təşkilatlarından biri də, Peruda fəaliyyət göstərən marksist-Leninist-Maoist partizan qrupu “Aydınlıq yol”udur. 1960-cı illərdə fəlsəfə professoru Abimael Guzman öndərliyində qurulan təşkilat, ilk illərdə hər hansı bir siyasi hərəkət kimi qiymətləndirilirdi. Ancaq “Aydınlıq yol”u 1970-ci illərdə dünyanın ən vəhşi partizan təşkilatlarından biri halına gəldi.

Təşkilat lideri Guzmanın şiddət tərəfdarı açıqlamaları çox diqqət çəkici idi. Abimael Guzman 19 aprel 1980-ci ildə etdiyi bir danışığında “Gələcək, silahlarda və toplarda yatmaqdadır.” deyirdi.[11] Bir “Aydınlıq yol” partizanı isə “Qan bizi daha da güclü etməkdədir və əgər axırsa bizə zərər verməz, əksinə güc verər.” şəklindəki sözləriylə şiddəti ucaldırdı. Təşkilat, mübarizələrinin təməlinin şiddət üzərinə qurulduğunu açıqca ifadə edir və ölkədə şiddətin necə artırıla biləcəyini müzakirə edirdi. Nəticədə 23.000-in üzərində insan, yaşanan partizan döyüşündə həyatını itirmişdi. O dövrdə yaşananlar qısaca bu şəkildə idi:

1980-ci illər, Guzmanın təhsil karyerinə son vermiş və Peruda davam edən terrorizmə yeni başlanğıc gətirmişdi... Guzman və “Aydınlıq yol” da İkinci Dünya Müharibəsi boyunca Yaponiyadakı kamikadzelər kimi ölümü romantikləşdirmişlərdi. İnandıqları ölüm, Guzmanın "qan çayı" olaraq danışdığı və onları irəlidə gözləyən hədiyyələr üçün ödəmələri lazım olan kiçik əvəz idi. Çox sayda günahsız vətəndaş qaçırılmış, təcavüzə və işgəncəyə uğramış və öldürülmüşdü. Əhalinin 1%-dən çoxu şiddət siyasəti səbəbiylə vəhşicə öldürülmüşdü. İndi "Başçı Gonzalo" olaraq bilinən Guzman və “Aydınlıq yol”, müəllimlər, bələdiyyə başçıları və vətəndaş liderləri öldürmüşlərdi.[12]

“Aydınlıq yol”, illər boyunca Peru xalqına maddi və mənəvi mənada çox böyük dağıntı gətirmiş, xalqın dəhşət içində yaşamasına səbəb olmuşdur. Bu,

terrorun təbii nəticəsidir. Terroru məğlub etmənin tək yolu isə, kitab boyunca üzərində detallı olaraq dayanılacağı kimi, sevgidir.

"Aydınlıq yol" terror təşkilatı Peruda 23 mindən çox insanın ölümünə səbəb olmuşdur. Üst sağdakı şəkildə təşkilatın lideri Abimeal Guzman görülməkdədir.

34:

Terrorist, müvəffəqiyyətə yalnız şiddət yoluyla çatacağına inanar. Ətrafındakı insanların özündən qorxmasını istəyər və bu qorxunu meydana gətirmək üçün insafsız, mərhəmətsiz və təcavüzkar xarakterə bürünər.

36:

Terrorun dəhşəti az qala bütün dünya ölkələrində hiss edilməkdədir. Amerikan Xarici İşlər Nazirliyinin məlumatlarına görə dünya səviyyəsində 2000-ci il boyu, 1999-cu ilə müqayisə etdikdə, terror hərəkətlərində 8%-lik artım görülmüşdür.

42:

Darvinizmin məktəblərdə sanki elmi həqiqət kimi tədris olması, uşaqların və gənclərin Darvinist fəlsəfə ilə öyrədilməsi, yeni terror təşkilatlarının yetişməsi mənasını verməkdədir. Qarşıdurmanın və mübarizənin, həyatın bir parçası olduğu təlqinini alan gənclər addım-addım, şiddətdən zövq alan, vəhşiliyi adi qarşılayan fərdlərə çevrilməkdədir.

45:

**Onlar bir müddət dünyada faydalanar; sonra onların dönüşü Bizə olar. Sonra da küfr etdiklərinə görə onlara şiddətli əzab daddırarıq. (Yunis surəsi, 70)**

50:

**...kim bir adamı öldürməyən və ya yer üzündə fəsad törətməyən bir şəxsi öldürərsə, sanki bütün insanları öldürmüşdür. Kim də onu ölümdən xilas edərsə, sanki bütün insanları xilas etmiş hesab olunar. Elçilərimiz onlara aydın dəlillər gətirdilər. Onların çoxu isə bundan sonra da yer üzündə həddi aşdılar. (Maidə surəsi, 32)**

52:

Terror günahsızları da hədəf almaqdadır. Halbuki Allah, insanlara günahsız insanın canına qıymalarını qadağan etmişdir.

56:

İnsanların irqlərindəki və milliyyətlərindəki fərqlər qarşıdurma ünsürü deyil. Tam tərsinə bu, mədəni zənginlikdir.

59:

Joel Augustus Ragers

64:

**Xeyr! Kim yaxşı işlər görüb Allaha təslim olarsa, Rəbbi yanında onun mükafatı olar. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər. (Bəqərə surəsi, 112)**

65:

**Həqiqətən, Allah zərrə qədər də olsa zülm etməz. Əgər qulun gördüyü iş yaxşı əməl olarsa, Allah bunu artırar və Öz tərəfindən böyük mükafat verər. (Nisa surəsi, 40)**

66:

Quran əxlaqı təvazökarlığı, köməkləşməyi və yaxşılıq etməyi əmr edər. Bu əxlaqın yaşandığı bir cəmiyyətdə, hüzur və təhlükəsizlik hakim olar.

71:

Kim yaxşılıq gətirərsə, ona gətirdiyinin on qat əvəzi verilər. Kim pislik gətirərsə, ona ancaq gətirdiyinin misli qədər cəza verilər. Onlara haqsızlıq edilməz. (Ənam surəsi, 160)

75:

Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq. (Nəhl surəsi, 97)

78:

Səbir et! Həqiqətən, Allah yaxşı iş görənlərin mükafatını puç etməz. (Hud surəsi, 115)

79:

Hər kim səbir edib bağışlasa, şübhəsiz ki, bu məqsədə uyğun işlərdəndir. (Şura surəsi, 43)

81:

Xoş söz demək və xətaları bağışlamaq, minnətlə verilən sədəqədən daha yaxşıdır. Allah Zəngindir, Həlimdir. (Bəqərə surəsi, 263)

84:

Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. İnsanları mömin olmağa sənmi məcbur edəcəksən? (Yunis surəsi, 99)

85:

Onlara nəsihət ver! Sən yalnız nəsihətçisən. Sən onların üstündə hökmdar deyilsən. (Ğaşiyə surəsi, 21-22)

88:

**İnsanları Allaha tərəf çağıran, yaxşı iş görən və: "Həqiqətən, mən müsəlmanlardanam!" – deyən kəsdən daha gözəl söz deyən kim ola bilər? (Fussilət surəsi, 33)**

92:

**Yaxşı iş görənlər üçün ən yaxşısı (Cənnət) və bundan da üstünü (Allahı görmək) vardır. Onların üzünü nə bir qubar, nə də bir zillət bürüyər. Onlar Cənnət sakinləridirlər və orada əbədi qalacaqlar. Pis işlər görənlərə isə pisliyin cəzası onun misli qədər verilər. Onları zillət bürüyər. Onları Allahdan qoruya bilən bir kimsə də yoxdur. Onların üzləri sanki zülmət gecənin parçalarına bürünmüşdür. Onlar Od sakinləridir və orada əbədi qalacaqlar. (Yunis surəsi, 26-27)**

102:

**O, sənə Kitabı gerçək olaraq, ondan əvvəlkiləri təsdiqləməsi üçün nazil etdi. Tövratı və İncili də O nazil etdi daha əvvəllər insanlara doğru yolu göstərən rəhbər olmaq üçün. Furqanı da O nazil etdi. Şübhəsiz ki, Allahın ayələrini inkar edənlər üçün şiddətli bir əzab vardır. Allah Qüdrətlidir, intiqam almağa qadirdir. (Ali İmran surəsi, 3-4)**

104:

Yəhudilər də eyni Müsəlmanlar və Xristianlar kimi insanlara gözəlliklə davranmaqla və yaxşılıq etməklə məsuldurlar.

107:

**Əgər bir xeyri aşkara çıxarsanız, yaxud onu gizlətsəniz və ya bir pisliyi bağışlasanız, bilin ki, Allah əfv edəndir, hər şeyə Qadirdir. (Nisa surəsi, 149)**

109:

Allahın əmr etdiyi əxlaqı yaşayan Yəhudilər, Xristianlar və Müsəlmanlar bir yerdə barış və təhlükəsizlik içində yaşaya bilərlər.

111:

Həqiqətən, Kitab əhlindən elələri də var ki, Allaha müti olaraq həm Allaha, həm sizə nazil edilənə, həm də özlərinə nazil edilənə iman gətirir, Allahın ayələrini ucuz qiymətə satmırlar. Onların öz Rəbbi yanında mükafatları vardır. Şübhəsiz ki, Allah tez haqq-hesab çəkəndir. (Ali İmran surəsi, 199)

113:

Şübhəsiz ki, möminlərin, yəhudi, nəsrani və sabiilərdən Allaha və Axirət gününə iman gətirənlərin və yaxşı iş görənlərin mükafatı öz Rəbbi yanındadır. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər. (Bəqərə surəsi, 62)

117:

Qoy İncil əhli Allahın onda nazil etdiyi şəriət qanunları əsasında hökm versinlər. Allahın nazil etdiyi ilə hökm verməyənlər – məhz onlar fasiqlərdir. (Maidə surəsi, 47)

118:

De: “Ey Kitab əhli! Bizim və sizin aranızda olan eyni bir kəlməyə gəlin ki, Allahdan başqasına ibadət etməyək, Ona heç bir şeyi şərik qoşmayaq və Allahı qoyub bir-birimizi ilahiləşdirməyək”. Əgər onlar üz döndərsələr, deyin: “Şahid olun ki, biz müsəlmanlarıq!” (Ali İmran surəsi, 64)

123:

O müttəqilər ki, bolluq zamanı da, qıtlıq zamanı da mallarından Allah yolunda xərcləyir, qəzəblərini boğur və insanları bağışlayırlar. Allah yaxşı iş görənləri sevir. (Ali İmran surəsi, 134)

125:

Səbir etdiklərinə görə onlara mükafatları ikiqat veriləcəkdir. Onlar pisliyi yaxşılıqla dəf edir və özlərinə verdiyimiz ruzidən Allah yolunda xərcləyirlər. (Qəsas surəsi, 54)

127:

Allah əmin-amanlıq yurduna (Cənnətə) çağırır və istədiyini doğru yola yönəldir. (Yunis surəsi, 25)

131:

Ey Peyğəmbər! Həqiqətən, Biz səni şahid, müjdəçi və xəbərdar edən olaraq göndərdik. Səni həm də Allahın izni ilə Ona tərəf çağıran və nur saçan bir çıraq kimi göndərdik. (Əhzab surəsi, 45-46)

132:

Biz belə etdik ki, siz Allaha və Onun Elçisinə iman gətirəsiniz, ona kömək edəsiniz, onun hörmətini saxlayasınız və gecə-gündüz Allahı tərifləyəsiniz. (Fəth surəsi, 9)

139:

Ey iman gətirənlər! Allah xatirinə ədaləti qoruyan şahidlər olun. Hər hansı bir camaata qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır. Allahdan qorxun! Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır. (Maidə surəsi, 8)

Alain Lesieutre, "Dikilitaş, İstanbul" yağlı boya tablo, 1855, Paris.

143:

Hər kəsin üz tutduğu bir qibləsi vardır. Yaxşı işlər görməkdə bir-birinizlə yarışın. Harada olursunuz olun Allah sizin hamınızı bir yerə toplayacaqdır. Şübhəsiz ki, Allah hər şeyə qadirdir. (Bəqərə surəsi, 148)

147:

**Ey iman gətirənlər! İslamı bütövlüklə qəbul edin və şeytanın addım izləri ilə getməyin. Şübhəsiz ki, o sizə açıq-aydın düşməndir. (Bəqərə surəsi, 208)**

149:

Bədiüzzaman Səid Nursi

151:

**Onlar üçün Rəbbi yanında əmin-amanlıq yurdu hazırlanmışdır. Gördükləri yaxşı işlərə görə onların Himayəçisi Odur. (Ənam surəsi, 127)**

164:

Charles Darvin

165:

Kembri qayalıqlarında olan fosillər, ilbizlər, trilobitlər, süngərlər, soxulcanlar, dəniz anaları, dəniz ulduzları, üzən qabıqlılar, dəniz zanbaqları kimi kompleks onurğasız növlərinə aiddir. Maraqlı olan, bir-birindən çox fərqli olan bu növlərin hamısının bir anda ortaya çıxmalarıdır. Buna görə geoloji ədəbiyyatda bu möcüzəvi hadisə, "Kembri partlaması" olaraq xatırlanar.

166:

Rus bioloq

Aleksandr Oparin

168:

İnsan DNT-si kağıza yazılarsa, ortaya təxminən 900 cildlik ensiklopediya çıxacağı hesablanmaqdadır. Bu cür fövqəladə məlumat, təsadüf anlayışını qəti şəkildə etibarsız etməkdədir.

170:

Təbii seleksiyaya görə, güclü olan və yaşadığı çevrəyə uyğunlaşma təmin edə bilən canlılar həyatda qalar, digərləri isə yox olarlar. Təkamülçülər isə təbii seleksiyanın canlıları təkamülləşdirdiyini, yeni növlər meydana gətirdiyini qarşıya qoyarlar. Halbuki təbii seleksiyanın belə bir nəticəsi yoxdur və bu iddianı təsdiqləyən tək bir sübut da yoxdur.

171:

Təsadüfi mutasiyalar insanlara və digər bütün canlılara hər zaman zərər verərlər. Təkamülçülər illərdir milçəklər üzərində mutasiya sınaqları edərək, faydalı mutasiya nümunəsi meydana gətirməyə çalışmışlar. Ancaq bu səylərinin nəticəsi yalnız şikəst və xəstə ağcaqanadlar olmuşdur.

173:

Bitkilərin təkamülü iddiasını təsdiqləyən tək bir fosil nümunəsi yox ikən, təkamül keçirmədiklərini isbat edən yüz minlərlə fosil vardır. Bu fosillərdən biri də şəkildə görülən 54-37 milyon illik ginkqo yarpağı fosilidir. Milyonlarla ildir dəyişməyən ginkqolar, təkamülün böyük aldatma olduğunu göstərməkdədir.

176:

Təkamülçülər, fosillər üzərində ümumiyyətlə ideoloji gözləmələri istiqamətində şəkilləndirdikləri şərhlər edərlər. Bu səbəblə gəldikləri nəticələr etibarlı deyil.

177:

Təkamül yanlısı qəzet və jurnallarda çıxan xəbərlərdə yuxarıdakına bənzər xəyali "ibtidai" insanların şəkilləri sıxlıqla istifadə edilər. Bu xəyali şəkillərə söykənərək yaradılan xəbərlərdəki tək qaynaq, yazan kəslərin təxəyyüldür. Ancaq təkamül elm qarşısında o qədər çox uduzmuşdur ki, artıq elmi jurnallarda təkamüllə əlaqədar xəbərlərə daha az rast gəlinər.

181:

Gözü və qulağı, kamera və səs qeyd edən cihazları ilə müqayisə etdiyimizdə bu orqanlarımızın bu texnologiya məhsullarından daha kompleks, daha müvəffəqiyyətli, daha qüsursuz strukturlara sahib olduqlarını görərik.

183:

Bütün həyatımızı beynimizin içində yaşayarıq. Gördüyümüz insanlar, mindiyimiz avtomobil, içində çalışdığımız iş yeri, ətrafımızdakı hər şey beynimizdə meydana gələr. Gerçəkdə isə beynimizdə, nə rənglər, nə səslər, nə də görünüşlər vardır. Beyində ola biləcək tək şey elektrik siqnallarıdır.

# ƏDƏBİYYAT


1) Vladimir Orlov, Anton Khlophov, Nezavissimaia Gazeta, Moskova, Le Courrier International, No: 571, 11-17 oktyabr 2001, səh. 99-100

2) Aslı Zülal, Biyolojik Silahlar, Bilim ve Teknik, sayı 407, oktyabr 2001, səh.44

3) Aslı Zülal, Biyolojik Silahlar, Bilim ve Teknik, sayı 407, oktyabr 2001, səh.44

4) http://www.terrorismfiles.org/organisations/basque_fatherland_and_liberty.html

5) http://www.terrorismanswers.com/groups/ira.html

6) http://www.cia.gov/cia/di/products/terrorism/index.html

7) Patterns of Global Terrorism 2000, Department of State Publication Office, aprel 2001, http://www.usis.usemb.se/terror/rpt2000/yearinreview.html

8) http://www.teror.gen.tr/turkce/rakamlarla/index.html

9) http://www.cbsnews.com/stories/2000/07/24/national/main218209.shtml

10) http://tr.wikipedia.org/wiki/7_Ağustos

11) http://www.worldtrek.org/odyssey/latinamerica/050899/050899team.html

12) http://www.worldtrek.org/odyssey/latinamerica/050899/050899team.html

13) Journal Sentinel, 24 sentyabr 2001, Philip Chard, http://www.jsonline.com/lifestyle/advice/sep01/charcol25092401a.asp

14) John L. Esposito, Islam: The Straight Path, Oxford : Oxford University, England, 1991 ,səh. 33

15) Buhari, Rudani, Büyük Hadis Külliyatı Cem'ul-fevaid, cild 5, No: 9704, İz Yayıncılık, İstanbul, səh.324

16) İbni Mace, Menasik, səh. 84, http://www.esselam.com/ogutler.html

17) Andy Thomas, İslam İnsanlığın Ruhu, Timaş Yayınları, İstanbul, 1997, səh. 33

18) H.A.R. Gibb, Whither Islam, London, 1932, səh. 379., Andy Thomas, İslam İnsanlığın Ruhu, Timaş Yayınları, İstanbul, 1997, səh. 37

19) Prof. Robert Briffault, İnsanlığın Gelişimi (The Making of Humanity), http://www.tolueislam.com/Shabbir/SA_WINC_4.htm , Andy Thomas, İslam İnsanlığın Ruhu, Timaş Yayınları, İstanbul, 1997, səh.38

20) Ahmet, I. 248 (El-Camiu's Sağir, I, 34, Abdurrezzak'dan, Ata), Doç. Dr. Talat Sakallı, Hadislerle İslam'da Hoşgörü ve Kolaylık, Çağlayan Yayınları, İzmir, 1996, səh. 78

21) Tırmizi, Rudani, Büyük Hadis Külliyatı Cem'ul-fevaid, cild 5, No: 9692, İz Yayıncılık, İstanbul, səh.323

22) Ahmet, II. 235, İşaru-İnsaf, səh. 219, Doç. Dr. Talat Sakallı, Hadislerle İslam'da Hoşgörü ve Kolaylık, Çağlayan Yayınları, İzmir, 1996, səh.52

23) Ali Bulaç, Çağdaş Kavramlar ve Düzenler, İz yayıncılık, 16-cı nəşr, İstanbul, 1998, səh. 241

24) Ali Bulaç, Çağdaş Kavramlar ve Düzenler, İz Yayıncılık, 16-cı nəşr, İstanbul, 1998, səh. 241

25) Hıristiyan Ahlakı, Turgay Üçal, Derek Malcolm, Ön Asya Basım Yayın Dağıtım, sentyabr 2000, səh. 51

26) Turgay Üçal, Derek Malcolm, Hıristiyan Ahlakı, Ön Asya Basım Yayın Dağıtım, sentyabr 2000, səh. 55

27) El-Cami's Sağir, 1. 427 (Hati, T. Bağdad, VII, 209, Doç, Dr. Talat Sakallı, Hadislerle İslam'da Hoşgörü ve Kolaylık, Çağlayan Yayınları, İzmir, 1996, səh.16

28) El-Cami's Sağir, 1. 427, Doç. Dr. Talat Sakallı, Hadislerle İslam'da Hoşgörü ve Kolaylık, Çağlayan Yayınları, İzmir, 1996, səh.17

29) Esbahani: Hz. Aişe; Tevfik Rüştü Erkul, Hadis Usulü Dersleri, Fon Matb, Ankara, 1970, səh. 79), Yesevizade, Sevgi Peygamberi, Hakikati Arayış Neşriyatı, Ankara, 1996, səh.131

30) Buhari ve Müslim, Yesevizade, Sevgi Peygamberi, Hakikati Arayış Neşriyatı, Ankara, 1996, səh.157

31) G.Ahmed Ziyaüddin, Ramuz El Hadis, cild 1, Gonca Yayınevi, İstanbul, 1997, 70/10

32) Prof. Dr. İbrahim Canan, Kütüb-i Sitte Muhtasarı Tercüme ve Şerhi, cild 7, Akçağ Yayınları, Ankara, səh. 293

33) Huccetü'l İslam İmam Gazali, İhya'u Ulum'id-din, cild 2, Çeviri: Dr. Sıtkı Gülle, Huzur Yayınevi, İstanbul 1998, səh. 798

34) Beyhaki: Cabir; A. H. Berki, no:143, Yesevizade, Sevgi Peygamberi, Hakikati Arayış Neşriyatı, Ankara, 1996, səh.157

35) http://www.sevde.de/Pey-ornek/18.htm

36) Konyalı Mehmed Vehbi, Tam Metni Sahih-i Buhari, cild 4, Üçdal Neşriyat, İstanbul 1993, səh.340

37) Huccetü'l İslam İmam Gazali, İhya'u Ulum'id-din, cild 3, Çeviri: Dr. Sıtkı Gülle, Huzur Yayınevi, İstanbul 1998, səh. 152

38) Prof. Dr. İbrahim Canan, Kütüb-i Sitte Muhtasarı Tercüme ve Şerhi, Cild 16, Akçağ Yayınları, Ankara, səh.239

39) Prof. Dr. İbrahim Canan, Kütüb-i Sitte Muhtasarı Tercüme ve Şerhi, Cild 16, Akçağ Yayınları, Ankara, səh.239

40) Huccetü'l İslam İmam Gazali, İhya'u Ulum'id-din, cild 3, Çeviri: Dr. Sıtkı Gülle, Huzur Yayınevi, İstanbul 1998, səh. 315

41) Huccetü'l İslam İmam Gazali, İhya'u Ulum'id-din, Cild 3, Çeviri: Dr. Sıtkı Gülle, Huzur Yayınevi, İstanbul 1998, səh. 425

42) Teberan: Hz. Ali; A.H.Berki, No:160, Yesevizade, Sevgi Peygamberi, Hakikati Arayış Neşriyatı, Ankara, 1996, səh. 305

43) Buhari ve Müslim: Enes; "Riy. Sal." III/1598 və 1601, Yesevizade, Sevgi Peygamberi, Hakikati Arayış Neşriyatı, Ankara, 1996, səh. 305

44) Camiüssagir, Abdülbaki Gölpınarlı, səh. 21, Yesevizade, Sevgi Peygamberi, Hakikati Arayış Neşriyatı, Ankara, 1996, səh.306

45) Sünen-i Ebu Davud, 4/331

46) Müsned-i Ahmed b. Hanbel, 4/158, İbnu Kesir, 4/128

47) Buhari: Bapu Gazveti Mute Ardı'ş Şam, 2/611. Peygamber Efendimiz Hayatı ve Daveti (Er-Rahiku'l Mahtum), Safiyurrahman el-Mübarek-Furi, Risale Yayınevi, İstanbul, 1999, səh. 438

48) Ahmet Hamdi Akseki, Abdurrahman Azzam Paşa'nın "Allah'ın Peygamberlerine emanet ettiği ebedi risalet", Diyanet İşleri Başkanlığı Neşriyat, Ankara, 1948, giriş

49) Muhammed Hamidulllah, İslam Müesseselerine Giriş, Düşünce Yayınları, İstanbul, 1981, səh.128

50) Medine Sözleşmesi, Milli Gazete, 5 dekabr 2001

51) Muhammed Hamidulllah, İslam Müesseselerine Giriş, Düşünce Yayınları, İstanbul, 1981, səh.162-163

52) Sir George Bernard Shaw, The Genuine Islam, cild 1, No. 8, 1936.

53) Bediüzzaman Said Nursi, Tarihçe-i Hayat, Isparta Hayatı, səh. 2216

54) Bediüzzaman Said Nursi, Emirdağ Lahikası, 2 cild, səh. 200

55) Bediüzzaman Said Nursi, Tarihçe-i Hayat, Isparta Hayatı, səh. 2216

56) Bediüzzaman Said Nursi, Emirdağ Lahikası 2, səh. 159

57) Bediüzzaman Said Nursi, Tarihçe-i Hayat, Isparta Hayatı, səh. 2216

58) Bediüzzaman Said Nursi, Bediüzzaman Cevap Veriyor, səh. 9-10

59) Bediüzzaman Said Nursi, Şualar, On Birinci Şuâ, səh. 964

60) Bediüzzaman Said Nursi, Şualar, On Birinci Şuâ, səh. 964

61) Bediüzzaman Said Nursi, Barla Lâhikası - Takdim, səh. 1412

62) Bediüzzaman Said Nursi, Emirdag Lahikası 2, Mektup No:49, səh. 1831

63) Bediüzzaman Said Nursi, Şuâlar, On İkinci Şuâ, səh. 992

64) Bediüzzaman Said Nursi, Şualar, On Dördüncü Şuâ, səh. 1024

65) Bediüzzaman Said Nursi, Şualar, On Dördüncü Şuâ, səh. 1024

66) Bediüzzaman Said Nursi, Risale-i Nur Külliyatı II, Divan-ı Harbı Örfi, Nesil Yayınları, səh. 1921

67) Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2

68) Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh.196

69) "New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, cild 63, noyabr 1982, səh. 1328-1330

70) Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7

71) Jeffrey Bada, Earth, fevral 1998, səh. 40

72) Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, cild 271, oktyabr 1994, səh. 78

73. Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 189

74) Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184

75) B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.

76) Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179

77) Charles Darwin, The Origin of Species, səh. 172, 280

78) Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, cild 87, 1976, səh. 133

79) Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. səh. 197

80) Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 75-94; Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, cild 258, səh. 389

81) J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, dekabr 1992

82) Alan Walker, Science, cild 207, 1980, səh. 1103; A. J. Kelso, Physical Antropology, 1-ci nəşr, New York: J. B. Lipincott Co., 1970, səh. 221; M. D. Leakey, Olduvai Gorge, cild 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272

83) Time, noyabr 1996

84) S. J. Gould, Natural History, cild 85, 1976, səh. 30

85) Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19

86) Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 yanvar 1997, səh. 28

87) Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43